# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

## ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА

## NEWS OF BAKU UNIVERSITY

**SOSİAL-SİYASİ ELMLƏR**
***seriyası***

***серия***
**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК**

***series of***
**SOCIAL-POLITICAL SCIENCES**

**№ 2**
**2019**

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 *Sosial-siyasi elmlər seriyası* 2019

## HÜQUQ

**УДК 343.211.3**

# СОВРЕМЕННАЯ КОНЦЕПЦИЯ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА В КОНТЕКСТЕ ВСЕОБЩЕЙ ДЕКЛАРАЦИИ ПРАВ ЧЕЛОВЕКА 1948 Г.

***(343.211.3 - защита прав человека)***

**Ф.И.КУРБАНОВА**

***Бакинский Государственный Университет***

***internlaw@mail.ru***

*В статье анализируется современная концепция прав и свобод человека в контексте всеобщей декларации прав человека 1948 г., характеризуется процесс формирования концепции прав человека прошедший длительный путь начиная с Древней Греции и Римского государства по сегодняшний день, дается обзор деятельности международных контрольных органов как обязательного структурного элемента универсальных конвенций по правам человека, начиная с принятия в 1965 г. Международной конвенции ООН о ликвидации всех форм расовой дискриминации, а также анализируются мнения ряда юристов-международников по данной проблеме.*

**Ключевые слова:** концепция, комитет, комиссия, декларация, права человека, регламентация, принципы, нормы.

Всеобщую декларацию прав человека 1948 г. называют "выдающимся документом в истории человечества", "Хартией вольностей для всего человечества" [8, 84]. Таких высочайших оценок не удостаивался ни один международный документ. Причину столь беспрецедентного всеобщего признания следует искать в содержании Всеобщей декларации, компактно и доступным языком излагающей современную концепцию прав человека.

Процесс формирования концепции прав человека прошел длительный путь, тесно связанный с историей развития общества. На всех этапах развития общества концепция прав человека формировалась под определяющим влиянием экономических, культурных и других факторов; философские воззрения и правовая регламентация. Двойственный характер природы прав человека обусловило появление естественно-правовой и позитивной теорий.

По словам итальянского профессора Черони, для первой характерно выведение прав человека "из области морали, критериев справедливости, безотносительно к юридическим порядкам", вторая "подчеркивала позитивную природу современного права как права, установленного или гарантированного государством" [11, 52].

Идеи естественного равенства людей — равенства по природе, столь существенные для понимания прав человека, были высказаны древнегреческими софистами (Протагор, Антифонт, Ликофрон) и китайскими мыслителями (Лао-Цзы, Конфуций) еще в VI—IV вв. до н. э. В VI в. до н. э. греческий архонт Солон разработал Конституцию, закрепляющую некоторые принципы демократического устройства общества, касающиеся привлечения к ответственности чиновников за произвол по отношению к населению [7, 27].

Древнеримским юристам принадлежит заслуга в разработке понятия субъекта права и равенства перед законом. "Под действие закона должны подпадать все", — утверждал Цицерон [10, 139]. Философские идеи не получали адекватного отражения в законодательстве в условиях классового общества в Древней Греции и Римском государстве. Права человека рассматривались законом как привилегия только рабовладельцев, исключая огромную массу рабов.

Аналогичная тенденция характерна для периода средневековья, где права человека являлись привилегией отдельных сословий, а равенство прав обусловливалось принадлежностью к одному и тому же сословию. Вместе с тем сословная ограниченность прав человека не умаляет значения английского документа — "Великой хартии вольностей" 1215 г., впервые закрепившей право на неприкосновенность личности. Статья 39, провозгласившая: "Ни один свободный человек не будет арестован или заключен в тюрьму, или лишен владения, или каким-либо способом обездолен... иначе, как по законному приговору... и по закону страны", создает непреходящую славу этому документу [6, 7].

Ключевую роль в формировании естественно-правовой концепции прав человека играли философы-просветители XVI—XVIII вв.: англичанин Локк, американцы Пэйн и Джефферсон; французы Руссо, Монтескье, Вольтер; голландец Гроций. Их идеи, касающиеся равенства людей, неотчуждаемости таких прав, как право на жизнь, свободу и безопасность, которыми они наделены от рождения, получили закрепление в конституционном и ином законодательстве периода буржуазных революций и становления буржуазных государств: в Англии — в Петиции о правах 1628 г. и "Билле о правах" 1689 г.; в Америке — Декларации о правах Вирджинии 1776 г. и Декларации независимости США 1776 г., "Билле о правах" 1791 г.; во Франции — Декларации прав человека и гражданина 1789 г. Показательна в этом плане Декларация о правах Вирджинии 1776 г. Это был первый документ конституционного типа, в котором из-

лагалась концепция прав человека. В ней провозглашалось в качестве "самоочевидной" истины, "что все люди созданы равными и наделены Творцом определенными неотчуждаемыми правами, что к ним относится жизнь, свобода и стремление к счастью, что для обеспечения прав среди людей учреждаются государства, черпающие свои разумные полномочия в согласии управляемых" [7, 27]. С этих пор "права человека" прочно вошли в философскую и юридическую терминологию.

Особое место среди названных документов занимает французская Декларация прав человека и гражданина 1789 г. В ней в четкой и лаконичной форме было раскрыто содержание прав человека, подчеркнута ценность человеческой личности, определена роль государства в установлении статуса личности в гражданском обществе.

Несомненная значимость Декларации заключается в том, что она не только содержала основные права и свободы, обусловив необходимость государственной власти для их гарантии, но и сформировала принципы ее организации, весьма созвучные с принципами современного правового государства. К ним относятся:

а) верховенство закона (все, что не запрещено законом, то дозволено; никто не может быть принужден делать то, что не предписано законом (ст. 5); наказание и задержание лица, лишение собственности возможно только на основании закона) (ст. 7, 8, 17);

б) представительная форма правления (все граждане имеют право лично или через своих представителей участвовать в создании закона; все граждане имеют равный доступ ко всем должностям согласно их способностям (ст. 6);

в) подотчетность всех органов и должностных лиц ("общество может требовать у любого должностного лица отчета о его деятельности" (ст. 15).

Несмотря на более чем 200-летнюю давность, положения Декларации сохраняют свою актуальность до настоящего времени. Именно поэтому Декларацию можно рассматривать как фундамент Всеобщей декларации прав человека при несомненном влиянии ее на последующее национальное законодательство других стран в области прав человека.

К началу разработки Всеобщей декларации прав человека имелась сложившаяся концепция прав и свобод человека, получившая закрепление в конституционном законодательстве наиболее развитых государств того времени.

Что касается реализации концепции прав и свобод человека, то она имела весьма ограниченное территориальное действие, не распространяясь на огромное количество населения, проживающего в регионах Африки и Азии, являющихся колониальными владениями развитых цивилизованных государств.

Этому способствовало и классическое международное право, при-

знававшее в качестве своих субъектов только цивилизованные народы. Международное сотрудничество государств в области защиты прав человека начало складываться только после Первой мировой войны и выражалось в заключении ряда договоров о защите национальных меньшинств под эгидой Лиги Наций [6, 7].

Вопрос о необходимости разработки Декларации прав человека был поднят США в ходе выработки Устава Организации Объединенных Наций в 1943—1945 гг.

Причины были впоследствии сформулированы в преамбуле Всеобщей декларации прав человека. Они сводятся к следующему:

1. "Пренебрежение и презрение к правам человека привели к варварским актам, которые возмущают совесть человечества".

2. "Стремлением людей" является создание такого мира (общества), где люди "будут иметь свободу слова и свободу убеждений и будут свободны от страха и нужды" (иначе, для нормальной жизнедеятельности человека нужно обладание всем комплексом прав, как гражданских и политических, так и социально-экономических).

3. Права человека должны иметь надежную правовую защиту ("обеспечиваться законом"), чтобы "человек не был вынужден прибегать к восстанию в качестве последнего средства против тирании и угнетения".

4. Устав ООН накладывает обязанности на государства "содействовать в сотрудничестве с ООН всеобщему уважению и соблюдению прав и свобод человека". "Огромное значение для выполнения этой обязанности" имеет "всеобщее понимание характера этих прав и свобод", что достигается регламентацией в универсальном международном документе.

5. Закрепление прав и свобод в едином документе создаст условия для просвещения и образования в области прав человека, содействуя таким образом их уважению, принятию национальных и международных мер для их "всеобщего и эффективного признания и осуществления" [3, 5-8].

Инициатива США в постановке вопроса о разработке Декларации прав человека объяснялась активной деятельностью американских неправительственных организаций (Американский институт права, Комиссия по обеспечению мира, Американская группа планирования), которым принадлежала идея разработки Декларации прав человека и включение ее в текст Устава ООН либо в качестве приложения к нему [4, 12].

В качестве компромиссного варианта США предложили включить в будущий Устав только статьи, касающиеся целей и задач ООН в области прав человека [4, 13].

В Уставе ООН были закреплены цели и функции ООН в области защиты прав человека и определены органы ООН, ответственные за их реализацию. Одной из главных целей ООН провозглашалось "вновь утвердить веру в основные права человека, в достоинство и ценность человеческой личности, в равноправие мужчин и женщин, в равенство боль-

ших и малых наций" [2, 8].

Однако при всей абстрактности уставных положений, касающихся прав человека, нельзя не отметить важнейшую роль Устава в создании правовой базы для осуществления нормотворческой деятельности с точной фиксацией предмета регулирования: а) основные права человека, б) достоинство и ценность человеческой личности, в) борьба с дискриминацией (равенство прав мужчин и женщин, больших и малых наций).

Первым объектом нормотворческой деятельности ООН должны были стать основные права человека. С этой целью на основе резолюции ЭКОСОС от 16 февраля 1946 г. была создана Комиссия по правам человека, мандатом которой являлась разработка международных деклараций или конвенций по вопросам гражданских свобод [13, 24]. Комиссия была сформирована в составе 18 представителей государств, избранных по принципу равного географического представительства. В состав Комиссии вошли представители стран, принадлежащих к разным континентам — Европа (Англия, Франция, Бельгия), Америка (США, Чили), Азия (Китай, Индия), Африка (Египет), Австралия, и к различным политическим системам (СССР, Украина, Белоруссия, Польша), что нацеливало работу Комиссии на обобщение различных доктринальных подходов, идеологий и национального законодательства. Кроме того, с целью оказания помощи Комиссии по правам человека в Секретариате ООН был создан Департамент по правам человека, возглавляемый известным канадским профессором, специалистом в области международного права Джоном Хамфри [4, 28].

Для подготовки Декларации была создана временная рабочая группа, в состав которой вошли Элеонора Рузвельт, французский профессор Рэнэ Кассен, философ по образованию Шарль Малик (Ливан), получивший образование в Гарварде и заменивший впоследствии Элеонору Рузвельт на посту председателя Комиссии по правам человека. Докладчиком, которому поручалась подготовка первоначального текста Декларации, был назначен Рэнэ Кассен. На 2-й сессии Комиссии по правам человека, проходившей в декабре 1947 г., был представлен практически законченный проект Декларации, подготовленный Кассеном, основанный на "Документированных заметках" Департамента по правам человека Секретариата ООН. После обсуждения в Комиссии он был отправлен на замечания правительствам [9, 5, 85].

На 3-й сессии (июнь 1948 г.) Комиссия по правам человека, после изучения немногочисленных замечаний правительств, завершила работу над проектом Декларации и представила его в ЭКОСОС, который направил его для окончательной доработки и принятия в III Комитет Генеральной Ассамблеи ООН, проходившей в Париже с сентября по декабрь 1948 г. [13, 24]. Работа над текстом Декларации о правах человека была завершена в течение 2 лет. Объединение в Комиссии по правам человека и особенно в III Комитете Генеральной Ассамблеи ООН (куда входили 58

государств — членов ООН) представителей различных философских, идеологических и религиозных воззрений относительно происхождения и содержания прав человека вызывало острые дискуссии по каждой статье проекта Декларации, особенно в III Комитете Генеральной Ассамблеи. Об этом красноречиво свидетельствуют следующие факты. С сентября по декабрь III Комитет ГА ООН провел 85 заседаний по проекту Декларации, а голосование проходило 1400 раз, то есть фактически по каждому слову и каждой поправке [13, 24].

Работа над Всеобщей декларацией была выдающимся образцом сотрудничества и согласования позиций по столь сложной проблеме, как права человека.

Концепция прав и свобод человека, закрепленная во Всеобщей декларации, состоит из следующих компонентов: а) основополагающие принципы прав человека; б) классификация прав и свобод человека; в) права человека и общество; г) соотношение прав личности и государства.

В Декларации подчеркивается взаимосвязь гражданских, политических и социально-экономических прав, необходимость установления такого социального и международного правопорядка, при котором они могут быть полностью осуществлены (ст. 28).

Американский профессор Г. Джонсон предлагает более детальные классификационные критерии: *личные права и свободы* (право на жизнь, недопустимость рабства, недопустимость пыток, право на правосубъектность, право на защиту закона, право на восстановление законных прав судом, неприкосновенность личности, право на разбирательство дела справедливым судом, презумпция невиновности, привлечение к ответственности за преступление, являющееся таковым по закону или по международному праву); *права человека в его взаимоотношениях с другими социальными группами и внешним миром* (неприкосновенность жилища, тайна корреспонденции, право на свободное передвижение и выбора места жительства, право искать убежище, спасаясь от политических или религиозных преследований, право на вступление в брак, право на владение имуществом); *духовные, гражданские и политические права* (свобода мысли, совести и религии, свобода убеждений и доступ к информации, свобода собраний и ассоциаций, свобода избирать и быть избранными); *экономические, социальные и культурные права* [4, 72].

Отдавая приоритет индивидуальным правам личности, Декларация не рассматривает их изолированно от общества, в котором она проживает. Поэтому права личности не носят абсолютного характера, а ограничиваются обязанностями перед обществом.

Анализ содержания Всеобщей декларации прав человека свидетельствует о ее исторической преемственности с французской Декларацией прав человека и гражданина 1789 г. Однако Всеобщая декларация прав человека, принятая в новых условиях послевоенного переустройства ми-

ра, внесла в нее ряд инновационных моментов как в концептуальном, так и в содержательном плане.

После принятия Всеобщей декларации прав и свобод человека началось ее активное признание. На национальном уровне на Декларацию ссылались конституции большинства новых независимых государств, возникших после краха колониальных систем и распада СССР. Причем разделы, касающиеся прав и свобод личности, в таких конституциях рецепцировались из текста Декларации.

Показательна в этом отношении и практика национальных судов, которые используют положения Декларации для трактовки прав и свобод, закрепленных в национальном законодательстве, и выявления их нарушения. Наиболее часто ссылались на Декларацию австрийские суды, а римский суд квалифицировал положения Всеобщей декларации как общепризнанные нормы международного права [5, 121].

Всеобщее признание Декларации способствовало кардинальному изменению ее статуса: будучи по способу принятия резолюцией-рекомендацией Генеральной Ассамблеи ООН, она стала общей обычной нормой международного права. Содержание Декларации не соответствовало духу рекомендательных норм. Некоторые ее положения изложены в повелительной тональности. Характерна в этом плане статья 30 , в которой заявляется в императивной форме, что ни одно государство, ни отдельные лица не могут "совершать действий, направленных к уничтожению прав и свобод, изложенных в Декларации". Универсальный характер прав и свобод, их ориентированность на все человечество позволили ряду ученых (Лаутерпахт, Макдугал, Чен) считать Декларацию Великой хартией вольностей всего человечества (Magna Carta), а ее нормы имеющими характер *jus cogens* [12, 5].

Значимость Всеобщей декларации заключается не только в том, что она явилась первым международным стандартом в области прав человека, но и в том, что она создала правовую базу для последующего кодификационного процесса в этой области, который способствовал эволюции концепции прав человека.

Развитие концепции прав человека шло по следующим направлениям: 1) толкование принципов, основополагающих для концепции прав человека; 2) детализация и конкретизация фундаментальных прав и свобод человека и их регламентация в отношении отдельных социальных групп; 3) создание института международной защиты прав человека.

Несмотря на признание Всеобщей декларации по правам человека мировым сообществом, начиная с 80-х гг. страны Афро-Азиатского региона стали выступать с критикой принципа универсальности прав и свобод человека, закрепленного во Всеобщей декларации, называя его абстрактным, нереальным, отражающим лишь европейские ценности и не учитывающим национальные, религиозные, исторические, географиче-

ские особенности каждого государства или группы государств.

Указанная позиция особенно ярко выявилась в выступлениях представителей развивающихся государств (Китая, Кубы, Индонезии, Сирии, Пакистана, Йемена, Сингапура) в период проведения Второй всемирной конференции по правам человека (с 14 по 25 июня 1993 г.). Они заявили о новой концепции прав человека, в отличие от традиционной западной, суть которой сводилась к следующему: а) основное внимание должно уделяться региональной специфике отдельных стран при трактовке и применении прав человека; б) социально-экономическим правам должен отдаваться приоритет перед гражданскими и политическими, "причем акцент делается на особую значимость коллективных прав в ущерб индивидуальным правам"; в) установление статуса личности относится к исключительно внутренней компетенции государства, поэтому принцип невмешательства во внутренние дела государства должен быть определяющим даже при грубых нарушениях прав человека [1, 150].

Абсолютное большинство государств-участников Венской конференции по правам человека не поддержали сторонников "азиатской" концепции, и в итоговом документе конференции Венской декларации и Программе действий принцип универсальности прав человека был подтвержден и углублен. В нем подчеркивалось, что "все права человека универсальны, неделимы, взаимозависимы и взаимосвязаны. Хотя значение национальной и региональной специфики различных исторических, культурных и религиозных особенностей необходимо иметь в виду, государства, независимо от их политических, экономических и культурных систем, несут обязанность поощрять и защищать все права человека" [3, 95].

Всеобщая декларация легла в основу нормотворческой деятельности в области прав человека на международном уровне. Основные фундаментальные права человека получили закрепление в универсальных международных договорах (Пакт о гражданских и политических правах 1966 г., Пакт об экономических, социальных, культурных правах 1966 г.) и в региональных соглашениях (Европейская конвенция о защите прав человека и основных свобод 1950 г., Американская конвенция о правах человека 1969 г., Африканская Хартия прав человека и народа 1981 г.). Кроме того, весомый вклад в осуществление кодификационного процесса в области прав человека внесли Конвенции ООН, МОТ и ЮНЕСКО, регулирующие права и свободы отдельных групп населения (Конвенции ООН о политических правах женщин 1952 г., Конвенция ООН о правах ребенка 1989 г., Конвенция ЮНЕСКО о ликвидации дискриминации в области образовании 1960 г., Конвенция МОТ о злоупотреблении в области миграции и обеспечении трудящимся мигрантам равенства возможностей и обращения 1975 г. и т. д.). Новацией договоров по правам человека в отличие от Всеобщей декларации являются детальная трактовка прав человека, закрепление гарантий их реализации государством, выделение особой категории фундаментальных прав человека, не

подлежащих ограничению со стороны государств ни при каких обстоятельствах (право на жизнь, недопустимость пыток, свобода мысли и убеждений, право на судебную защиту). Учитывая юридическую обязательность конвенционных норм, для государств, ратифицирующих международные соглашения, кодификационная деятельность в области права человека не только способствовала увеличению количества международных стандартов, но и активизировала национальное нормотворчество по их закреплению в законодательстве государств.

Всеобщая декларация прав человека, базирующаяся на принципе неотъемлемости прав и свобод для жизнедеятельности любой личности, закрепила возможность ограничения прав личности со стороны государства только в исключительных случаях. Однако при этом возлагала лишь на государство функции контроля и защиты прав человека.

Многочисленные отступления и грубые нарушения прав человека, неоднократно приводившие к локальным вооруженным конфликтам, показали явную неэффективность внутригосударственного контроля за их соблюдением, особенно в странах с диктаторским режимом. Поэтому начиная с середины 70-х гг. в международно-правовых документах, принимавшихся в рамках Совещания по безопасности и сотрудничеству в Европе (СБСЕ) четко прослеживается тенденция определить функции международного права и внутригосударственного права в области защиты прав человека.

В первом документе СБСЕ Хельсинкском Заключительном акте 1975 г., закрепившем принцип уважения основных прав и свобод человека в качестве принципа международного права, устанавливался баланс равного взаимодействия международно-правового и национального регулирования прав человека. Государства должны "поощрять и развивать эффективное осуществление гражданских, политических, экономических, социальных и культурных и других прав и свобод... Совместно и самостоятельно действовать в соответствии с условиями и принципами Устава ООН и Всеобщей декларации прав человека" [2, 77].

В документе Копенгагенского совещания Конференции по человеческому измерению СБСЕ уже утверждалась главенствующая роль международных стандартов в области прав человека. Согласно Документу любое государство имеет право "свободно выбирать и развивать в соответствии с международными стандартами в области прав человека свои политические, социальные, экономические и культурные системы... и должны обеспечивать, чтобы их законы, административные правила и политика сообразовывались с их обязательствами по международному праву". Кроме того, отдельным лицам или группам, действующим от их имени, было предоставлено право "поддерживать связь с международными органами, наделенными компетенцией получать и рассматривать информацию, касающуюся утверждений о нарушении прав человека" [6, 296,

300] (иными словами, право обжаловать действия государства-нарушителя).

Таким образом, институт международной защиты прав человека был легализирован. Функции международной внутригосударственной защиты прав человека разграничивались следующим образом: на международном уровне разрабатываются международные стандарты в области прав человека и действуют контрольные органы за их соблюдением, на национальном уровне государства приводят свое законодательство в соответствие с международными стандартами и гарантируют их выполнение.

Международные контрольные органы стали обязательным структурным элементом универсальных конвенций по правам человека, начиная с принятия Международной конвенции ООН о ликвидации всех форм расовой дискриминации 1965 г. Создаваемые на базе конвенций международные контрольные органы (Комитет по ликвидации расовой дискриминации, Комитет по правам человека, Комитет против пыток, Комитет по правам ребенка) наделялись правом требовать от государств периодического предоставления докладов о соответствии их законодательства положениям конвенций, а некоторые из них (Комитет по ликвидации расовой дискриминации, Комитет по правам человека, Комитет против пыток) уполномочивались рассматривать жалобы государства на государство относительно нарушения прав человека, предусмотренных соответствующей конвенцией, и индивидуальных жалоб граждан на государство с правом вынесения рекомендаций по устранению нарушений.

Региональные конвенции (здесь безусловное авторство принадлежит Европейской конвенции о защите прав человека и основных свобод 1950 г.) пошли гораздо дальше, предусмотрев учреждение Суда по правам человека, имеющего право рассматривать жалобы государства на государство и индивидуальные жалобы относительно нарушений положений конвенции, причем решение суда является обязательным для государства.

Функционирование механизма международной защиты прав человека направлено на создание дополнительных гарантий их соблюдения государствами. Однако совершенно очевидно, что эволюция концепции прав человека не свидетельствует о радикальных изменениях содержания Всеобщей декларации, а лишь конкретизирует и углубляет ее положения, что свидетельствует об уникальности, жизнеспособности и современности данного документа, несмотря на полувековой период со дня принятия Декларации.

## ЛИТЕРАТУРА

1. Бахмин В. И. Вторая Всемирная конференция по правам человека // Московский журнал международного права, № 1, 1994, с. 150.
2. Действующее международное право. М., 1996, т.1, с. 8, 77.
3. Действующее международное право. М.,1996, т. 2, с. 5-8, 95.
4. Джонсон Г. Мандат Организации Объединенных Наций в области прав человека. Т. 1. М., 1996, с.12-13, 28,72.
5. Лукашук И. И. Резолюции Генеральной Ассамблеи ООН в практике судов госу-

дарств // Государство и право. 1993, № 7, с. 121.
6. Международное сотрудничество в области прав человека: Документы и материалы. М., 1993, с. 7, 84, 296, 300.
7. Мюллерсон Р. А. Права человека: идеи, нормы, реальность. М., 1991, с. 27.
8. Общая теория прав человека. / Под ред. Е. А. Лукашевой. М., 1996, с. 9, 84.
9. Федерик Майор (Генеральный директор ЮНЕСКО) // Всеобщая декларация прав человека: 45-я годовщина. 1948-1993. ЮНЕСКО. Париж, 1994. С. 5; Элеонора Рузвельт (общественный и политический деятель США, председатель Комиссии по правам человека) (1946—1951) // Там же. С. 85; The Universal Declaration of Human Rights. A Magna Carta for all humanity // Fiftieth Anniversary Universal Declaration of Human Rights. United Nations. 1998.
10. Цицерон. Диалоги. М., 1966, с. 139.
11. Черони У. Права человека. Демократия. Светская этика // Права человека в истории человечества и в современном мире. М., 1989, с. 52.
12. International Law Association. Cairo Conference. Committee on the Enforcement of Human Rights Law. 1992, p. 5.
13. The Universal Declaration of Human Rights. Establishing the system. The United Nations and Human Rights. 1945-1995. N.Y., 1998, p. 24.

## 1948-Cİ İL İNSAN HÜQUQLARI ÜMUMİ BƏYANNAMƏSİ VƏ ONUN ŞƏRHİ İLƏ MÜASİR İNSAN HÜQUQLARININ VƏ AZADLIQLARININ KONSEPSİYASI

**F.İ.QURBANOVA**

**XÜLASƏ**

Məqalədə 1948 il insan hüquqlarının ümumi bəyannaməsi şərhi ilə insan hüquq və azadlıqlarının müasir konsepsiyası təhlil edilir. Bir sıra beynəlxalq hüquqşunasların fikirləri təhlil edilərək insan hüquqlarının konsepsiyasının formalaşması prosesi Qədim Yunanıstan və Roma dövlətin başlayaraq bu günə qədər keçən uzun bir yolu təsvir edilir.

**Açar sözlər:** konsepsiya, komitələr, prinsiplər, normalar, nizama salma, bəyannamə, insan hüquqları.

## THE MODERN CONCEPT OF HUMAN RİGHTS AND FREEDOMS İN THE CONTEXT OF UNİVESAL DECLARATİON OF HUMAN RİGHTS OF 1948.

**F.I.QURBANOVA**

**SUMMARY**

This article analyzes the interpretation of the universal declaration of human rights of 1948,the modern concept of human rights and freedoms. The process of establishing human rights concepts, which has come a long way from Ancient Greece and The Romans to present day is described here. An overview of activities of international monitoring bodies as a mandatory structural element of the universal human rights conventions is provided in this article, starting with the adoption of the UN international convention on the elimination of all forms of racial discrimination of 1965.The opinions of a number of international lawyers on this topic are viewed.

**Keywords:** concept, committee, commission, declaration, human rights, regulation, principles, norms.

UOT 343.1

# CİNAYƏT TƏQİBİNƏ BƏRAƏTVERİCİ ƏSASLAR OLMADAN XİTAM VERİLƏ BİLMƏSİ ÜÇÜN MÜDAFİƏ TƏRƏFİNİN DİSPOZİTİV RAZILIĞI HAQQINDA

**Q.V.CƏFƏROV**
***Bakı Dövlət Universitetinin***
***qehraman79@mail.ru***

*Cinayət prosesində dövlət orqanları tərəfindən bəzi qərarların qəbul edilməsi üçün vəzifəli şəxs olmayan proses iştirakçılarının razılığının alınması tələb olunur. Bu, cinayət-prosessual hüququn dispozitivliyi prinsipinin təzahürlərindən biridir. Qanunla nəzərdə tutulan hallarda bu və ya digər qərarın qəbul edilməsinə razılıq verib-verməmək subyektin öz iradəsindən asılıdır. Konkret normativ qaydada təsbit edilmiş hallarda əgər subyekt bu və ya digər qərarın qəbul edilməsinə razılıq verərsə, cinayət prosesini həyata keçirən orqan həmin qərarı qəbul edə bilir, əgər razılıq verməzsə, cinayət prosesini həyata keçirən orqan bunu edə bilmir. Başqa sözlə, subyekt razılıq vermək hüququndan istifadə etməklə cinayət prosesini həyata keçirən orqanın prosessual fəaliyyətinin istiqamətinə bilavasitə təsir göstərə bilir. Cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi zamanı cinayət təqibinə məruz qalan şəxsin razılığının tələb olunması da bu kimi qaydalardandır. Məqalədə həm məhkəməyədək icraatda, həm də məhkəmə icraatında cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi zamanı şübhəli və ya təqsirləndirilən şəxsin razılığının alınmasının xüsusiyyətləri araşdırılmış, həmçinin hansı hallarda cinayət təqibinə məruz qalan şəxsin hüquqi varisinin və hansı hallarda onun müdafiəçisinin belə bir razılıq verməli olması məsələlərinə də aydınlıq gətirilmişdir. Məqalədə baxılan institutla bağlı qüvvədə olan cinayət-prosessual qanunvericiliyin aidiyyətli normaları doktrinal qaydada təfsir edilmiş, normadakı qüsurlar müəyyən edilmiş və onların aradan qaldırılması üçün təkliflər irəli sürülmüşdür.*

**Açar sözlər:** cinayət prosesi, prinsiplər, dispozitivlik, iradə azadlığı, subyektin razılığı, bəraətverici əsaslar, cinayət təqibi, xitam etmə, qanun, təhlil, təklif.

Qüvvədə olan cinayət-prosessual qanunvericilikdə prosessual hüquq münasibətlərinin iştirakçıları, o cümlədən cinayət prosesinin tərəfləri olan subyektlərin "razılığına" xüsusi önəm, hüquqi nəticə doğuran normativ əhəmiyyət verilmişdir. Könüllü razılığın verilməsi azad iradə ifadəsi ilə bağlı olduğu üçün bu hüquqi fenomen də cinayət-prosessual hüquqda dispozitivlik prinsipinin təsir dairəsinə düşür. Cinayət mühakimə icraatında bu və ya digər prosessual hərəkətin həyata keçirilməsi üçün, yaxud prosessual qərarın qəbul edilməsi üçün hakimiyyət səlahiyyəti olmayan subyektlərin razılığı tələb edilirsə, de-

məli, burada könüllü iradə ifadəsinin hüquqi əhəmiyyətindən, yəni dispozitivlik prinsipinin tərkib hissəsi olan subyektin iradə muxtariyyətindən bəhs olunur. Başqa sözlə, qüvvədə olan qanunvericiliyin normaları ilə konkret hallarda vəzifəli şəxslərin davranış imkanlarının hakimiyyət səlahiyyəti olmayan subyektlərin iradəsindən (razı olub-olmamasından) "asılı vəziyyətə salınması" dispozitivlik prinsipinin təzahür formalarından biri kimi nəzərdən keçirilə bilər. Çünki subyektin qanunda mütləq əməl edilməli olan normativ şərt qismində təsbit edilmiş "hüquqi nəticəyə səbəb olan razılığı" ilə əlaqədar mexanizmin işə düşdüyü bütün hallarda həmin subyekt məhz öz arzusu ilə bu və ya digər prosessual hərəkətin yerinə yetirilməsinə, yaxud prosessual qərarın qəbul edilməsinə "razı olmaq, yaxud buna razı olmamaq" hüququndan istifadə etmək azadlığı əldə edir. Odur ki, qeyd edilən mexanizmlə bağlı halları, birmənalı olaraq, cinayət-prosessual hüququn dispozitivlik prinsipinin elementi kimi qiymətləndirmək olar.

Qüvvədə olan cinayət-prosessual qanunvericiliyinin aidiyyətli müddəalarının, xüsusən CPM-in 39, 41.2, 43.3, 43.3-1, 106-1.4, 282.1-1-ci maddələrinin sistemli təhlili birmənalı olaraq belə nəticə çıxarmağa əsas verir ki, cinayət mühakimə icraatında cinayət təqibinə məruz qalan şəxsin barəsində bəraətverici əsaslar olmadan cinayət təqibinə xitam verilə bilinməsi üçün mütləq cinayət təqibinə məruz qalan şəxsin özünün, onun obyektiv səbəblərdən (ölümü səbəbi ilə) şəxsi razılığını ifadə etmək imkanı olmadıqda isə, onun hüquqi varisinin, yaxud hüquqi varisi müəyyən edilmədikdə (olmadıqda) müdafiəçisinin buna razılıq verməsi tələb olunur. Bu mənada, şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilə bilməsi üçün müdafiə tərəfinin razılığının tələb edilməsi haqqında qayda və bu qaydadan irəli gələn hüquqi prosedurlar cinayət prosesində dispozitivlik prinsipinin təzahürlərindən hesab edilə bilər.

Belə ki, cinayət mühakimə icraatının məhkəməyədək olan mərhələlərində (cinayət işinin başlanması və ya məhkəməyədək sadələşdirilmiş icraatın açılmasından sonra müvafiq olaraq ibtidai istintaq, yaxud təhqiqatın gedişatında) təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq prosessual qərarın qəbul edilməsi ilə şəxs barəsində cinayət təqibinə, o cümlədən bütövlükdə cinayət işinə xitam verə bilməsi üçün əgər barəsində icraat aparılan şəxs həyatdadırsa, onun özünün, əgər barəsində icraat aparılan şəxs ölmüşdürsə, onun hüquqi varisinin, hüquqi varisi olmadıqda, müdafiəçisinin, habelə şəxs barəsində cinayət təqibi üzrə icraatla paralel olaraq, yəni bir icraatda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat da aparılırsa, hər iki icraata eyni zamanda xitam verilə bilməsi üçün barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinin razılığı alınmalıdır.

Eynilə, məhkəmə baxışının gedişatında da təqsirləndirilən şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilə bilər və bu zaman da müdafiə tərəfinin razılığının mövcud olması zəruri şərtdir. Belə ki, məh-

kəmə baxışı zamanı cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçmiş olarsa (bu müddətlərin dayandırılması halları istisna olmaqla), təqsirləndirilən şəxs verilmiş amnistiya aktının tətbiq edilməli olduğu şəxslərin dairəsinə düşmüş olarsa, yaxud təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün cinayət qanununun müvafiq maddələrində (CM-in 72.1, 73.1, 73-1.3, 74-cü maddələri nəzərdə tutulur) təsbit edilmiş əsaslar və hallar mövcud olarsa, məhkəmə müdafiə tərəfinin razılığı ilə cinayət təqibinə xitam verilməsi barədə qərar çıxara bilər.

Məhkəmə baxışında təqsirləndirilən şəxsin ölmüş olması ilə əlaqədar xitam verilməsi üçün də iki zəruri şərtdən biri müdafiə tərəfinin dispozitiv razılığının olmasıdır (digər şərt ölmüş təqsirləndirilən şəxsə bəraət verilməsinə zərurətin olmamasıdır). Bu zaman ya ölmüş şəxsin hüquqi varisinin, hüquqi varisin olmadığı (müəyyən edilmədiyi) hallarda isə onun müdafiəçisinin cinayət təqibinə bəraətverici əsas olmadan xitam verilməsinə razı olması tələb edilir.

Nəzərə almaq lazımdır ki, barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş və ya cinayət işinin başlanılması rədd edilmiş şəxsə aid bu cür qərarın mövcudluğu onun nüfuzuna təsir edə bilər və bundan irəli gələn digər ictimai nəticələrin yaranmasına səbəb ola bilər. Belə ki, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan prosessual qərarda şəxsin cinayət qanununda nəzərdə tutulmuş əməli törətmiş hesab olunması qaçılmaz olaraq onun şəxsiyyətinə və nüfuzuna təsir edə bilər. Bu da, öz növbəsində, onun hüquqlarının, o cümlədən Konstitusiyanın 46-cı maddəsində təsbit olunmuş öz şərəf və ləyaqətinin müdafiəsini tələb edə bilər. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.5 və 41.2-ci maddələrinin şərh edilməsinə dair" 17 iyun 2010-cu il tarixli Qərarında da göstərildiyi kimi, bu baxımdan, CPM-in ibtidai araşdırma mərhələsində cinayət təqibinə xitam verilməsi qaydasını tənzimləyən 41.2-ci maddəsi mühüm əhəmiyyət kəsb edir. Həmin normaya əsasən təhqiqatçı, müstəntiq və ya prokuror bəraətverici əsaslar olmadıqda təqsirləndirilən (şübhəli) şəxsin razılığı olmadan cinayət təqibinə xitam verilməsi barədə qərar çıxara bilməz. Belə halda cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş qaydada davam etdirilir və hökmün, məhkəmənin digər qərarının çıxarılması ilə başa çatdırılır. Bu normanın məzmunundan göründüyü kimi, qanunverici təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bəraətverici olmayan əsaslarla cinayət təqibinə xitam verilməsi barədə qərarın öz mülahizəsi ilə deyil, yalnız təqsirləndirilən (şübhəli) şəxsin razılığı ilə çıxarılmasının mümkünlüyünü müəyyən etmişdir. Belə yanaşma İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin *Fillips Birləşmiş Krallığa qarşı* iş üzrə 5 iyul 2001-ci il tarixli qərarında öz əksini tapmış hüquqi mövqeyi ilə üst-üstə düşür. Həmin qərarda İnsan Hüquqları üzrə Avropa Məhkəməsi göstərmişdir ki, şəxsin cinayət icraatı üzrə təqsirsiz güman olunması və ona qarşı ittihamların sübut etmə yükünün həyata keçirilməsini cinayət təqibi orqanından tələb etmək

hüququ Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə əsasən ədalətli məhkəmə araşdırması anlayışının tərkib hissəsini təşkil edir.

Hesab edirik ki, cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilə bilməsi üçün müdafiə tərəfinin dispozitiv razılığı kateqoriyasının bir hüquqi problem kimi tədqiqi aşağıdakı iki əsas sual üzərində qurulmalıdır:

1) Hansı hallarda cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş hesab edilir?

2) Cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsinə konkret olaraq kimin razılıq verməsi tələb olunur?

Birinci sual ətrafında təhlillərə başlayaraq, qeyd etmək istərdik ki, CPM-in 39.3-cü maddəsində cinayət təqibinə hansı hallarda xitam verildiyi zaman bunun bəraətverici əsaslarla edilmiş hesab olunduğu göstərilsə də, cinayət təqibinə hansı hallarda xitam verildiyi zaman bunun bəraətverici əsaslar olmadan edilmiş hesab olunduğu göstərilmir. Fikrimizcə, bu, sonuncu halların dairəsinin qanunvericiliyin təfsiri yolu ilə müəyyən etməyə mane olmur, çünki CPM-in 39.3-cü maddəsində cinayət təqibinin bəraətverici əsaslarla xitam edilmiş hesab olunduğu halların dairəsi *numerus clausus* qaydasında təsbit edilmiş və həmin hallara aşağıdakılar aid edilmişdir:

– cinayət hadisəsinin olmaması (CPM-in 39.1.1-ci maddəsi);

– əməldə cinayət tərkibinin olmaması (CPM-in 39.1.2-ci maddəsi);

– barəsində cinayət təqibi başlanılmış şəxsin cinayət törədilməsinə aidiyyətinin olmaması (CPM-in 39.2-ci maddəsində nəzərdə tutulan birinci hal);

– barəsində cinayət təqibi başlanılmış şəxsin təqsirliliyinin sübuta yetirilməməsi (CPM-in 39.2-ci maddəsində nəzərdə tutulan ikinci hal).

Həmin halların qapalı siyahı ilə müəyyən edilmiş olması bu siyahıdan kənarda qalan bütün digər halları əks-təsnifat kateqoriyasına, yəni cinayət təqibinin bəraətverici əsaslar olmadan xitam edilməsi hallarına aid edilməsinə imkan verir. Daha sonra nəzərə almaq lazımdır ki, qüvvədə olan cinayət-prosessual qanunvericiliyə əsasən, cinayət təqibinə xitam verilə bilməsi üçün ya sistemi CPM-in 39-cu maddəsində təsbit edilmiş "cinayət təqibini istisna edən" hallar, yaxud da sistemi CPM-in 40-cı maddəsi ilə müəyyən edilən "cinayət təqibinin həyata keçirilməməsinə imkan verən" hallar mövcud olmalıdır.

Deməli, biz cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsindən bəhs edərkən müvafiq qərarın ya CPM-in 39.1.3-39.1.12-ci maddələrinə, ya da CPM-in 40-cı maddəsinə istinad edilməklə qəbul edildiyi halları nəzərdə tutmalıyıq.

Milli hüquq ədəbiyyatında da qeyd edilir ki, cinayət təqibinə və cinayət işinə xitam verilməsi üçün əsas qismində çıxış edə bilən hallar iki əsas təsnifat növündə birləşdirilə bilər – cinayət təqibini istisna edən hallar və cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar. Bu təsnifatın funksional təyinatı ondan ibarətdir ki, o, xitam aktı (müvafiq qərar) qəbul edilərkən istinad edilmiş halın bu iki kateqoriyadan hansına aid olmasından asılı olaraq, xitam

aktının icraat aparan səlahiyyətli orqan üçün məcburi (imperativ), yaxud diskresion (dizpozitiv) xarakter kəsb etməsini müəyyən edir. Belə ki, iş üzrə cinayət təqibini istisna edən halın mövcudluğu xitam aktının qəbul edilməsini icraatı aparan səlahiyyətli subyekt üçün hər bir halda məcburi edirsə, cinayət təqibinin həyata keçirilməməsinə imkan verən halın mövcudluğu xitam qərarının qəbulunu məcburi etmir bu zaman icraatı aparan səlahiyyətli orqan xitam qərarını öz mülahizəsinə görə qəbul edə də bilər, etməyə də bilər (fikrimizcə, bu fikir bir qədər dəqiqləşdirilməli və qeyd edilməlidir ki, CPM-in 40.2-ci maddəsində nəzərdə tutulan hallarda xitam qərarının qəbulu məcburi deyil, diskresion xarakter kəsb edir – V.Q. Cəfərov). Bu yanaşmadan istisna kimi, şəxsin öz barəsində bəraətverici əsaslar olmadan cinayət işinə (cinayət təqibinə) xitam verilməsinə razılıq vermədiyi halları da göstərmək olar, çünki belə hallarda, bir tərəfdən qanunla müvafiq halın mövcudluğu, məsələn, amnistiya aktının qəbulu cinayət prosesini həyata keçirən orqan üçün xitam aktı qəbul etməyi məcburi edirsə, digər tərəfdən cinayət təqibinə məruz qalan şəxsin buna razılıq verməməsi səlahiyyətli orqanın həmin qərarı qəbul etməsini istisna edir [4].

CPM-in 39.1.3-39.1.12-ci maddələrində aşağıdakı hallar sadalanmışdır:

– cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçdikdə (cinayət məsuliyyətinə cəlbetmə müddətinin dayandırılması halları istisna edilməklə);

– cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin baş verdiyi anda onu törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda (həmin şəxsə qarşı tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi zəruri olan hallar istisna edilməklə);

– şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətdikdən sonra öldükdə (ölən şəxsə bəraət verilməsi zəruri olduğu hallar istisna edilməklə);

– şəxs barəsində eyni ittiham üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya digər məhkəmənin cinayət təqibini qeyri-mümkün edən ləğv edilməmiş qərarı olduqda;

– şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işi başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş qərarı olduqda;

– zərər çəkmiş şəxsin şikayəti olmadıqda (cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildikdə, habelə cinayət təqibinin başlanmasına prokurorun təşəbbüsü olmadığı halda cinayət təqibi ictimai-xüsusi ittiham qaydasında həyata keçirildikdə);

– zərər çəkmiş şəxslə təqsirləndirilən şəxs barışdıqda (cinayət təqibi yalnız xüsusi ittiham qaydasında həyata keçirildikdə);

– şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törətdikdə (bu şəxslərə qarşı tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi halları istisna olunmaqla);

– cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda;

– amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda.

Əvvəldə qeyd etdiyimiz kimi, CPM-in 39.3-cü maddəsi yalnız həmin Məcəllənin 39.1.1, 39.1.2 və 39.2-ci maddələrində nəzərdə tutulmuş hallarda cinayət təqibinə xitam verildikdə, cinayət təqibinin bəraətverici əsaslarla xitam verilmiş olduğunu nəzərdə tutsa da, 39.1.3-39.1.12-ci maddələrin məzmunun təhlili göstərir ki, əslində, 39.3-cü maddədən kənarda qalan bir sıra digər hallarda da cinayət təqibi, əslində, bəraətverici əsaslarla xitam edilmiş hesab olunmalıdır. Məsələn, fikrimizcə, CPM-in 39.1.4-cü maddəsi ilə əlaqədar milli hüquq ədəbiyyatında, tamamilə haqlı olaraq qeyd edilir ki, əslində, cinayət əməlini törədərkən, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs barəsində cinayət təqibi başlana bilməz, çünki bu zaman cinayətin subyekti hesab edilə biləcək şəxs mövcud olmur, bu isə cinayət tərkibi elementlərindən birinin mövcud olmaması, başqa sözlə, cinayət tərkibinin özünün mövcud olmaması mənası verir. Odur ki, CPM-in 39.1.4-cü maddəsində mötərizə içərisində verilmiş ifadənin, yəni “həmin şəxsə qarşı tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi zəruri olan hallar istisna edilməklə” ifadəsinin heç bir mənası yoxdur, çünki tərbiyəvi xarakterli məcburi tədbirlər, CM-in 88-ci maddəsinə əsasən, yalnız cinayət məsuliyyətinə cəlb etmə yaşına çatmış yetkinlik yaşına çatmayan şəxsə tətbiq edilə bilər [2, 104].

Eynilə, CPM-in 39.1.10-cu maddəsi ilə əlaqədar da göstərmək olar ki, cinayət qanunvericiliyinə əsasən, cinayətin subyekti yalnız anlaqlı şəxslər ola bilər, anlaqsız şəxslər isə törətdikləri ictimai təhlükəli əmələ görə cinayət məsuliyyəti daşımırlar. Məhz buna görə də qanunvericilik bu kateqoriyadan olan şəxslərə məhkəmənin təyinatı ilə tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsini nəzərdə tutur [3, 680]. Qanunla cinayət hesab edilən əməlin anlaqsız şəxslər tərəfindən törədilməsi hallarında *de facto* cinayət əməli törədilmiş olmur, amma *de jure* bu əməl cinayət tərkibinin bütün elementlərinə malik olmur, çünki onu törətmiş şəxs anlaqsız olduğu üçün cinayətin subyekti hesab edilmir. Sonuncu hal, öz növbəsində həmin əməli törətmiş şəxsə qarşı cəzanın da tətbiqini istisna edir. Məhz belə hallarda, baş vermiş hüquqa zidd əmələ dövlətin cavab reaksiyası kimi tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün icraat aparılır və əməli törətmiş şəxslərə qarşı cəzaya alternativ olaraq tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir [5, 80; 6, 222]. Həmçinin CPM-in 39.1.11-ci maddəsində nəzərdə tutulmuş əsas (cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda), əslində, əməldə cinayət tərkibinin olmamasının xüsusi növüdür, ona görə də bu əsas da cinayət təqibini istisna edən bəraətverici əsas hesab edilməlidir [2, 109-110].

Bütün bu qeyd edilənlərin bizim tədqiqat üçün əhəmiyyəti ondadır ki, cinayət təqibini istisna edən hər hansı bir halın bəraətverici, yaxud bəraətverici olmayan əsas kimi qiymətləndirilməsi perspektiv hüquqi nəticələrlə yanaşı (məsələn, Azərbaycan Respublikasının “Ədliyyə orqanlarında qulluq keçmə

haqqında" 26 may 2006-cı il tarixli Qanununun 4.2-ci maddəsinə əsasən, barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər ədliyyə orqanlarına qulluğa qəbul edilə bilməzlər, yaxud Azərbaycan Respublikasının "Konstitusiya Məhkəməsi haqqında" 23 dekabr 2003-cü il tarixli Qanununun 23.1.4-cü maddəsinə əsasən, barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə Konstitusiya Məhkəməsi hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilir və s.), cinayət təqibinin xitam edilməsi haqqında qərarın qəbulu üçün müdafiə tərəfinin razılığının hüquqi əhəmiyyətinə də öz təsirini göstərir. Belə ki, cinayət təqibini istisna edən hər hansı bir hal normativ qaydada bəraətverici əsas sayılarsa, həmin hala istinadən cinayət təqibinə xitam verilməsi zamanı müdafiə tərəfinin razılığının alınması məcburi xarakter daşımır, yox əgər cinayət təqibini istisna edən hər hansı bir hal normativ qaydada bəraətverici olmayan əsas kimi qiymətləndirilirsə, bu zaman həmin hala istinadən cinayət təqibinə xitam verilməsi zamanı müdafiə tərəfinin razılığının alınması mütləqdir.

Yuxarıda qeyd etdiyimiz kimi, cinayət təqibinə "cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar" mövcud olduqda da xitam verilə bilər. Bu məsələlər CPM-in 40-cı maddəsinin müddəaları ilə tənzim edilir. Bu müddəalara görə, cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət məsuliyyətindən və cəzadan azad etmə hallarının mövcudluğu cinayət təqibinin həyata keçirilməməsinə imkan verir.

Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün aşağıdakı hallarda təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmaya və ya ona xitam verilə bilər:

1) səmimi peşmanlıqla bağlı, yəni əgər böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs könüllü gəlib təqsirini boynuna alarsa, cinayətin üstünün açılmasına fəal kömək edərsə, cinayət nəticəsində dəymiş ziyanı ödəyərsə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırarsa;

2) zərərçəkmiş şəxslə barışmaqla bağlı, yəni əgər böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışarsa və ona dəymiş ziyanı ödəyərsə və ya vurulmuş zərəri aradan qaldırarsa;

3) mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə ilə bağlı, yəni əgər CM-in 178.3, 178.4, 179.3 və 179.4-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışar, dəymiş ziyanı tamamilə ödəyər və cinayət nəticəsində vurulmuş ziyanın iki misli miqdarında dövlət büdcəsinə ödəniş edərsə;

4) şəraitin dəyişməsi ilə bağlı, yəni əgər böyük ictimai təhlükə törətməyən cinayət və ya az ağır cinayət törətmiş şəxsin özünün və ya onun əməlinin şəraitin dəyişməsi nəticəsində ictimai təhlükəli olmadığı müəyyən edilərsə.

Cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar məsələsinin izahının davamı olaraq qeyd edilməlidir ki, aşağıdakı hallarda təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir:

1) başqa növ cinayət (yəni böyük ictimai təhlükə törətməyən cinayət kateqoriyasına aid olmayan digər cinayət növləri) törətmiş şəxs, könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin üstünün açılmasına fəal kömək etdikdə, cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırdıqda yalnız CM-in Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda (bu halların nədən ibarət olmasına bir az aşağıda aydınlıq gətiriləcəkdir – V.Q. Cəfərov);

2) CM-in 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 142.1, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə;

3) Başqa növ cinayət (burada da böyük ictimai təhlükə törətməyən cinayət kateqoriyasına aid olmayan digər cinayət növləri nəzərdə tutulur) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda;

4) CM-in 178.1, 179.1, 186.1, 187.1, 187.2, 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə, 178.2, 179.2 186.2.1, 189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə;

5) CM-in Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə. Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyində tətbiq edilmiş hüquqi texnikaya əsasən, CM-in Xüsusi hissəsinin bir sıra maddəsinin "qeyd" hissəsində şəxsin cinayət məsuliyyətindən xüsusi azadetmə halları nəzərdə tutulmuşdur. CM-in qüvvədə olan redaksiyasının Xüsusi hissəsinin CM-in 144-cü maddəsinin (Adam oğurluğu) "qeyd" hissəsində, 192-2-ci maddəsinin (İdman yarışlarının manipulyasiyası) "qeyd" hissəsinin 2-ci bəndində, 199-cu maddəsinin (İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma) "qeyd" hissəsinin 2-ci bəndində, 214-cü maddəsinin (Terrorçuluq) "qeyd" hissəsində, 214-1-ci maddəsinin (Terrorçuluğu maliyyələşdirmə) "qeyd" hissəsinin 2-ci bəndində, 214-3-cü maddəsinin (Terrorçuluq məqsədi ilə təlim keçmə) "qeyd" hissəsində, 215-ci maddəsinin (Adamları girov götürmə) "qeyd" hissəsində, 228-ci maddəsinin (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) "qeyd" hissəsində, 229-cu maddəsinin (Qanunsuz olaraq silah hazırlama) "qeyd" hissəsində, 234-cü maddəsinin (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) "qeyd" hissəsinin 1-ci bəndində, 263-cü maddəsinin (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) "qeyd" hissəsinin 2-ci bəndində, 274-cü maddəsinin (Dövlətə xəyanət) "qeyd" hissəsində, 278-ci maddəsinin (Hakimiyyəti zorla ələ

keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə) "qeyd" hissəsində, 283-1-ci maddəsinin (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qrup yaratma) "qeyd" hissəsində, 297-ci maddəsinin (Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə) "qeyd" hissəsinin 1-ci bəndində, 306-cı maddəsinin (Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə) "qeyd" hissəsində, 312-ci maddəsinin (Rüşvət vermə. Aktiv rüşvətxorluq) "qeyd" hissəsində, 333-cü maddəsinin (Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə) "qeyd" hissəsində, 334-cü maddəsinin (Fərarilik) "qeyd" hissəsində şəxsin cinayət məsuliyyətindən xüsusi azad etmə halları nəzərdə tutulmuşdur.

Həmçinin göstərilməlidir ki, şəxsin iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün CM-in 73-2-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir. CM-in 73-2-ci maddəsi iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə məsələlərinə həsr edilmişdir. Həmin maddənin müddəalarına əsasən, CM-in 209.1, 209.2.2 və 213-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir, 192, 192-1, 193, 195, 195-1, 196, 197, 198, 202-2, 203, 203-1.1, 205-2, 209.2.1, 209.3, 210, 211, 212 və 213-2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs isə cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

Fikrimizcə, hansı hallarda cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş hesab edilməsi məsələsinə aydınlıq gətirdikdən sonra, bizim tədqiqatımızın digər əsas məsələsinə, yəni cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsinə konkret olaraq kimin dispozitiv razılıq verməsinin tələb olunmasına dair sual ətrafında təhlillərə keçmək olar.

CPM-in 41.2-ci maddəsində məhkəməyədək icraatda cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsinə aşağıdakı şəxslərin razılıq verməsi tələbindən bəhs olunur:

1) şübhəli və ya təqsirləndirilən şəxsin özü. Məhkəməyədək icraatda şübhəli və ya təqsirləndirilən şəxs həyatda olarsa, onun barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsinə o, özü şəxsən razılıq vermiş olmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, CPM-in 432.6-cı maddəsinə əsasən, yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işi üzrə icraata xitam verilməsinə hər bir halda yetkinlik yaşına çatmayan şəxsin və ya onun valideynlərinin (digər qanuni nümayəndələrinin) razılığı ilə yol verilir;

2) ölmüş şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin şübhəli və ya təqsirləndirilən şəxs qis-

mində tanınanadək ölmüş şəxsin hüquqi varisi. Cinayət mühakimə icraatı gedişatında proses iştirakçısı ölərsə, onun yaxın qohumlarının ölmüş proses iştirakçısının əvəzinə iştirak etməsinin sonuncunu hüquq və qanuni maraqlarının təmin və realizə edilməsi baxımından nə qədər əhəmiyyətli olması Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnda dəfələrlə öz təsdiqini tapmışdır. Özünün *Rantsev Rusiyaya və Kiprə qarşı* iş üzrə 7 yanvar 2010-cu il tarixli, *Slimani Fransaya qarşı* iş üzrə 27 iyul 2004-cü il tarixli, *Hyu Jordan Birləşmiş Krallığa qarşı* iş üzrə 4 may 2001-ci il tarixli və s. qərarlarda Avropa İnsan Hüquqları Məhkəməsinin sərgilədiyi hüquqi mövqeyə görə, ölmüş şəxsin yaxın qohumları, hər bir halda, qanuni maraqlarının təmin olunmasının tələb etdiyi dərəcədə bütün işlər üzrə prosesə cəlb olunmalıdırlar. Bundan başqa, özünün *Güleç Türkiyəyə qarşı* iş üzrə 27 iyul 1998-ci il tarixli, *Oğur Türkiyəyə qarşı* iş üzrə 20 may 1999-cu il tarixli, *Danqayeva və Taramova Rusiyaya qarşı* iş üzrə 8 yanvar 2009-cu il tarixli və s. qərarlarında da Avropa İnsan Hüquqları Məhkəməsi göstərmişdir ki, ölmüş şəxsin yaxın qohumlarının prosesə cəlb edilməsi, onlara cinayət işinin materialları ilə tanış olmaq imkanının verilməsi və müvafiq məlumatlarla təmin edilməsi vacibdir.

Ölmüş şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınanadək ölmüş şəxsin hüquqi varisinin cinayət prosesinə daxil olma prosedurunun xüsusiyyətlərinin müəyyən edilməsi üçün CPM-in 106-1-ci maddəsinə müraciət etmək tələb olunur. Həmin maddənin müddəalarına əsasən, ölmüş təqsirləndirilən (şübhəli) şəxsin hüquq və vəzifələrini cinayət işi üzrə icraat zamanı həyata keçirmək istəyini bildirən yaxın qohumlarından biri təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi hesab olunur. Şəxs təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüşdürsə, onun yaxın qohumlarının da həmin şəxsin hüquqi varisi qismində tanınmaq hüququ vardır və CPM-in təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi ilə bağlı müddəaları onlara da şamil olunur. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində iştirakı olan, yaxud həmin əməllə mənəvi, fiziki və ya maddi ziyan vurulmuş yaxın qohum ölmüş şəxsin hüquqi varisi hesab edilə bilməz.

Qüvvədə olan cinayət-prosessual qanunvericiliyin tələblərinə görə, cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınanadək ölmüş şəxsin öldüyü vaxtdan üç gün müddətində onun yaxın qohumlarına şəxsin hüquqi varisi qismində tanınmaq istəyinin olub-olmaması barədə yazılı bildiriş göndərməlidir (təqdim etməlidir). Həmin bildirişin tam prosessual forması cinayət-prosessual qanunvericiliklə müəyyən edilmədiyi üçün, ehtimal etmək olar ki, cinayət prosesini həyata keçirən orqan bu bildirişi öz mülahizəsinə görə məqsədəuyğun hesab etdiyi formada tərtib edə bilər. Qanunvericilikdə həmin bildirişdə mütləq göstərilməli olan yalnız bir izahın adı çəkilir: "şəxsin ölməsi ilə əlaqədar cinayət təqibinə CPM-in 39.1.5-ci maddəsinə əsasən xitam verilməsinin bəraətverici əsas hesab

edilmədiyi haqqında" izah. Ölmüş şəxsin yaxın qohumu cinayət təqibinə xitam verilənədək müvafiq istəyini bildirdikdə onun hüquqi varis qismində tanınması barədə qərar qəbul edilir. Təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi qismində tanınması barədə müraciət etmiş bir neçə yaxın qohum arasından hüquqi varisin seçilməsində mübahisə olduqda, həmin məsələni məhkəmə həll edir. Ölmüş şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərar barəsində yuxarıda bəhs olunan müvafiq bildirişin göndərildiyi və ya təqdim edildiyi gündən yalnız iyirmi gün sonra çıxarıla bilər;

3) ölmüş şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınanadək ölmüş şəxsin hüquqi varisi müəyyən olunmadıqda, yaxud ölmüş şəxsin yaxın qohumu qanunla müəyyən edilmiş müddət ərzində onun hüquqi varis qismində tanınması barədə müvafiq istəyini bildirmədikdə, müdafiəçi. Təcrübədə bəzən ölmüş şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınanadək ölmüş şəxsin hüquqi varisinin müəyyən edilməsi çətinliklər yaradır, çünki bəzən belə şəxslər kimsəsiz olur, bəzən onların yaxın qohumlarının müəyyən edilməsi və onlarla əlaqə yaradılması olduqca uzun müddət tələb edir, cinayət prosesini həyata keçirən orqanlar sair bu kimi obyektiv çətinliklərlə üz-üzə qalırlar. Bir sıra hallarda isə ölmüş şəxsin yaxın qohumları həmin şəxsin hüquqi varisi olmaq istəmirlər, yaxud bunu istəsələr də, müvafiq prosessual müddətləri pozurlar, qanunla müəyyən edilmiş müddət ərzində ölmüş şəxsin hüquqi varisi qismində tanınmaq barədə müvafiq istəklərini cinayət prosesini həyata keçirən orqana bildirmirlər. Belə hallarda ölmüş şəxsin maraqlarının təmsilçisiz qalmaması üçün qanunvericilik tələb edir ki, həmin şəxs barəsində bəraətverici əsaslar olmadan cinayət təqibinə xitam verilməsi üçün həmin şəxsin müdafiəçisi razılıq versin. Belə ki, qanunvericiliyin tələbinə görə, ölmüş şəxsin yaxın qohumu ona müvafiq bildirişin verildiyi gündən iyirmi günlük prosessual müddət ərzində ölmüş şəxsin hüquqi varisi qismində tanınması haqqında müvafiq istəyini bildirmədikdə, cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərarın çıxarılması üçün müdafiəçinin razılığı tələb olunur. Bununla belə, cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərarın CPM-in 281-ci maddəsinin tələblərinə uyğun olaraq, cinayət işinin materialları ilə tanış olmaq hüququ və həmin qərardan şikayət etmək qaydası izah edilməklə, ölmüş şəxsin yaxın qohumlarına göndərilir (təqdim edilir). Ölmüş şəxsin müdafiəçisinin razılığı ilə cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərar qəbul edildiyi təqdirdə, onun yaxın qohumu bu qərarın surətini aldığı vaxtdan on gün müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yuxarı prokurora və ya məhkəmə nəzarətini həyata keçirən məhkəməyə həmin qərardan şikayət etmək hüququna malikdir. Belə şikayət verildikdə, cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərar ləğv edilir, cinayət təqibi üzrə icraat təzələnir, şikayət vermiş yaxın

qohum ölmüş şəxsin hüquqi varisi qismində tanınır və icraat CPM ilə müəyyən edilmiş qaydada davam etdirilir;

4) barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi. Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinə CPM-də iki fərqli normada anlayış verilmişdir. Belə ki, CPM-in 7.0.31-1-ci maddəsinə əsasən, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi hüquqi şəxsin maraqlarını təmsil edən, səlahiyyətləri qanunla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilən hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxsidir. CPM-in 487-3.1-ci maddəsinə görə isə, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi qismində onun qanuni maraqlarını təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan (CPM-in 487-2.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) şəxs çıxış edir. Hüquqi şəxsin nümayəndəsi cinayət prosesini həyata keçirən orqana şəxsiyyətini və səlahiyyətlərini təsdiq edən sənədləri təqdim etməlidir. Həmin sənədlərin, habelə hüquqi şəxsin nizamnaməsinin, dövlət qeydiyyatına alınması barədə sənədin surətləri cinayət təqibi ilə bağlı materiallara əlavə olunur. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı hüquqi şəxsin maraqlarını yalnız bir nümayəndə təmsil edir. Hüquqi şəxsin maraqlarını nümayəndə statusuna malik olmayan bir və ya bir neçə müdafiəçi təmsil edə bilər.

Bir qayda olaraq, xüsusi icraatın bu növü, yəni hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı ibtidai istintaq CM-in 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə bir icraatda aparılır. Lakin bu qaydadan bir istisna mövcuddur. Belə ki, hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş fiziki şəxs barəsində cinayət işinə CPM-in 39.1.5-ci (şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətdikdən sonra öldükdə), 39.1.10-cu (şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törətdikdə), 39.1.11-ci (cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda), 39.1.12-ci (amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda) və 40.2-ci maddələrində (şəxsin CM-in 72-ci, 73.1-ci, 73-1.3-cü və 74-cü maddələrində nəzərdə tutulmuş hallarda cinayət məsuliyyətindən azad edilməsi) nəzərdə tutulmuş hallarda xitam verildikdə, toplanmış sübutlar hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi və işin məhkəməyə göndərilməsi üçün kifayət hesab edilərsə, müstəntiq hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir [1, s. 127].

Yuxarıdakı izahlar məhkəməyədək icraatda cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi zamanı razılığı tələb olunan subyektlər

haqqında idi. Nəzərə almaq lazımdır ki, təkcə məhkəməyədək icraatda deyil, məhkəmə baxışının gedişində də cinayət təqibinin bəraətverici əsaslar olmadan xitam edilməsi mümkündür. Belə hallarla bağlı CPM-də iki xüsusi norma müəyyən edilmişdir. İlk öncə, CPM-in 43.3-cü maddəsinə nəzər salaq. Həmin maddəyə əsasən, məhkəmə baxışının gedişində təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə, həmçinin bu CPM-in 39.1.3-cü (cinayət məsuliyyətinə cəlbetmə müddətinin dayandırılması halları istisna edilməklə, cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçdikdə), 39.1.12-ci (amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda) və 40.2-ci (şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün CM-in 72.1, 73.1, 73-1.3 və 74-cü maddələrində nəzərdə tutulmuş hallar mövcud olduqda) maddələrində nəzərdə tutulmuş hallarda müdafiə tərəfinin razılığı ilə xitam verilməsi barədə məhkəmə qərar çıxarmağa haqlıdır. Bizim tədqiqatın istiqamətinə uyğun olaraq, baxılan müddəada diqqətimizi "müdafiə tərəfinin razılığı ilə" ifadəsi çəkir. Aşkar görünür ki, əgər CPM-in 41.2-ci maddəsində məhkəməyədək icraatda cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsinə razılıq verməsi tələb olunan konkret subyektlər sadalanırsa, CPM-in 43.3-cü maddəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsinə razılıq verməsi tələb olunan subyektlərin dairəsinin müəyyən edilməsi üçün çox ümumi xarakterli "müdafiə tərəfi" kateqoriyasından istifadə edilir. Fikrimizcə, bu yanaşma problemlidir. Məsələ burasındadır ki, CPM-də "müdafiə tərəfi" kateqoriyasına leqal tərif verilmişdir və həmin tərifə əsasən, müdafiə tərəfi – birlikdə götürülmüş şübhəli və ya təqsirləndirilən şəxs, onun müdafiəçisi, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, onun müdafiəçisi və mülki cavabdehdir (CPM-in 7.0.28-ci maddəsi). Hesab edirik ki, CPM-in 43.3-cü maddəsində istifadə edilmiş "müdafiə tərəfinin razılığı ilə" ifadəsi səhvən belə bir təəssürat yarada bilər ki, məhkəmə baxışı gedişində təqsirləndirilən şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi üçün iş üzrə təqsirləndirilən şəxs, onun müdafiəçisi, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, onun müdafiəçisi və mülki cavabdehin hamısının razılığı tələb edilir, çünki məhkəmə baxışının gedişində müdafiə tərəfi dedikdə, birlikdə götürülmüş bu subyektlərin hamısı nəzərdə tutulur. Əslində isə, məhkəmə baxışı gedişində təqsirləndirilən şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi üçün iş üzrə təqsirləndirilən şəxsin özünün razılığı tələb edilir və prinsipcə, bu razılığın mövcudluğu məhkəmə tərəfindən müvafiq qərarın qəbul edilməsi üçün kifayətdir. Bu anlamda, CPM-in 43.3-1-ci maddəsində daha dəqiq hüquqi texnika tətbiq edilmişdir, çünki həmin maddəyə əsasən, məhkəmə baxışının gedişində cinayət təqibinə CPM-in 39.1.5-ci maddəsində nəzərdə tutulmuş halda (ölən şəxsə bəraət verilməsi zəruri olduğu hallar istisna edilməklə, şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətdikdən sonra öldükdə) xitam verilməsinə ölmüş şəxsin hüquqi varisinin, hüquqi varis müəyyən edilmədiyi, CPM-in 106-

1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda müdafiəçisinin razılığı ilə yol verilir. Göründüyü kimi, CPM-in 43.3-1-ci maddəsində də, CPM-in 41.2-ci maddəsində olduğu kimi və fikrimizcə, tamamilə haqlı olaraq, cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsinə razılıq verməsi tələb olunan subyektlər konkret şəkildə sadalanır. Hesab edirik ki, hüquqi müəyyənlik prinsipi baxımından, CPM-in 41.2-ci və 43.3-1-ci maddələrində tətbiq edilmiş hüquqi texnika məqsədəuyğun olsa da, CPM-in 43.3-cü maddəsində "müdafiə tərəfinin razılığı ilə" ifadəsindən istifadə edilməsi məqsədəuyğun deyildir. Tamamilə aşkardır ki, əgər CPM-in 43.3-1-ci maddəsində təqsirləndirilən şəxsin öldüyü hallar tənzim edilmişdirsə, deməli 43.3-cü maddə təqsirləndirilən şəxsin həyatda olduğu hallara aiddir və təqsirləndirilən şəxs həyatdadırsa, onun barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilə bilməsi üçün onun özünün razılığı kifayət etməlidir. Bununla əlaqədar olaraq, biz, CPM-in 43.3-cü maddəsinin aşağıdakı təkmilləşdirilmiş redaksiyada verilməsini təklif edirik:

*"43.3. Məhkəmə baxışının gedişində cinayət təqibinə, həmçinin bu Məcəllənin 39.1.3, 39.1.12 və 40.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsin razılığı ilə xitam verilməsi barədə məhkəmə qərar çıxarmağa haqlıdır."*

## ƏDƏBİYYAT


1. Abbasova F.M. Cinayət prosesində xüsusi icraatlar. Dərs vəsaiti. Bakı: Ecoprint, 2018, 192 s.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / red. C.H.Mövsümov, B.C.Kərimov, Ə.H.Hüseynov. Bakı: Digesta, 2016, 1336 s.
3. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı: Qanun, 2008, 768 s.
4. Hacıyev M.V. Məhkəməyədək icraatda cinayət təqibinə və cinayət işinə xitam verilməsi əsaslarının təsnifatı və onların hüquqi nəticələri // Qanun, 2018, № 10 (288), s. 23-30.
5. Белик Ю.С. Проблемы применения норм о принудительных мерах медицинского характера // Вестник Московского университета МВД России, 2016, № 1, с. 79-83.
6. Герасима Ю.А. Принудительные меры медицинского характера: назначение и применение / Законность и правопорядок на современном этапе развития общества. Сборник материалов Международной научно-практической конференции. Краснодар, 17 апреля 2012 г., с. 222-229.


## О ДИСПОЗИТИВНОМ СОГЛАСИИ СТОРОНЫ ЗАЩИТЫ ДЛЯ ПРЕКРАЩЕНИЯ УГОЛОВНОГО ПРЕСЛЕДОВАНИЯ ПО НЕ РЕАБИЛИТИРУЮЩИМ ОСНОВАНИЯМ

**Г.В.ДЖАФАРОВ**


**РЕЗЮМЕ**

Для вынесения некоторых решений государственными органами в уголовном процессе требуется согласие субъектов, не являющихся должностными лицами. Это одно из проявлений принципа диспозитивности уголовно-процессуального права. В установленных в законе случаях дача согласия на вынесение того, либо иного процессуаль-

ного решения субъектом зависит от воли последнего. В конкретных нормативно закрепленных случаях орган, осуществляющий уголовный процесс, в праве принять то или иное решение если у него есть на то согласие соответствующего субъекта, в ином случае, то есть в отсутствии такого согласия орган уголовного преследования (суд) лишаются возможности принять задуманное постановление. Использую сове право на дачу согласия субъект получает непосредственную возможность повлиять на направление деятельности органа, осуществляющего уголовный процесс. Случаи прекращения уголовного преследования по не реабилитирующим основаниям только с согласием уголовно преследуемого лица, также относятся к таким ситуациям. Автор рассмотрел особенности получения согласия уголовно преследуемого лица на прекращение уголовного преследования по не реабилитирующим основаниям как на досудебных стадиях, так и в суде. Кроме того, автор разъяснил случаи, когда требуется согласие правопреемника, либо защитника уголовно преследуемого лица. В статье были истолкованы соответствующие нормы действующего уголовно-процессуального законодательства, выявлены недостатки некоторых норм, и предложены пути совершенствования законодательства.

**Ключевые слова:** уголовный процесс, принципы, диспозитивность, автономия воли, согласие субъекта, реабилитирующие основания, уголовное преследование, прекращение, закон, анализ, предложение.

## ON THE LEGAL CONSENT OF THE DEFENCE PARTY TO DISCONTINUE CRIMINAL PROCEEDINGS ON NON-REHABILITATIVE GROUNDS

**Q.V.JAFAROV**

### SUMMARY

The consent of non-official actors is required for certain decisions to be rendered by public authorities in criminal proceedings. This is one of the manifestations of the principle of dispensability of criminal procedure law. In the cases established in the law, the consent of the subject to issue a procedural decision depends on the will of the latter. In specific legal cases, the body conducting criminal proceedings has the right to take a decision if it has the consent of the subject concerned, otherwise, that is, in the absence of such consent, the criminal prosecution body (court) is deprived of the opportunity to adopt the decision. I use the right of consent of the subject directly to influence the direction of activity of the body carrying out criminal proceedings. Cases of termination of criminal proceedings on non-rehabilitative grounds only with the consent of the prosecuted person also relate to such situations. The author considered the peculiarities of obtaining the consent of the person prosecuted to discontinue criminal proceedings on non-rehabilitative grounds, both at pre-trial stages and in court. In addition, the author explained cases where the consent of the successor or the defence counsel of the person prosecuted was required. The article interpreted the relevant norms of the current criminal procedure legislation, identified shortcomings in some norms, and suggested ways to improve the legislation.

**Key words:** criminal process, principles, dispensability, autonomy of will, consent of the subject, rehabilitating grounds, criminal prosecution, termination, law, analysis, proposal.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2019*

UOT 34.01

# HÜQUQİ KOLLİZİYALARIN ANLAYIŞI

**Z.N.ƏZİMOV**
***Bakı Dövlət Universiteti***
***phd82@mail.ru***

*Hüquqi kolliziyalar hüquq nəzəriyyəsinin mühüm nəzəri məsələlərindən biridir. Məqalədə hüquqi kolliziyaların milli hüquq sistemində terminoloji asektləri nəzərə alınmaqla anlayışı və mahiyyəti araşdırılır. Məsələ ilə bağlı elmi ədəbiyyatda mövcud olan elmi mübahisələrə xüsusi diqqət ayrılır.*

**Açar sözlər:** hüquqi kolliziya, normaların uyğunsuzluğu, fərqli digər qayda, hüquqi konflikt, normaların rəqabəti.

İctimai münasibətlərin daimi inkişafı, onların tənzimlənməsinin tarixən formalaşmış təcrübəsi dövlət tərəfindən qəbul edilən qanunvericilik aktlarının həcminin və məzmunun sürətlə artmasına gətirib çıxarmışdır. Norma yaratma fəaliyyətinin subyektlərinin çoxluğu, bu subyektlərin vəzifəli şəxslərinin dəyişkənliyi və normativ hüquqi aktların müxtəlif dövrün tələbatına uyğun olaraq qəbul edilməsi onların məzmunu arasında uyğunsuzluqların, toqquşmaların yaranmasına gətirib çıxarmışdır. Azərbaycan Respublikası dünya birliyinə inteqrasiyası ilə bağlı olaraq beynəlxalq münasibətlər çərçivəsində müxtəlif müqavilələr imzalamışdır ki, bu müqavilələrin bir çoxu məzmun etibarilə özü-özünü yeniləyir və inkişaf edir (məsələn, İnsan hüquqları və əsas azadlıqları barədə Avropa Konvensiyası Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən zaman-zaman şərh olunması ilə onun mənası yeniləyir və AR-in bununla bağlı yeni öhdəlikləri yaranmış olur). Belə dəyişikliklər zaman-zaman milli hüququn beynəlxalq hüquqa uyğunlaşdırılması ilə bağlı elmi-nəzəri bazanın formalaşdırılması və problemin nəzəri təhlilini zəruri edir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, hüquqi kolliziyalar hüquq sisteminin inkişafı, təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir və onların aradan qaldırılması hüquqi müəyyənlik prinsipinin tələblərinin yerinə yetirilməsi üçün zəruri vasitələrdən biri sayılır.

Hüquqi kolliziyaların həlli hüquq sisteminin tələbatı kimi meydana gəlməsi onun effektiv şəkildə realizəsi üçün ilk növbədə, hüquqi kolliziya anlayışının nəzəri əsasları təhlil olunmalı, onun mahiyyəti araşdırılmaqla ümum-

hüquqi anlayış verilməlidir. Mahiyyət etibarilə arzuolunmaz təzahür kimi araşdırılsa da, hüquqi kolliziyaların hüquq sistemində müsbət rolunu da qeyd etmək lazımdır.

Elmi ədəbiyyatın tədqiqi hüquqi kolliziya anlayışına bir qayda olaraq aşağıdakı mənalarda istifadə olunduğunu təsdiqləməyə imkan verir:

- bir dövlətin hüquq normaları arasında kolliziya;
- iki müxtəlif dövlətin hüquq normaları arasında kolliziya;
- dövlətin daxili qanunvericiliyi ilə beynəlxalq hüquq arasında kolliziya;
- hüquq normaları ilə digər sosial normalar arasında kolliziyalar.

Bu məqalədə məsələnin daha çox birinci aspekti ilə bağlı ayrı-ayrı cəhətləri nəzərdən keçiriləcəkdir.

Hərfi mənasında kolliziya latın dilində "collision" sözündən tərcümədə toqquşma, sarsıntı kimi tərcümə olunur. Bir qayda olaraq kolliziya milli hüquq ədəbiyyatında ziddiyyət kimi istifadə olunur. Qüvvədə olan qanunvericilikdə isə kolliziya anlayışının ziddiyyət, uyğunsuzluq, fərqli qayda kimi terminlərlə ifadə olunduğunu müşahidə etmək olar.

Qeyd edək ki, Azərbaycan dilində "ziddiyyət" və "fərq" sözləri eyni mənalı olmasa da, yaxın mənalı sözlər kimi işlədilir. Əgər "ziddiyyət" (2, 674) "1) iki şey (fikir, hərəkət və s.) arasında olan tam uyğunsuzluq, əkslik, çox kəskin fərq, uyuşmazlıq və ya 2) öz keyfiyyətləri, xassələri etibarilə başqası ilə uyğun olmayan, düz gəlməyən" mənalarda izah edilirsə, "fərq" (1,185) sözü "şeyləri, adamları bir-birindən ayıran hər hansı xüsusiyyət, onları bir-birindən ayıran cəhət" kimi izah olunur.

Göründüyü kimi, ziddiyyət sözünü müəyyən mənada kəskin fərq kimi də izah etmək olar. Hüquqi kolliziya barəsində danışarkən daha çox ziddiyyət sözündən istifadə olunmasını müşahidə etmək mümkündür. Qeyd edək ki, fərq" terminindən hüquqi kolliziya kontekstində istifadə olunmasını ətraflı təhlil etmək üçün milli qanunvericilik sistemində bəzi qanunvericilik aktlarının təhlilini məqsədəuyğun sayırıq.

12 noyabr 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə görə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında **ziddiyyət** yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir (qaralama bizə aiddir – müəl). Bu müddəa əsaslı olaraq bir çox aktlarda olduğu kimi, məhz ziddiyyət termini ilə ifadə olunmuşdur. Bu sırada 28 dekabr 1999-cu il tarixli Azərbacan Respublikası Mülki-Prosessual Məcəlləsini göstərmək olar (bundan sonra MPM). MPM-in 13.3-cü maddəsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktlarla (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul olunmuş aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələr arasında **ziddiyyət** olduqda, beynəlxalq müqavilənin müddəaları tətbiq edilir (qaralama bizə aiddir – müəl.).

Bəzi qanunvericilik aktlarında Konstitusiyanın 151-ci maddəsinin məzmunu “ziddiyyət” kimi deyil, nisbətən başqa məzmunda “fərqli qayda” kimi ifadə olunmuşdur. Həmin aktlar sırasında aşağıdakıları göstərmək olar:

25 iyun 1999-cu il tarixli Azərbaycan Respublikası Torpaq məcəlləsinin 113-cü madəsinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə bu Məcəllədən **fərqli qaydalar** nəzərdə tutulmuşdursa, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir (qaralama bizə addir – müəl.). Bənzər müddəa 15 noyabr 2011-ci il tarixli Azərbaycan Respublikası Mənzil məcəlləsinin 1.3-cü maddəsində də nəzərdə tutulmuşdur. Həmin maddəyə görə “əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilədə müəyyənləşdirilən normalar mənzil qanunvericiliyində nəzərdə tutulan normalardan **fərqlənərsə**, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir (qaralama bizə aiddir – müəl.). Bundan başqa oxşar məzmunlu müddəa 14 iyul 2000-ci il tarixli Azərbaycan Respublikası Cinayət-Prosessual məcəlləsinin 2.3-cü maddəsində də göstərilir. Həmin müddəaya görə də, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Məcəllədən **fərqli digər qaydalar** müəyyən olunduqda, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir (qaralama bizə aiddir – müəl.).

Qeyd edək ki, “fərqli qayda” anlayışından Azərbaycan Respublikasının Konstitusiyasında və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Republikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya qanununda da istifadə olunur.

18 mart 2009-cu il tarixli referendumunda Konstitusiyaya edilmiş mühüm əlavələrdən biri də, dövlətlərarası müqavilələrlə yanaşı, Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri də təsdiq və ləğv etmək səlahiyyətlərinin tənzimlənməsi ilə bağlı oldu.

Milli müəlliflərdən S.Mirzəyev dövlətlərarası və hökümətlərarası müqavilələrin fərqli hüquqi qüvvəsini qeyd edərək bildirir ki, Milli Məclis tərəfindən təsdiq olunan dövlətlərarası müqavilələrin hüquqi qüvvəsi hökumət tərəfindən təsdiq olunan hökumətlərarası müqavilələrin hüquqi qüvvəsindən yüksəkdir. Nəzərə almaq lazımdır ki, dövlətlərarası müqavilələr vasitəsilə Azərbaycanın digər dövlətlərlə münasibətlərinin ən mühüm məsələləri nizama salınır. Ona görə bu müqavilələr mütləq Milli Məclisdə təsdiq (ratifikasiya) olunmalıdır. Milli Məclisdə təsdiq olunmuş və dövlətimizə münasibətdə qüvvəyə minmiş dövlətlərarası müqavilələr öz hüquqi qüvvəsinə görə həm onlardan əvvəl, həm də onlardan sonra qəbul olunmuş ölkə qanunlarından üstün qüvvəyə malikdir. Yəni dövlətlərarası müqavilə ilə qanun arasında ziddiyyət olarsa, müqavilə tətbiq ediləcəkdir (Konstitusiyanın 151-ci maddəsi). Beləliklə, Konstitusiya qəbul edir ki, dövlətlərarası müqavilə Azərbaycan Respublikasının qanunlarına (Konstitusiya və Referendumda qəbul edilmiş qanunlar istisna olmaqla) zidd ola bilər və bu da bütün dünya ölkələri üçün tamamilə normal bir haldır. Konstitusiyaya əsasən Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası müqavilələri bağlamaq səlahiyyətinə malik olsa da, bu günə qədər ölkə Prezidenti tərəfindən hər hansı höku-

mətlərarası müqavilə imzalanmamışdır. Hökumətlərarası müqavilələri baş nazir və ya dövlət başçısının səlahiyyət verdiyi digər vəzifəli şəxs imzalayır. Bu müqavilələrin böyük əksəriyyəti təsdiq üçün Milli Məclisə təqdim olunur. Milli Məclisdə təsdiq olunduqdan və müqavilədə müəyyənləşdirilmiş vaxtda qüvvəyə mindikdən sonra həmin hökumətlərarası müqavilələr qanun statusu alır. Təbii ki, həm dövlətlərarası müqavilələr, həm də hökumətlərarası müqavilələr hüquqi cəhətdən məcburidir və iştirakçı dövlətlər tərəfindən yerinə yetirilməlidir. Lakin əgər hökumətlərarası müqavilə, Azərbaycan qanunundan fərqli hüquqi rejim nəzərdə tutursa və həmin müqavilə Milli Məclis tərəfindən təsdiq olunmayıbsa, Azərbaycan dövlətinin həmin müqavilədən irəli gələn beynəlxalq öhdəliklərini yerinə yetirməsi problemi yaranır. Çünki qanun hökumətlərarası müqavilədən üstün hüquqi qüvvəyə malik olduğuna görə belə hallarda qanun tətbiq olunmalıdır. Bu isə Azərbaycanın öz beynəlxalq öhdəliklərini pozması deməkdir. Qanundan hər hansı istisnalar nəzərdə tutan hökumətlərarası müqavilənin Milli Məclis tərəfindən təsdiq olunması və bununla da ona qanun statusu verilməsi yuxarıda göstərilən problemləri aradan qaldırır. Ona görə də, Konstitusiyaya edilən yeni dəyişikliyə əsasən, Azərbaycan Respublikası qanunlarından fərqli qaydalar nəzərdə tutan bütün hökumətlərarası müqavilələr təsdiq və ya ləğv olunmaq üçün mütləq Milli Məclisə təqdim olunmalıdır. Beləliklə, Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri təsdiq və ləğv etmək səlahiyyətinin yalnız Milli Məclisə verilməsini nəzərdə tutan müddəanın Konstitusiyaya daxil edilməsi – mövcud ölkə qanunvericiliyinə və müvafiq praktikaya əsaslanmaqla, hökumətlərarası müqavilələrin bağlanması praktikası üzərində parlament nəzarətinin təmin edilməsidir (4,46-47). Müəllifin göstərdiklərindən tam aydındır ki, burada söhbət qüvvədə olan qanunla müvafiq hökümətlərarası müqavilə arasında mövcud olan kolliziyadan, xüsusən lex specialis derogat legi generali maksimasından gedir. Müəllif qanunlardan fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələr dedikdə, qanundan hər hansı istisnalar nəzərdə tutan hökumətlərarası müqavilələri başa düşür.

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununa eyni anlayış 12 iyun 2018-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə əlavə edilmişdir. Qanunun 70.3-cü maddəsinə görə Azərbaycan Respublikasının Milli Məclisində dövlətlərarası və Azərbaycan Respublikasının **qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələr**in təsdiq və ləğv edilməsi barədə, uyğunlaşdırma məqsədilə hazırlanmış, həmçinin ad və digər texniki xarakter daşıyan dəyişiklikləri (müddət, məbləğ, yaş senzi ilə bağlı, həmçinin subyektlərin hüquqi vəziyyətinə təsir edən, hüquq məsuliyyətini yaradan və ya aradan qaldıran, yüngülləşdirən və ya ağırlaşdıran dəyişikliklər istisna olmaqla) nəzərdə tutulan qanun layihələrinə bir oxunuşda, digər qanun layihələrinə, həmçinin Konstitusiya qanunu layihələrinə isə üç oxunuşda baxılır. Azərbaycan Respublikasının **qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələr**in mövcudluğu həm də o

anlama gəlir ki, belə müqavilələr dövlətlərarası müqavilələr də ola bilər ki, bu halda söhbət məhz müvafiq müqavilələrdən gedir.

Bundan başqa, de lege lata qanunvericilikdə hüquqi kolliziyaları ifadə etmək üçün "uyğunsuzluq" sözündən də istifadə olunur. Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikası Kostitusiya qanununun 1.0.12-ci maddəsinə görə də, normativ hüquqi aktların kolliziyası eyni ictimai münasibətləri tənzimləyən qüvvədə olan normativ hüquqi aktların ziddiyyətidir (uyğunsuzluğudur). Daha üstün hüquqi qüvvəyə malik olan Azərbaycan Respublikası Konstitusiyasında normativ hüquqi aktların iyerarxiya üzrə üstünlüyünün təmin olunmasına dair müddəalarda "uyğunluq" ifadəsi işlədilmişdir. Belə ki, Konstitusiyada Konstitusiya Məhkəməsinin konstitusiya nəzarəti səlahiyyətləri ilə bağlı 130-cu maddənin 3-cü hissəsində ilk 7 bənd məhz uyğunluğun yoxlanılmasından bəhs edir. Kontekstdə görə aydındır ki, bu halda iyerarxiya üzrə kolliziyaların aradan qaldırılmasından, yəni qanunvericilik sistemində aşağıda yerləşən aktların özündən yuxarıda duran aktlar arasında olan toqquşmanın, ziddiyyətin aradan qaldırılmasından gedir. Fikrimizcə, ziddiyyətin mövcudluğu bir məsələdirsə, onun aradan qaldırılması ayrı bir məsələdir. Yəni uyğunluğun təmin olunması uyğunsuzluğun deyil, ziddiyyətin olduğu halda təmin olunur. Həmçinin Azərbaycan Respublikası Konstitusiyasının 148.4-cü maddəsində də, "uyğunluq"dan - Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmasından bəhs olunur. Bu müddəa Konstitusiyanın 12.2-ci maddəsində də uyğunluq anlayışı ilə ifadə olunur. Həmin maddəyə görə Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə **uyğun** tətbiq edilir. Yuxarıdakılar əsasında belə bir ümumiləşdirmə aparmaq olar ki, normalar arasındakı iyerarxik münasibətlər məhz uyğunluq termini ilə ifadə olunur. Normaların iyerarxiyasını ifadə etmək üçün uyğunluq ifadəsindən istifadə olunmasını əsaslı saymaq lazım gəlir.

De lege lata qanunvericiliyin təhlili əsasında belə bir nəticəyə gəlmək olur ki, kolliziyaların adlandırılması barədə "ziddiyyət" (lex superior qaydasında aradan qaldırılan kolliziyalar üçün), "uyğunluq" (həm lex superior, həm də lex posterior qaydasında aradan qaldırılan kolliziyalar üçün) və "fərqli digər qayda" və ya "fərqli qayda" (lex specialis qaydasında aradan qaldırılan kolliziyalar üçün) anlayışlarından istifadə olunur. Bu anlayışların hər biri müvafiq kolliziyaların aradan qaldırılması üçün istifadə olunan üç maksimaya uyğun gəlir.

Hər üç hal üçün işlədilə bilən optimal anlayış kolliziya sözünün hərfi mənası daha uyğun kimi görünür. Kolliziya sözü latın dilində olan collisio sözündən götürülüb "toqquşma" kimi tərcümə olunur. Hüquq nəzəriyyəsinin digər hüquq elmləri üçün fundamental rolunu nəzərə alaraq hesab edirik ki, burada istifadə olunan anlayışlar mümkün olduğu qədər ümumilədirilmiş olsa, bu, metodoloji baxımdan sahəvi elmlər üçün daha effektiv olardı. Məhz qeyd olu-

nanlar əsasında hesab edirik ki, hüquqi kolliziyaları "toqquşma" kimi adlandırmaq nəzəri baxımdan daha doğru sayılmalıdır.

Mahiyyət etibarilə hüquqi kolliziya dedikdə, eyni və ya oxşar ictimai münasibətləri tənzimləyən ayrı-ayrı normativ-hüquqi aktlar arasında fərqlər və ya ziddiyyətlər, həmçinin hüquq tətbiqetmə prosesində və səlahiyyətli orqan və vəzifəli şəxslərin öz səlahiyyətlərini həyata keçirərkən yaranan ziddiyyətlər başa düşülür (13,175).

Hüquqi kolliziyalara verilən başqa bir anlayışa görə normativ-hüquqi aktlar arasında ziddiyyətlər, toqquşmalar baş verə bilər ki, belə ziddiyyətlər kolliziyalar adlandırılır. Hüquqda kolliziyalar təbii xarakter daşıya bilər. Belə təbii hallara normaların zamana görə qüvvəsi, müxtəlif ölkələrdə hüquqi tənzimetmənin fərqli xüsusiyyətləri, hüquqla tənzimlənən münasibətlərdə mövcud olan ziddiyyətlərlə əlaqədar ola bilər. Onlar hüquqyaratmada səhvlər, məcəlləşdirmə işindəki çatışmazlıqlarla da əlaqədar ola bilərlər (13,175).

Hüquqda kolliziyalar eyni münasibətləri tənzimləyən qüvvədə olan müxtəlif növ və müxtəlif səviyyəli hüquq normaları arasında ziddiyyətlər, hüququn realizəsini çətinləşdirən və ilkin olaraq aradan qaldırılmadan hüquqtətbiqi aktın qəbul edilməsini qeyri-mümkün edən oxşar münasibətləri tənzimləyən normativ-hüquqi aktlar arasında uyğunsuzluqlardır (11,276).

Yuxarıda göstərilən anlayışlarda kolliziyanın mühüm əlaməti kimi göstərilən cəhətərin fərqli olduğunu aşkar şəkildə müşahidə etmək olar. Əgər ilk tərifdə söhbət normativ-hüquqi aktlar arasındakı ziddiyyətlərdən gedirsə, sonuncu tərifdə yalnız normativ-hüquqi aktlar arasındakı toqquşmalar deyil, həmçinin hüquq normaları arasındakı toqquşmalardan söhbət açılır.

Hüquqi kolliziyaya anlayış verərkən müəyyənləşdirilməsi zəruri olan əsas məsələlərdən biri də, bu anlayışda toqquşmanın yalnız normalar arasında, yoxsa həm də normativ-hüquqi aktlar arasında olması əlamətinin mühüm əlamət kimi təsbiti məsələsidir.

Fikrimizcə, bu məsələdə hüquq norması ilə normativ-hüquqi aktın nisbəti barədə məsələyə nəzər salmaq lazımdır. Məlum olduğu kimi, qanunvericilik sistemi səlahiyyətli subyektlər tərəfindən hüquq normalarının qanun və qanunqüvvəli aktlar formasında təzahürüdür. Yəni hüquq norması və normativ hüquqi aktın nisbəti forma məzmunun nisbətidir. Hüquq norması məzmun, normativ hüquqi akt isə formadır. Hüquq normalarının təsbit olunduğu mənbələrdən biri də, məhz normativ hüquqi aktlardır. Əgər onların nisbəti bu anlayışları eyniləşdirməyə imkan versəydi, bu məsələnin ən optimal çıxış yolu olardı. Onlar arasında seçim edəndə bu daha asan olardı. Vəziyyəti mürəkkəbləşdirən əsas məqam ondan ibarətdir ki, hüquqi kolliziyalara yalnız normativ hüquqi aktlar arasında yaranan toqquşma kimi yanaşsaq, onda hüququn digər mənbələrində (hüquqi adətlər, normativ müqavilələr və s.) nəzərdə tutulmuş normalar arasındakı ziddiyyətlər, uyğunsuzluqlar və fərqliliklər hüquqi kolliziya anlayışından kənarda qalmış olacaqdır. Bu baxımdan da hesab edirik ki, kolliziyaya anlayış verərkən onun hüquq normaları arasındakı ya-

ranan toqquşma kimi adlandırmaq daha doğru sayıla bilər. Məsələnin belə bir həllinin çatışmazlığı da vardır. Bu halda eyni normativ hüquqi aktın aralarında iyerarxiya olmayan, zaman etibarilə eyni olan və ümuminin xüsusiyə nisbəti olmayan maddələri arasındakı ziddiyyətlərin kolliziya yox, antonimie olmasıdır. Bütün bunlara baxmayaraq fikrimizcə, həm kolliziyada, həm də antonimie söhbət hüquq normasından gedir və bu halda hüquq normaları arasındakı toqquşmadan gedir.

Prof. M.F.Məlikova hüquq normalarının funksional fəaliyyətinə görə kollizion normaları xarakterik cəhətlər kimi göstərir: Kollizion normalar normativ hüquqi aktlar arasında baş verən ziddiyyətləri aradan qaldıran normalardır. Kollizion normaların xüsusi əhəmiyyəti onların hüquqi sisteminin daimi olaraq yeni sosial reallıqla uyğunlaşdırılmasını, onun daxilindəki normalar arasında ziddiyyətlərin aradan qaldırmaqla stabilliyin, dayanıqlığın təmin edilməsini, bununla da hüquq münasibətlərinin qanuni tənzimlənməsini şərtləndirir (3, 164-16).

Hələ vaxtilə N.M.Korkunov göstərirdi ki, eyni dövlətdə bir-birini əvəz edən, müxtəlif dövrlərdə qəbul olunmuş qanunlar, həmçinin müxtəlif dövlətlərin ərazi qanunları arasında toqquşma mümkündür. Qanunlar arasında toqquşma "bir qanunun qüvvədə olduğu sferada baş verən faktın digər qanunun qüvvədə olduğu dövrdə müzakirə olunması" halında baş verir. Belə olan halda eyni fakt iki müxtəlif qanunun təsiri altına düşür: baş verdiyi yerə və vaxta görə bir yerə, müzakirə olunduğu yerə görə başqasına düşür. Müxtəlif dövrdə və yerlərdə qəbul olunmuş qanunların toqquşması baş verir (9, 336).

Elmi ədəbiyyatda hüquqda kolliziyanın anlayışı ilə bağlı mübahisələrdən biri "hüquqda kolliziyalar" və ya "hüquqi kolliziyalar" ifadəsinin daha doğru olması ilə əlaqəlidir. Bu barədə nəticəyə gəlməzdən əvvəl elmi ədəbiyyatda bununla bağlı əsaslandırmaları nəzərdən keçirmək vacibdir. K.V.Axmetcanova bu iki ifadə arasındakı fərqlər barədə göstərir ki, bu anlayışlar arasında qarşılıqlı əlaqə olsa da, onlar bir-biri ilə sinonim deyillər. Birinci ifadədən müəlliflər hüquq normalarının kolliziyasını, hətta qanunvericilik normalarının kolliziyaları (sahə daxilində və sahələrarası, həmçinin dövlətdaxili və beynlxalq hüquq arasındakı kolliziyaları) ifadə etmək üçün istifadə edirlər. Elmi dövriyyədə hüquqi (юридические) kolliziyalar ifadəsindən istifadə olunması hüquq münasibətləri ilə hüquqa aid olmayan münasibətlər sferasını ayırmağa, bir tərəfdən hüquq normaları ilə əxlaq normaları, korpoorativ normalar, qanunveririclik normaları və adətlər arasında ziddiyyət olduğu vəziyyətini, digər tərəfdən planlaşdırılan normalar qüvvəyə minməmişdən əvvəlki vəziyyəti göstərməyə imkan verir (5, 16).

Hesab edirik ki, hüquqda kolliziyalar ifadəsi məntiqi baxımdan əsaslı görünsə də, "hüquqi" sözünün Azərbaycan dilindəki leksik mənasına uyğun gəlmir. Azərbaycan dilinin izahlı lüğətində "hüquqi" termini sifət kimi ("hüquqi kolliziya" söz birləşməsi birinci növ təyini söz birləşməsidir və "hüquqi" sözü burada təyin kimi sifət rolunda çıxış edir) "hüquqa əsaslanan, hüquq

normalarına uyğun" mənasını verir, başqa bir mənası isə "hüquq normaları, hüquq qanunları və onların praktiki tətbiqi ilə bağlı olan" mənasında işlədilir (1, 403).

Başqa sözlə, sifət kimi kolliziyaların qarşısına hüquqi təyini istifadə edildikdə kolliziyaların hüquqla bağlılığı ifadə olunur. Birinci mənasında isə hüquqi kolliziyalar hüquqauyğun kolliziyalar mənasında gəlir ki, bu kolliziyaların mahiyyətini tam ifadə etmir. Qeyd olunanlar əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan dilinin qanunauyğunluqları baxımından "hüquqi kolliziyalar" ifadəsindən istifadə etmək daha məqsədəuyğundur.

Hüquqi kolliziyalara verilən təriflərdə diqqəti çəkən cəhətlərdən biri onunla bağlıdır ki, baş verən uyğunsuzluqlar təkcə normalar arasında deyil, həmçinin hüquq münasibətlərinin subyektləri arasında ziddiyyətlə bağlı mövcudluğu qəbul olunur. Bu baxımdan kolliziyaların iki formada olduğu söylənir: formal-hüquqi (normativ-hüquqi aktlar arasında) ziddiyyətləri və hüquq münasibətlərinin subyektlər arasında ziddiyyətlər (7, 9).

Hüquqi kolliziyaların "hüquq münasibətlərinin subyektləri arasında yaranan ziddiyyətlər" kimi izahı onun sosioloji nəzəriyyənin mövqeyi baxımdan izahıdır. Məlumdur ki, sosioloji nəzəriyyə hüququ "canlı hüquq"un norması kimi başa düşülür, onu konkret şəxslərin davranışlarında təzahür etdiyini iddia edir. Ona görə də, kolliziyaların təkcə tələb olunan qayda kimi normaların məzmunu arasında ziddiyyət kimi deyil, hüquq münasibətləri subyektlərinin arasında olan ziddiyyət kimi izah edir.

Hüquqi kolliziyaların belə bir izahı onun hüquqi mübahisə ilə yaxınlaşmasını və bir çox əlamətlər üzrə eyniləşdirilməsinə gətirib çıxarır. Bununla bağlı elmi ədəbiyyatda fərqli fikirlər mövcuddur.

Bir qrup müəlliflər hüquqi kolliziya və hüquqi mübahisələrin fərqləndirilməsinin zəruriliyini qeyd edərək göstərirlər ki, əgər hüquqi kolliziyalar iki və daha çox aktın göstərişlərinin ziddiyyətidirsə (uyğunsuzluğudursa), hüquq sahəsində konflikt və ya mübahisə hüquq münasibətləri subyektlərinin eyni göstərişin (aktın) şərhi ilə bağlı fikir ayrılığıdır (və ya birbaşa qarşıdurmasıdır) (7, 14).

Digər qrup müəlliflər isə hüquqi kolliziya və hüquqi konflikti sinonim anlayışlar kimi işlədirlər.

Hüquqi kolliziyalarla bağlı geniş yayılmış anlayışlardan biri ondan ibarətdir ki, hüquqi kolliziya yalnız o halda mövcud olur ki, hüququn subyekti ona aid olan iki bir-birinə zidd normaya eyni zamanda riayət etməsi mümkün olmur, belə ki, normaların birinə əməl etdikdə bu qaçılmaz olaraq digərinin pozulmasına gətirib çıxarır. Bu yanaşmanın məhdud xarakter daşıdığı iddia olunsa da, onun ən ağlabatan və əsaslı anlayışı kimi məhz davranış qaydalarının birinin seçilməsi zərurəti ilə bağlı olaraq meydana gəlməsidir. Hüquq norması davranış qaydası olduğu üçün iki bir-birinə uyğun olmayan normaların hər ikisinə müvafiq olan davranışı sərgiləmək mümkün deyil. Bu halda onlardan birini seçmək lazım gəlir. Kolliziya məhz bu zərurətdən meydana

çıxır. Buna görə də hesab edirik ki, belə bir anlayışın məzmun etibarilə geniş olmadığını söylənilsə də, hüquqi kolliziyaların fərqli izah olunması onun mahiyyətini tam olaraq ifadə edə bilməyəcək. Ona görə də, razılaşmaq lazımdır ki, normativ kolliziya yalnız məntiqi ziddiyyət deyil, funksional uyğunsuzluqdur, yəni bir normanın qüvvəsinin digər normanın qüvvəsinə mane olması, bir-biri ilə toqquşmasıdır.

Kolliziya və konfliktin (mübahisənin) ümumi cəhəti kimi, onların hər ikisi üçün ümumi olan ziddiyyət anlayışı ilə əlaqəli izahıdır. Hər iki anlayış bir-biri ilə ziddiyyətdə olan tərəflərin mövcudluğu halında var olur. Lakin qeyd etmək lazımdır ki, ziddiyyət mübahisənin zəruriliyi üçün tələb olunan şərtlər olduqda mübahisəyə çevrilir. Ziddiyyət onları daşıyıcıları qarşılıqlı fəaliyyətə keçdikdə mübahisəyə çevrilmiş olur. Beləliklə də, mübahisə obyektiv və subyektiv ziddiyyətlərin tərəflərinin mübahisəsində əks olunan təzahürüdür. Kolliziya isə hansısa ziddiyyətin, uyğunsuzluğun yalnız mövcudluğudur (12, 159). Hüquqi kolliziyanın mövcudluğu hüquq subyektinin davranışı ilə bağlı olduğu üçün ziddiyyətlə bağlı hissədə onların fərqlənirici cəhəti kimi kolliziyanın özü-özlüyündə mövcudluğu barədə mülahizələr əsaslı görünmür. Fikrimizcə, kolliziya da hüquq konflikti (mübasibəsi) kimi hüququn realizasiyası zamanı meydana çıxır və hüquqtətbiqedici tərəfindən aradan qaldırılması tələb olunur. Əks halda kolliziya yalnız hüquq texnikası qaydalarının pozuntusu kimi nəzərdən keçirilə bilər ki, bu da məsələnin məhdud şəkildə qoyuluşu olardı.

Elmi ədəbiyyatda kolliziyaların mahiyyətinə fərqli baxış bucaqları var idi. Bəzi mənbələrdən mühafizəedici və tənzimləyici normalar sırasında xüsusi normalar fərqləndirilir ki, buraya da, definitiv normalar, norma-prinsiplər və kollizion normalar aid olunur. Kollizion normalar normalar arasında ziddiyyətlər olduqda işin necə həll edilməsinə imkan verən normalardır. Bu normalar müxtəlif dövrlərdə, müxtəlif orqanlar, müxtəlif həcmdə qəbul olunmuş aktlar arasında yaranan ziddiyyətlərinin həlli üçün nəzərdə tutulmuşdur (10, 109).

Geniş yayılmış yanaşmaya görə hüquqi kolliziyalar mahiyyət etibarlə negativ təzahürdür. Heç şübhəsiz ki, qanunvericiliyin kolliziyası hüququn realizəsinə mənfi təsir göstərən amildir. Belə bir vəziyyət hüquq qaydasının səviyyəsinə mənfi təsir göstərir, hüququn səmərəliliyini aşağı salır, hüquqi tənzimləmənin təsirsizliyinə gətirib çıxarır. Bundan başqa, hüquqi kolliziyalar ictimai münasibətlərin iştirakçlarının öz hüquq və azadlıqlarını həyata keçirməyə də maneçilik törədə bilir.

Hüquq normaları arasındakı ziddiyyətlər, fərqliliklər, uyğunsuzluqlar hüquqi tənzimləmə mexanizminin pozulmasına və bununla da, onun təsirinin azaldılmasına gətirib çıxarır. Hüquq sahələrinin qanunvericiliyi arasında əsaslı ziddiyyətlərin mövcudluğu onların realizəsini daha da çətinləşdirir. Bu baxımdan qanunvericilik prosesində hüquqi kolliziyaların aradan qaldırılması və həllinə, həmçinin hüquqyaratma prosesində yeni boşluqların yaranmamasına xüsusi diqqət ayırmaq mühüm əhəmiyyət kəsb edir.

Bütün bu mənfi cəhətləri ilə birgə bəzi müəlliflər hüquqi kolliziyaları

hüquq sistemində oynadığı rola və yaranma səbəbindən asılı olaraq neqativ və pozitiv növlərə bölürlər. Pozitiv kolliziyalar cəmiyyətin obyektiv tələbatı nəticəsində eyni növ hüquq münasibətlərini tənzimləyən hüquq normalarının toqquşması, neqativ kolliziya hüquqyaratma subyektinin səhvi nəticəsində hüquq sistemində təzahür edən hüquq normalarının toqquşmasıdır. Əgər pozitiv kolliziyaları həll etmək lazımdırsa, neqativ kolliziyaları həm də aradan qaldırmaq zəruridir. Müəlliflərdən Y.A.Tixomirov hüquqi kolliziyaları sırf negativ təzahür kimi qiymətləndirməyin yanlış olduğunu qeyd edərək göstərir ki, kolliziyalar tez-tez özündə müsbət tərəfi ilə də xarakterizə olunur və normal inkişaf prosesin mövcudluğunu təsdiqləyir və ya yeni hüquqi vəziyyətin yaranmasına dair qanuni tələbatın olduğunu ifadə edir. Yaddan çıxarmaq olmaz ki, dialektikanın əsas qanunlarından biri ziddiyyətlərin inkişafa səbəb olmasıdır və ziddəyyətlər yalnız neqativ təzahür ola bilməz (8, 156).

Hüquqi kolliziyalar ziddiyyətin nəticəsi olduğu üçün müəyyən dərəcədə qanunauyğun xarakter daşıyır. Elə bir hüquq sistemi yoxdur ki, onun hüquq normalarına kolliziallıq xüsusiyyəti aid olmasın. Bir tərəfdən kolliziyalar daha çox neqativ xarakter daşıyırsa da, digər tərəfdən kolliziyalar özündə hüquq sistemi və ümumilikdə cəmiyyət üçün pozitiv başlanğıc xarakteri daşıyır. Hüquqi kolliziyalar ictimai münasibətlərin və onlara uyğun olan dövlət-hüquq institutlarının normal inkişaf prosesinin göstəricisidir (6, 7). Belə bir yanaşma dialektik yanaşmanın təzahürü kimi qiymətləndirilməli və bir çox məsələlərin izahında əhəmiyyətli sayılan doktrinal yanaşma kimi qəbul olunmalıdır.

Şübhəsiz ki, hüquqda kolliziyalar hüququn çatışmazlıqları sırasına aiddir. Kolliziyalar hüquq sistemində uyğunsuzluq yaradır və bununla da, hüququn sistemli xarakterinə mənfi təsir göstərir. Hüquqi kolliziyalar hüququn effektivliyini, səmərəliliyini aşağı salır, vətəndaşların hüquqlarının müdafiəsini zəiflədir. Kolliziyalar, həmçinin dövlət hakimiyyət orqanlarının işini çətinləşdirir, onların fəaliyyətinin nəticələrinə mənfi təsir göstərir.

Qeyd olunanları ümumiləşdirməklə hüquqi kolliziyalara aşağıdakı kimi tərif vermək olar:

"Hüquqi kolliziya dedikdə, bir-birinə uyğun olmayan davranış qaydaları arasında seçim etmək zərurətini yaradan hüquq normaları arasında toqquşma başa düşülür." Hüquqi kolliziyalar hüquq normaları arasında ziddiyyətdən, onların bir-birinə uyğunsuzluğundan və məzmun etibarilə bir-birindən fərqlənməsindən meydana gəlir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan dilinin izahlı lüğəti. II cild. Bakı: Şərq-Qərb, 2006, 792 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı: Şərq-Qərb, 2006, 712 s.
3. Məlikova M.F. Hüquq nəzəriyyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. Bakı: Elm və təhsil, 2019, 448 s.
4.Mirzəyev S.A. Azərbaycan parlamentinin inkişafı və müasir funksiyaları. Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2009, №3, s.40-49.
http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Sosial%202009%203/40-49.pdf

5.Ахметжанова, К. В. Юридические коллизии: теория и практика: автореферат диссер. канд.юр.наук., М, 2017, 26 с.
6. Белякович Е.В. Коллизии пространного действия правовых норм // Сибирский юридический вестник. №4, 2008, с.3-7.
7. Денисенко В.В. Коллизии правовых актов и механизм их разрешения (теоретико-правовой аспект). Автореферат, Санкт-Петербург, 2004, 21с.
8. Козлов С.С. Некоторых возможностях разрешения коллизии в условиях правовой системы современной России // Вестник Мурманского Государственного Технического Университета. Т.9., №1, с.154-156.
9. Коркунов Н.М. Лекции по общей теории права. СПб., 1898, 336 с.
10. Общая теория права и государства: Учебник. Под ред. В.В.Лазарева. 3-е изд., переаб. и доп., М.: Юристъ, 2001, 520 с.
11. Радько Т.Н., Лазарев В.В., Морозова Л.А. Теория государства и права. М., Издательство «Проспект», 2018, 568 с.
12. Сибилева С.В. Юридические коллизии в Российской правовой системе // Социология власти. М., №5, 2008, с.158-164.
13. Теория государства и права. Учебник. Под ред. Н.И. Матузов, А.В. Малько. Юристъ, 2004, 512 с.

## ПОНЯТИЕ ЮРИДИЧЕСКИХ КОЛЛИЗИЙ

**З.Н.АЗИМОВ**

**РЕЗЮМЕ**

Юридические коллизии являются одним из важнейших вопросов теории права. В статье исследуются понятие и сущность правовых коллизий с учетом терминологических аспектов в национальной правовой системе. Особое внимание уделено дискуссионным вопросам относительно определений юридических коллизий в научной литературе.

**Ключевые слова:** правовая коллизия, несоответствие норм, иное правило, правовой конфликт, конкуренция норм.

## CONCEPT OF LEGAL COLLISIONS

**Z.N.AZIMOV**

**SUMMARY**

Legal collisions are one of the most important issues in the theory of law. The article explores the concept and essence of legal conflicts, taking into account the terminological aspects in the national legal system. Special attention is paid to the discussion issues concerning the definitions of legal conflicts in the scientific literature.

**Keywords:** Legal collision, non-compliance of norms, other rule, legal conflict, competition of norms.

**UOT- 342.537.36**

# KONSTİTUSİYA QANUNLARININ HÜQUQİ TƏNZİMLƏMƏ PREDMETİ MƏSƏLƏSİ

**A.F.HƏMİDOVA**
***Bakı Dövlət Universiteti***
***hemidovaida@mail.ru***

*Məqalədə konstitusiya qanunlarının özünəməxsus cəhətlərinin təzahür etdiyi aspektlərdən biri olan hüquqi tənzimləmə predmeti, onların digər normativ hüquqi aktların, xüsusən cari qanunların tənzimləmə predmeti ilə qarşılıqlı təsiri və nisbəti məsələləri araşdırılır, bu əsasda konstitusiya qanunlarının Azərbaycan Respublikasının qanunvericilik sistemində yeri, hüquqi qüvvəsi müəyyən edilir. Bu məsələlərin araşdırılması konstitusiya qanunlarının anlayışı və fərqləndirici cəhətlərinin təhlilinə yönəlmişdir. Müəllif tərəfindən konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinə görə təsnifatının həyata keçirilməsinə cəhd edilir. Mövzu üzrə məsələlərin tədqiqi Azərbaycan Respublikasının qanunvericiliyinin təhlili və mövcud elmi yanaşmaların tənqidi icmalı əsasında aparılır.*

**Açar sözlər:** Konstitusiya qanunu, orqanik qanun, Konstitusiyaya dəyişikliklər, Konstitusiyaya əlavələr

Sovet dönəmində qüvvədə olan qanunvericilik sistemində Konstitusiya qanunları anlayışının ayrıca hüquqi kateqoriya kimi fərqləndirilməməsinin səbəbi bu dövrdə faktiki olaraq hüquqi qüvvəsinə görə Konstitusiyaya bərabər olan və ya ondan bilavasitə aşağıda duran konstitusiya qanunlarının mövcud olmaması idi. Konstitusiyaya edilən istənilən əlavə və ya dəyişikliklər Konstitusiyanın mətninə daxil olunurdu və bu növ qanunların fərqləndirilməsinə xüsusi ehtiyac qalmırdı. Buna görə də, cari qanunlardan hüquqi qüvvəsinə görə üstün olan və qanunvericilik sisteminin müstəqil elementi kimi nəzərdən keçirilməsi zəruri olan konstitusiya qanunu anlayışı əsas etibarilə mütəxəssislər tərəfindən doktrinal müddəa kimi nəzərdən keçirilirdi.

Müstəqilliyini bərpa etdikdən sonra ümumxalq səsverməsi ilə qəbul olunan 12 noyabr 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasında Konstitusiya qanunu Milli Məclisin qanunvericilik fəaliyyətinin formalarından biri kimi 93-cü maddənin I hissəsində təsbit olunmuşdur. Həmin maddənin məzmununa əsasən Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən məsələlər üzrə qanunlar və qərarlarla yanaşı, Konstitusiya qanunlarının qəbulu da həvalə edilmişdir.

Konstitusiya qanununun tənzimlədiyi məsələlərin nəzəri təhlilinə keçməzdən əvvəl konstitusiyanın yaradılması, dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı ümumqəbul olunmuş bəzi elmi-nəzəri müddəalara diqqət ayırmaq zəruridir. Qeyd edək ki, konstitusiyanı yaratmaq, ona dəyişikliklər etmək və onu ləğv etmək ədəbiyyatda tədqiqatçılar tərəfindən hakimiyyət səlahiyyəti (pouvoir constituant) kimi nəzərdən keçirilir. Bu səlahiyyətin şərti olaraq iki yerə bölünməsinə rast gəlinir: konstitusiyanı qəbul etmək və ləğv etmək səlahiyyətini özündə birləşdirən (yeni konstitusiyanın qəbul edilməsi köhnəsinin ləğv edilməsi anlamına gəlir) təsisedici hakimiyyət (pouvoir constituant originaire) səlahiyyəti və konstitusiyaya əlavə və dəyişikliklər etmək səlahiyyətinə malik olan təşkiledici hakimiyyət səlahiyyəti (pouvoir constituant dérivé ya da institue) (5, 11-12).

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi xalq olduğu üçün təsisedici hakimiyyət səlahiyyəti xalqa məxsusdur. Bunu başqa cür xalq suverenliyi əlaməti kimi izah etmək olar. Məhz bu səbəbdən Konstitusiyanı qəbul etmək və onun məzmununda dəyişikliklər aparmaq səlahiyyəti də yalnız xalqa məxsusdur. Bəzi ölkələrdə isə təsisedici hakimiyyət səlahiyyətləri, o cümlədən bütövlükdə suverenlik səlahiyyəti xalqa deyil, parlamentə məxsus olduğu hesab olunur (13, 821). Bunu daha aydın şəkildə İngiltərənin siyasi və hüquq sistemində, xüsusən ölkənin Avropa Birliyindən çıxması ilə bağlı ölkədə gedən siyasi-hüquqi proseslərdə aşkar şəkildə müşahidə etmək olur.

Milli hüquq ədəbiyyatında Konstitusiya qanunları Əsas qanunun “sərtliyi” əlamətinin təminat vasitələrindən biri kimi nəzərdən keçirilir. Ş.Əliev cari qanunlara nisbətdə Konstitusiya qanununun qəbulu qaydasındakı mövcud “fərqlərin” məhz Konstitusiyanın “sərtliyi”nin təmini üçün əhəmiyyətə malik olduğunu ətraflı şəkildə göstərmişdir (7, 574, 576).

Konstitusiya qanunlarının digər normativ hüquqi aktlara nisbətdə üstün hüquqi qüvvəyə malik olması da məhz onun hüquqi tənzimləmə predmetinə daxil olan dövlət hakimiyyətinin təşkili və Konstitusiyanın mövcud ictimai münasibətlərin dinamik inkişafına uyğun olması zərurətindən irəli gəlir. Bu baxımdan Konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinə daxil olan məsələlərin dairəsinin dəqiqləşdirilməsi mühüm nəzəri məsələ olmaqla, həm də böyük təcrübi əhəmiyyətə malikdir. Qanunverici orqanın hansı məsələlərlə bağlı Konstitusiya qanununun qəbul etməli olduğu və ya edə biləcəyi sualına cavab məhz konstitusiya qanunlarının predmetinin aydındlaşdırılmasından keçir. Yaddan çıxarmaq olmaz ki, qanunverici orqan yalnız onun səlahiyyətlərinə aid olunan məsələlər üzrə Konstitusiya qanununu qəbul edə bilər.

Ümumilikdə, konstitusiya qanunlarının hüquqi tənzimləmə predmeti onların digər hüquqi əlamətlərini meydana gətirən determinant sayılır. Elmi ədəbiyyatda üstünlük təşkil edən mövqeyə görə konstitusiya qanunlarının digər qanunlardan üstün hüquqi qüvvəyə malik olması da məhz onların tənzimləmə predmeti ilə əlaqədardır.

Konstitusiya qanunlarının tənzimləmə predmetinə daxil olan məsələlərlə

bağlı hüquq nəzəriyyəsində vahid fikir birliyi müşahidə edilmir. Bütün qanunların hüquqi tənzimləmə predmetinə daxil olan məsələlərə dair belə bir fikir tədqiqatçılar tərəfindən hamılıqla qəbul edilmişdir ki, qanun daha mühüm ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktdır(3,168). Heç şübhəsiz ki, konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinə daxil olan məsələlər adi qanunların tənzimlədiyi məsələlərdən fərqlənir. Bu məsələlər eyni olsa idi, konstitusiya qanunları və adi qanunlar anlayışlarının fərqləndirilməsinə zərurət yaranmazdı.

Məntiqli olaraq hesab olunur ki, konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetini konstitusiya hüquq münasibətləri təşkil edir (12, 53). L.A.Morozova konstitusiya qanunlarının hüquqi tənzimləmə predmeti qismində xalq nümayəndəliyi, vətəndaşlıq, milli dövlət quruluşu və sair kimi dövlət əhəmiyyətli institutlarının çıxış etdiyini və müvafiq institutların əsas cəhəti kimi onların kompleks xarakter daşımasını göstərir. Müəllifə görə yalnız bu yolla bir neçə sahəyə aid olan müvafiq institutu tam şəkildə əhatə edib onun hüquqi tənzimlənməsini həyata keçirmək mümkündür (9, 52-52).

S.S.Alekseyev bütün qanunları dövlət həyatının əsas məsələləri ilə bağlı qəbul olunan hüquqi akt kimi nəzərdən keçirərək qanunları adi və konstitusion növlərə bölgüsünün meyarı kimi onların hüquqi tənzimləmə predmetinə daxil olan məsələləri əsas götürür. Müəllif konstitusiya qanunlarının qanunvericilik sistemində aparıcı rolunu göstərərək bildirir ki, bu qanunlar məzmun etibarilə cəmiyyətdə mühüm münasibətlərin əsaslarını tənzimləyir, onların hüquqi tənzimləmə predmetinə dövlət və ictimai quruluşun əsasları, dövlət sisteminin təşkili əsasları, şəxsiyyətin, ictimai təşkilatların hüquqi vəziyyətinin əsasları daxildir (6, 455). Görünür, müəllif ölkə konstitusiyasının təsisedici əhəmiyyətindən irəli gələrək onu cəmiyyət və dövlət quruculuğunun bünövrəsi qismində qələmə verir.

Konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinə daxil olan məsələləri adi qanunların hüquqi tənzimləmə predmetinə daxil olan məsələlərdən fərqləndirən əsas cəhət kimi adi qanunların həm konstitusiya hüquq münasibətlərini, həm də digər hüquq sahələrinə aid olan ictimai münasibətləri tənzimləyə bildiyini, konstitusiya qanunlarının isə yalnız konstitusiya hüquq münasibətlərini tənzimlədiyini göstərmək olar.

Hər bir dövlətin konstitusiyası özündə dövlətin ali hakimiyyət orqanlarının statusunu, onların funksiyalarının həyata keçirilməsi qaydalarını, qarşılıqlı əlaqələrini və səlahiyyətlərini, həmçinin fərdlə dövlət hakimiyyəti arasındakı münasibətlərin əsaslarını müəyyən edən hüquq normalarının məcmusu kimi çıxış edir. Konstitusiya qanunlarının adi qanunlardan fərqləndirən əsas cəhəti kimi onun Əsas qanunla sıx, üzvi bağlılığının qəbul edilməsi hüquqi tənzimləmə predmeti baxımından da bu növ qanunlarla konstitusiyanın tənzimləmə predmetinin eyni olduğu qənaətinə gəlməyə əsas verir.

Milli hüquq ədəbiyyatında yazılı akt kimi Konstitusiyanın insan hüquq və azadlıqlarının müəyyən edilməsi və onlara təminat verilməsi, konstitusion

quruluşun əsasları, idarəetmə forması və ərazi quruluşu, mərkəzi və yerli hakimiyyət orqanlarının təşkili əsasları, onların səlahiyyətləri və qarşılıqlı münasibətləri, dövlət rəmzləri və paytaxt kimi məsələləri müəyyən etdiyi qeyd olunur (2, 53).

Fikrimizcə, konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinin Konstitusiyanın tənzimlədiyi məsələlərlə oxşar olması, bəzən isə eyni olması mövqeyindən çıxış etmək məntiqli sayıla və düzgün yanaşma kimi nəzərdən keçirilə bilər, çünki konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsi hesab olunur.

Lakin elmi ədəbiyyatda konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinin bəzi müəlliflər tərəfindən pozitiv hüquqa əsaslanaraq müəyyən edilməsinə cəhd edilir. Qüvvədə olan Əsas qanuna istinadən M.S.Pesterev iddia edir ki, konstitusiya qanunları adi qanunlardan fərqli olaraq, ancaq Konstitusiya ilə müəyyən olunmuş məsələlərlə bağlı qəbul oluna bilərsə, cari qanunlar üçün tənzimləmə predmeti ilə əlaqədar belə bir məhdudiyyət nəzərdə tutulmamışdır. Başqa sözlə, adi qanunların tənzimlədiyi məsələlər daha əhəmiyyətli sayılsa da, konstitusiya qanunlarının tənzimləməli olduğu məsələlər əvvəlcədən Konstitusiyada müəyyən olunmuşdur (10, 269). Zənnimizcə, müəllif dəqiqsizliyə yol verir, çünki təcrübənin də göstərdiyi kimi, yalnız qüvvədə olan qanunvericiliyə əsaslanan yanaşma ilə konstitusiya qanunlarının tənzimləmə predmetini müəyyən etmək və onun barəsində tam təsəvvür yaratmaq çətindir. Bu yanaşmanın natamamlığını müəllifin istinad etdiyi Rusiya Federasiyasının hüquqyaratma təcrübəsində də görmək olar. Belə ki, Rusiya Federasiyasının Konstitusiyasında barəsində konstitusiya qanununun qəbul edilməsi nəzərdə tutulmayan konstitusiya qanunlarına rast gəlmək olar ki, bu qanunların sosial zərurətdən qəbul edildiyini təsdiqləmək lazım gəlir. Məsələn, “Məhkəmələrin intizam idarəsi haqqında” Rusiya Federasiyası 9 noyabr 2009-cu il tarixli Konstitusiya Qanunu (04.02.2010-cu ildən qüvvəyə minən bu konstitusiya qanunu daha sonra 12.03.2014-cü ildə qüvvədən düşmüşdür).

Elmi ədəbiyyatda konstitusiya qanunlarının tənzimlədiyi ictimai münasibətlərin dairəsi ilə bağlı bir-biri ilə uyğunlaşmayan aşağıdakı əks mövqelərə təsadüf olunur.

Daha geniş yayılmış yanaşmaya görə konstitusiya qanunları göndərici norma kimi birbaşa Konstitusiyada təsbit olunmuş məsələlərlə bağlı qəbul oluna bilər. Bu yanaşmanın tərəfdarları Əsas Qanunda konstitusiya qanununun qəbul edilməsini nəzərdə tutan normasına istinad edirlər. Rusiya Federasiyasının Konstitusiyasının 108.I maddəsinə əsasən konstitusiya qanunları “Konstitusiya ilə nəzərdə tutulan məsələlər”ə dair qəbul olunur. Bu hissədə haqlı olaraq Y.A.Tixomirovun bildirdiyi kimi Əsas Qanunun müvafiq maddəsinin hərfi təfsirindən belə bir nəticə çıxarıla bilər ki, Konstitusiya ilə nəzərdə tutulmuş istənilən məsələ barədə konstitusiya qanunu qəbul oluna bilər. Müəllif belə bir qeyri-müəyyənliyin aradan qaldırmasının zəruriliyini göstərərək Əsas Qanunda bu normanın aşağıdakı kimi dəqiqləşdirilməsini təklif edir: “Əsas Qanunda

qəbul edilməsi konstitusiya qanunu qismində nəzərdə tutulmuş qanunlar Konstitusiya qanunlarına aid olunur.” (11, 49).

Bunun əksinə olan başqa mövqe konstitusiya qanunlarının dairəsinin “situativ qanunların”, qanunvericiliyin əsasları və qanunverici orqan tərəfindən konstitusiya qanunu kimi qiymətləndirilən digər qanunlar hesabına genişləndirilməsi lehinə mülahizələrin əsaslandırılmasına yönəlmişdir. “Situativ qanunlara” dövlətin ərazi quruluşu ilə bağlı qanunlar aid olunur (8, 38-39).

Konstitusiya qanunlarının tənzimləmə predmetinə daxil olan məsələlərin qapalı dairəsinin Əsas Qanunda qəti şəkildə təsbit olunması hüquqi tənzimləmə predmetinin konkretliyi baxımından səmərəli qiymətləndirilsə də, qeyri-mümkün görünür. Nəzərdən qaçırmaq olmaz ki, konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinə daxil olan məsələlərin dairəsi tarixi, sosial-siyasi, konstitusiyanın məqsədli təyinatı, ictimai münasibətlərin inkişaf səviyyəsi kimi çoxsaylı şərtlərdən asılıdır. Eyni zamanda konstitusion idealların dəyəri çox yüksək olduğu üçün onların əldə olunması uzun müddət və digər əsaslı faktorlarla şərtlənir. Həmçinin o tezisin yenidən sübut olunmasına da ehtiyac yoxdur ki, Konstitusiyanın özü də inkişaf edən xüsusi hüquqi materiyadır. Bu inkişafın əsas hərəkətverici qüvvəsi ən ümumi mənada cəmiyyətin sosial reallıqlarının dəyişməsi hesab olunur. Əgər tarixi şərait dəyişirsə, konstitusiya normalarının effektiv şəkildə fəaliyyət göstərməsi üçün onun normaları da inkişaf etməlidir. Ona görə də Konstitusiyaya əlavələri nəzərdə tutan Konstitusiya qanunları həmin tələbatın ödənilməsi üçün səmərəli vasitə kimi çıxış edir. Zənnimizcə, konstitusiya qanunlarının hüquqi tənzimləmə predmetinə daxil olan məsələlərin siyahısının Əsas Qanunda qəti şəkildə qapalı dairədə (numerus claurus) təsbitinin səmərəlilik və hüququn sosial dəyərliliyi baxımından uğurlu bir yanaşma kimi qəbul edilməsi çətindir. Çünki qəbul ediləcək konstitusiya qanunları obyektiv ictimai münasibətlərlə bağlıdır, nə qədər ki, konstitusiya qanununun qəbuluna tələbat yoxdur, bunu əvvəlcədən dəqiqliklə müəyyən etmək mümkün görünmür. Ona görə də Azərbaycan Respublikası Konstitusiyasında barəsində konstitusiya qanunları qəbul ediləcək məsələlərin, xüsusən Konstitusiyaya əlavələr şəklində konstitusiya qanunlarının dairəsinin açıq saxlanması uğurlu yanaşma kimi qiymətləndirilməlidir. Konstitusiyada bu məsələlərin qəti dairəsinin müəyyən olunması Əsas Qanunun mahiyyətinə də zidd olardı.

Lakin belə bir mövqe özlüyündə heç də istənilən məsələ barədə konstitusiya qanununun qəbul edilə biləcəyi nəticəsinə gəlmək üçün əsas vermir. Çünki qanunverici orqanın səlahiyyətləri Konstitusiya ilə müəyyən olunur. Təsadüfi deyildir ki, Konstitusiyanın 94-cü maddəsinin III hissəsində və 95-ci maddəsinin IV hissəsində Milli Məclisin müəyyən və həll etdiyi məsələlərin dairəsinə Konstitusiya qanunları ilə əlavələrin edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur. Konstitusiyanın 93-cü maddəsinin I hissəsində də məhz Milli Məclisin səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunlarının qəbul edilməsi göstərilmişdir. Məntiqi olaraq belə nəticə əldə etmək olar ki,

Azərbaycan Respublikasının Konstitusiyası ilə Milli Məclisin səlahiyyətlərinə aid olunmayan məsələlər barədə konstitusiya qanunlarının qəbul edilməsinə yol verilmir. Bundan başqa, Azərbaycan Respublikası Konstitusiyasında barəsində konstitusiya qanunları qəbul edilməsi nəzərdə tutulan məsələlərin qapalı dairəsini müəyyən etməmişdir.

Azərbaycan Respublikası Konstitusiyasında barəsində konstitusiya qanunları qəbul ediləcək məsələlərə münasibətdə bu növ qanunları şərti olaraq iki qrupa aid etmək olar: 1) Konstitusiyaya əlavələri nəzərdə tutan konstitusiya qanunları və 2) Əsas Qanunda qəbul edilməsi konkret olaraq təsbit olunmuş konstitusiya qanunları.

Göstərilən sonuncu növ konstitusiya qanunlarının məzmun etibarilə daha çox cari qanunlara bənzədiyini müşahidə etmək mümkündür. Belə ki, bu konstitusiya qanunları həcm və məzmun etibarilə cari qanunlar kimi daha genişdir. Bundan fərqli olaraq konstitusiyaya əlavələri təsbit edən konstitusiya qanunları isə Əsas Qanun kimi daha ümumi və lakonikdir.

Azərbaycan Respublikası Konstitusiyasının və ayrı-ayrı konstitusiya qanununlarının təhlili M.F.Məlikovanın Konstitusiya qanunlarının özünəməxsus cəhətləri kimi aşağıdakıları təsdiqləməyə əsas verir:

1) AR Konstitusiyasına əlavələr Konstitusiya qanunu şəklində qəbul edilir;

2) AR Konstitusiyasının ayrılmaz tərkib hissəsidir;

3) AR Konstitusiyasının əsas mətninə zidd olmamalıdır;

4) AR Konstitusiyasına əlavələrin təlkif edilməsi hüququna AR Prezidenti və ya AR Milli Məclisinin azı 63 deputatı malikdirlər;

5) AR Konstitusiyasında onun "Ümumi müddəalar" adlanan birinci bölməsində əks etdirilmiş müddəalarla əlaqədar əlavələr təklif edilə bilməz;

6) Digər qanunlardan özünün xüsusi qəbul edilməsi qaydası ilə fərqlənir (3,169-170).

Azərbaycan Respublikası Konstitusiyasında aşağıdakı məsələlər üzrə Konstitusiyaya əlavələr şəklində konstitusiya qanunlarının qəbul edilməsi nəzərdə tutulmuşdur:

1) Milli Məclisin ümumi qaydaları müəyyən etdiyi məsələlərə əlavələrin edilməsi (94.III maddə);

2) Milli Məclisin həll etdiyi məsələlərə əlavələrin edilməsi (95.IV maddə);

3) Məhdudiyyətlər nəzərə alınmaqla Konstitusiyaya digər istənilən əlavələrin edilməsi (156-ci maddə).

Azərbaycan Respublikası Konstitusiyasında aşağıdakı konkret məsələlər üzrə konstitusiya qanununun qəbul edilməsi nəzərdə tutulmuşdur:

1) Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni (23.III maddə);

2) Əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin

təminatı qaydaları (108.II maddə);

3) Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının təsdiq edilməsi (134.VI maddə);

4) Normativ hüquqi aktların dərc edilməsi qaydası (149.VIII maddə).

Məlumat üçün qeyd etmək yerinə düşərdi ki, göstərilən məsələlərin hamısı ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Konstitusiya qanunları qəbul edilmiş və bir çox konstitusiya qanunlarına sonradan mütəmadi əlavə və dəyişikliklər edilmişdir. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya qanununa ayrı-ayrı vaxtlarda 4 dəfə belə əlavə və dəyişikliklər edildiyini göstərmək olar. Bu dəyişikliklər 1) 30 sentyabr 2016-cı il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu; 2) 12 iyun 2018-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu; 3) 7 dekabr 2018-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu və 4) 3 may 2019-cu il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə edilmişdir. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının 28 dekabr 2001-ci il tarixli Konstitusiya qanununa isə müxtəlif dövrlərdə 11 belə əlavə və dəyişikliklər edən konstitusiya qanunları qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul olunmuş və hazırda qüvvədə olan bəzi konstitusiya qanunlarının qəbulu Azərbaycan Respublikası Konstitusiyasında birbaşa nəzərdə tutulmamışdır. Belə konstitusiya qanunlarının qəbul edilməsinin Əsas Qanunda dolayı yolla nəzərdə tutulduğunu ehtimal etmək olar. Həmin konstitusiya qanunlarına aşağıdakıları daxil etmək mümkündür: 1) "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu; 2) "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu; 3) "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının 28 dekabr 2001-ci il tarixli Konstitusiya Qanunu; 4) "Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında" Azərbaycan Respublikasının 12 may 2006-cı il tarixli Konstitusiya Qanunu.

Göstərilən qanunların qəbul edilməsi birbaşa şəkildə Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmadığına baxmayaraq onların aid olunduğu bir çox məsələləri həll etmək səlahiyyətləri Milli Məclisin səlahiyyətlərinə daxil edilmişdir. Milli Məclisin müvafiq səlahiyyətlərə malik olduğunu "argumentum a fortiori" metodunu tətbiq etməklə şərh etmək mümkündür. Məntiqi mühakimə üsulu kimi "argumentum a fortiori" metodunun iki forması mövcuddur: 1) "Argumentum a maiori ad minus – güclüdən zəifə doğru mühakimə" və 2) "Argumentum a minori ad maius – zəifdən güclüyə doğru

mühakimə" (4, 338). Bu metod Roma hüququndan bəri mövcuddur və təfsirin məntiqi üsulu kimi istifadə olunur.

Hüquqda bununla bağlı ayrıca nəzəriyyə də formalaşmışdır. "İmplied powers" nəzəriyyəsi kimi adlandırılan bu doktrinanın mahiyyəti ondan ibarətdir ki, bəzən normativ hüquqi aktlarda hər bir məsələnin detallı şəkildə təsbit olunması mümkün olmur. "Sosial zərurət" və "məqsədəmüvafiqlik" prinsipləri əsasında müvafiq səlahiyyətlərin normativ hüquqi aktın məzmununda tənzimləndiyi ilə bağlı nəticəyə məntiqi şəkildə gəlmək olur. Qeyd edək ki, ABŞ Ali Məhkəməsi federal hakimiyyətin bir çox səlahiyyətlərinin Konstitusiyada birbaşa şəkildə nəzərdə tutulmasa da, məhz bu nəzəriyyə əsasında ona məxsus olduğu qənaətinə gəlmişdir. Ali Məhkəmə xüsusən federal hakimiyyətlə yerli hakimiyyət arasında səlahiyyətlərin bölgüsü ilə bağlı mübahisələrdə bəzi federal səlahiyyətləri məhz bu konsepsiya əsasında ortaya çıxarmışdır. Konqres də ölkə Konstitusiyasında nəzərdə tutulmasa belə, "ehtimal olunan səlahiyyətlər" konsepsiyasına əsaslanmaqla federal hökumətin səlahiyyətlərinin realizəsi üçün zəruri və məqsədəuyğun saydığı qanunları qəbul edə bilir (14; 15).

Bu doktrinanın müddəalarını "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu və "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa şamil etsək, bununla bağlı aşağıdakıları göstərmək mümkündür.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsi qanunverici orqan kimi Milli Məclisin həll etdiyi məsələlərdən biridir. Bu səlahiyyət özündə Nazirlər Kabinetinə etimadsızlığın göstərilməsinin mümkünlüyünü də birləşdirir. Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququ daha "güclü" səlahiyyət kimi nəzərdən keçirildikdə həmin hüququn həyata keçirilməsi üçün əlavə təminatların yaradılması səlahiyyəti də bundan daha "zəif" səlahiyyət kimi qiymətləndirilə bilər. Konstitusiyada Milli Məclisin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququna malik olması Milli Məclisə bu hüququn əlavə təminatları barədə konstitusiya qanunu qəbul etmək səlahiyyəti verir. Milli Məclisin belə bir səlahiyyətə malik olması daha güclü arqumentə əsaslanan məntiqi nəticədir.

Eyni arqumenti "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya qanunu barəsində də irəli sürmək mümkündür. Azərbaycan Respublikası Konstitusiyasına görə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilini seçmək hüququ Milli Məclisə məxsusdur. Konstitusiyada Milli Məclisin Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilini seçmək hüququ "güclü" səlahiyyət, onun statusunu müəyyən edən məsələnin həlli isə "zəif" səlahiyyət kimi qələmə vermək olar. Buradan isə məntiqi nəticə çıxarmaq olar ki, Konstitusiyada Müvəkkili seçmək səlahiyyəti Milli Məclisə

məxsusdursa, onun statusu barədə Konstitusiya qanunu qəbul etmək səlahiyyəti daha zəif səlahiyyət kimi ona aid oluna bilər.

Qəbul edilməsi Əsas Qanunda birbaşa olaraq təsbit olunmamış yuxarıda adı çəkilən Azərbaycan Respublikasının konstitusiya qanunlarının məzmununun öyrənilməsi onların tənzimlədiyi məsələlərin konstitusiya hüquq münasibətlərinə aid olmaqla böyük əhəmiyyətə malik olduğunu, dövlət və ictimai quruluşun, şəxsiyyətin hüquqi vəziyyətinin əsasları ilə əlaqədar özünün sosial dəyərliliyi ilə seçildiyini görmək olur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitusiyası. 12 noyabr 1995-ci il.
2. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 760 s.
3. Məlikova M.F. Hüquq nəzəriyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. Bakı: Elm və təhsil, 2019, 448 s.
4. Gözler K. Hukuka giriş. Ekin Kitabevi yayınları, 2014, 496 s.
5. Gözler K. Kurucu İktidar. Ekin Kitabevi yayınları, 1998,190 s.
6. Алексеев С.С. Собрание сочинений. В 10 т. Том 3: Проблемы теории права: Курс лекций. М.: Статут, 2010, 781 с.
7. Алиев Ш.М. Грамматика Конституционализма. Баку: Bestpack, 2016, 894 s.
8. Аничкин Е.С. Преобразование Конституции Российской Федерации и развитие конституционного законодательства в конце XX – начале XXI в. М.: Юрлитинформ, 2010, 416 с.
9. Морозова Л.М. Конституционные законы в советской правовой системе // Сов. гос. и право. 1982, №2, с.50-58.
10. Пестерев М.С. Современная иерархия системы источников конституционного права Российской Федерации // Известия Сочинского Государственного Университета, 2012, №1(19), с.268-274.
11. Тихомиров Ю.А. Конституция, закон, подзаконный акт. М.: Юрид. лит., 1994, 136 с.
12. Тихомиров Ю.А. Теория закона. М.: Наука, 1982, 357 с.
13. Хабриева Т.Я. Парадигмы конституционной реформы // Журнал зарубежного законодательства и сравнительного правоведения, 2015, №5, С.820-830.
14. McCulloch v. Maryland, 17 U. S. 316 (1819).
15. United States v. Kagama, 118 U.S. 375 (1886).


## ВОПРОСЫ ПРЕДМЕТА РЕГУЛИРОВАНИЯ КОНСТИТУЦИОННЫХ ЗАКОНОВ


**А.Ф.ХАМИДОВА**



## РЕЗЮМЕ

В статье вопросы конституционного закона рассматриваются в аспекте определения его предмета правового регулирования, соотношения с предметом регулирования иных нормативных правовых актов, в частности текущих законов, на данной основе определяется место конституционного закона в системе законодательства Азербайджанской Республики, его юридическая сила. Исследованию указанных вопросов предпослано рассмотрение понятия, отличительных особенностей конституционного закона. Автором предпринята попытка дать классификацию конституционных законов.

Исследование вопросов темы проводится на основе критического обзора различных научных подходов и анализа законодательства Азербайджанской Республики.

**Ключевые слова:** Конституционный закон, органический закон, изменения в Конституции, дополнения в Конституцию.

## ISSUES OF THE OBJECT REGULATION OF CONSTITUTIONAL CONVENTIONS

**A.F.HAMIDOVA**

### SUMMARY

In article questions of constitutional conventions are considered in terms of definition of its subject of legal regulation, relations with the object of regulation other regulatory legal acts, in particular the current laws on this basis is determined by the place of constitutional conventions in the legislation system of the Azerbaijan Republic and its legal force. The study of these issues is preceded by consideration of the concept and distinctive features of the constitutional conventions. The author attempts to give a classification of constitutional conventions. Research on the topic is based on a critical review of various scientific approaches and analysis of the legislation of the Republic of Azerbaijan.

**Key words:** Constitutional conventions, organic statut, amendments to the Constitution

## İQTİSADİYYAT

**UOT 339.9; 339.9:061(100)**

# SƏMƏRƏLİ REGİONAL İQTİSADİ SİYASƏTİN FORMALAŞMASINDA İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİNİN ROLU

**H.H.ASLANOV**
***Bakı Dövlət Universiteti,***
***dosent1966@mail.ru***

*Müasir dünyada qloballaşmanın təsiri altında iqtisadi əlaqələrin mürəkkəbləşdiyi, liberallaşdığı daha böyük miqyaslı və müxtəlif olduğu bir şəraitdə bazar münasibətlərinin keyfiyyətcə yeni forma və səviyyədə koordinasiya olunması tələbini daha da artırır. Belə ki, dövlət tənzimlənməsinin zəruriliyi inkişaf etmiş bazarın yaranması dövründə də kəskinləşir və belə bir şəraitdə qlobal, milli, regional proseslərin uzlaşdırılması bu prosesdə ön plana çıxır.*

*Qeyd edək ki, iqtisadi münasibətlərin liberallaşdığı şəraitdə məhz regional siyasətin rolu atrır. Bu baxımdan dövlətin regional iqtisadi siyasəti və onun tənzimləmə - idarəetmə mexanizmləri regionların, onların təsərrüfat sahələrinin inkişafı qarşısında prioritet – perspektiv məqsədlər qoyur, cəmiyyətin mənafeyi baxımından onların yerinə yetirilməsini stimullaşdırır və təmin edir.*

*Müasir inkişaf mərhələsində regional siyasətin qarşıya qoyduğu strateji və cari məqsədlərə çatmağın başlıca vəzifəsi respublikanın bütün iqtisadi rayonlarının istehsal potensialından, təbii-iqtisadi imkanlarından, yerli və xarici investisiyadan, elmi-texniki və kadr potensialından səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və respublikanın iqtisadi rayonlarında daha səmərəli yerləşdirilməsinə nail olmaqdır.*

**Açar sözlər:** dövlət, tənzimlənmə, regional siyasət, iqtisadi səmərəlilik, regional inkişaf, dövlət proqramı, investisiya siyasəti

Azərbaycanın müstəqilliyinin ilkin dövründə dövlətin iqtisadi siyasətinin məqsədləri, vəzifələri və metodlarının əks olunduğu sosial-iqtisadi inkişafın konsepsiyasının olmaması həm də regional siyasətin lazımsızlığı haqda təsəvvürlərin formalaşmasına səbəb olmuşdur. Nəticədə regionlar arasında əlaqələr pozulmuş, ölkənin iqtisadi inkişafı ilə regional inkişafın uzlaşdırılmaması baş vermiş və ölkə səviyyəsində qəbul edilən qərarlar yerlərdə zəruri nəticələri verməmişdir. Əlbəttə, bu prosesə torpaqlarımızın 20%-nin işğalı və ondan irəli gələn məlum çoxsaylı iqtisadi, sosial, siyasi, hüquqi və digər problemlərin çox neqativ təsir göstərərək, həmin ziddiyyətləri katastrofik dərəcədə dərinləşdirdi. Qeyd edək ki, mərkəzləşdirilmiş idarəetmənin süqutu və iqtisadi münasibət-

lərin liberallaşdığı şəraitdə məhz regional həlqənin rolu artır və hal-hazırda bir sıra alimlər və dövlət qulluqçuları ölkənin, onun regionlarının davamlı inkişafının aktual problemlərinin həlli ilə bağlı metod və vasitələrin aktiv icrasını həyata keçirir. Bu baxımdan islahatların geniş miqyasda aparıldığı bir dövrdə məhz dövlətin regional iqtisadi siyasəti və onun tənzimləmə-idarəetmə mexanizmləri regionların, onların təsərrüfat sahələrinin inkişafı qarşısında prioriet-perspektiv məqsədlər qoyur, cəmiyyətin mənafeyi baxımından onların yerinə yetirilməsi stimullaşdırılır və təmin edilir.

Ayrı-ayrı mütəxəssislər regionların ümumi – iqtisadi və hüquqi mühiti formalaşdırdığı və yalnız müəyyən normativ-hüquqi aktların qəbulu ilə mövcud problemlərin həll edilə bilməsi haqda fikirləri uzun müddət ərazilərin özünəməxsusluqlarının qəbul edilməməsi ilə nəticələnmişdir [2, 11]. Ona görə də iqtisadi inkişafda regionlara müstəqilliyin az və ya çox verilməsi üzərində fikirlərin cəmlənməsi baş vermiş və bu da, onların spesifik inkişaf yolunun seçilməsi üzərində konkret təkliflərdən ümumiləşdirmələrə doğru fikirlərin və ümumi dövlət tədbirlərinin yaranmasına səbəb olmuşdu.

Müasir inkişaf mərhələsində regional siyasətin qarşıya qoyduğu strateji və cari məqsədlərə çatmağın başlıca vasitəsi respublikanın bütün iqtisadi rayonlarının istehsal potensialından, təbii-iqtisadi imkanlarından, yerli və xarici investisiyadan, elmi-texniki və kadr potensialdan səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və respublikanın iqtisadi rayonlarında daha səmərəli yerləşdirilməsinə nail olmaqdır. Bu problemlə bağlı mövcud iqtisadi ədəbiyyatın təhlili göstərir ki, regionların iqtisadi inkişafının dövlət tənzimlənməsi nəzəriyyəsi birincisi, dövlət tərəfindən hansı regionların iqtisadi inkişafı stimullaşdıraraq tənzimlənməlidir və nə üçün; ikincisi, seçilən regionların inkişafının stimullaşdırılması hansı metodlar vasitəsilə həyata keçirilməsi məqsədəuyğundur kimi suala cavab verməlidir. Hər iki suala bu gün nəzəriyyəçilər cavablar verərək vaxtaşırı bu cavabların dəqiqliyi üzərində polemikalar aparılır. Birinci sualın cavabı neoklassiklərin regional artım nəzəriyyəsi tərəfindən verilərək regionların müəyyən zamandan sonra iqtisadi inkişafları bərabərləşməsi ilə izah edilib və problem yalnız rayonlara dövlət tərəfindən sosial problemləri həll etmək üçün maliyyə köməyinin zəruriliyini qəbul edərək digər hallarda dövlət müdaxiləsinin lazımsızlığını göstəriblər. Kumulyativ artım nəzəriyyəsinin tərəfdarları isə regionların iqtisadi inkişafında disproporsiyaların olmasını göstərərək aktiv dövlət müdaxiləsini zəruri hesab edib və dövlət tərəfindən geridə qalmış regionların dövlət tənzimlənməsinin vacib olmasını təsdiqləmişlər. Bu baxımdan Q.Kameron tərəfindən regionların iqtisadi inkişafına, dövlət müdaxiləsinin zəruriliyi və ya lazımsızlığını əks etdirən üç nəzəri cərəyan diqqəti cəlb edir. Onları ümumi halda aşağıdakı kimi qruplaşdırmaq olar:

- Qeyri-intervensionalistlər dövlətin iqtisadi artıma müdaxiləsinin lazımsızlığını göstərirlər;
- Adaptyorlar (uyğunsuzlaşdırıcılar) – investisiya və işçi qüvvəsinin

miqrasiyasının stimullaşdırılması hesabına bazarın kor-təbii tənzimləyicilərinin yümşaldılması və təbii proseslərin sürətləndirilməsi ilə ərazilərin cüzi korrektə edilməsini qəbul edənlər;

- Radikal islahatçılar – intensiv tənzimləmənin tərəfdarlarıdılar.

Sonradan bir sıra iqtisadçılar son iki cərəyanın müddəalarının sintezi və yenidən formalaşdırılması ilə bu iki cərəyanı (uyğunlaşdırıcı və radikal iqtisadçılar) üç qola ayırıblar [4, 37].

Bu gün adekvat yanaşmaların tətbiqi Azərbaycan üçün məqsədəuyğun hesab edilmir. Digər tərəfdən kumulyativ artım nəzəriyyəsinin tərəfdarlarının qeyd etdikləri kimi bu xərclərdən əldə edilən səmərə yüksək olmaya bilər. Ona görə bizim şəraitimizdə daha çox regional siyasətin adaptasion modelinə üstünlük verilməklə problemli rayonların iqtisadi artımının stimullaşdırılması üçün dövlət tədbirlərinə ehtiyac duyulur. Təcrübədə sosial səmərə vəsaitlərin problemli regionların xeyrinə yenidən bölgüsünü nəzərdə tutur ki, buna da iki yanaşma mövcuddur. Birincisi, iqtisadi səmərəliliklə ərazi üzrə məhsuldar qüvvələrin ədalətli bölğüsü ilə əks proporsional asılılıq var. Yəni problemli regionların iqtisadi inkişafının stimullaşdırılması baxımından birmənalı olaraq iqtisadi səmərəliliyin azalmasına gətirib çıxarır. Bu əsasda E.Kuklinski ərazi disproporsiyalarının azaldılması üçün regional siyasətin ərazi rəqabətinin formalaşdırılması üzərində qurulmasını təklif edir [3, 3-7]. Digər yanaşmaya görə ərazi ədalətliliyi yalnız neqativ deyil, həm də pozitiv effektlər verir. İlk öncə ədalətsizlik və qeyri-bərabər inkişaf regionların potensialından tam istifadəyə imkan vermir. İkincisi, onlar yalnız qısa müddətli dövrdə effektiv olmaqla uzunmüddətli dövrdə disproporsiyaların artmasına və bu disproporsiyaların aradan götürülməsi üçün əlavə vaxt tələb edilməsinə gətirib çıxaracaq. Üçüncüsü, belə disproporsiyalar sosial gərginliyin artması və gözlənilən iqtisadi səmərəyə qədər baş verə bilən sosial problemlərə səbəb ola bilər. Ümumilikdə, ərazi ədalətliliyinə minimal nail olma problemi, əlbəttə, cari maliyyə köməyinin edilməsi ilə birbaşa bağlıdır. Lakin işsizliyin hələ mövcud olduğu hər bir şəraitdə bu lazımi səmərəni verməyə də bilər. Digər tərəfdən heç bir vaxt dəqiqliklə demək olmaz ki, nə vaxt bu cari maliyyə köməyinə artiq ehtiyac duyulmur. Ona görə də dövlət tənzimlənməsi tədbirləri konkret dövlətin mövcud problemlərindən və onların xarakterindən asılı olaraq müxtəlif hesab edilir. Hesab edilir ki, problemli regionların inkişafında investorların cəlb edilməsi bir sıra maliyyələşmə problemlərinin həllinə kömək göstərə bilər. Ancaq bu məsələdə də investorlar üçün problemli regionların cəlbedici olması bir-birindən fərqli prinsipial tədbirlərin tətbiqi üzərində fikir ayrılığına gətirir: Birincisi, ərazilərin investorlar üçün cəlbedici olması, onların infrastrukturlarının təkmilləşdirilməsi hesabına əldə edilir. Bu zaman infrastruktur geniş mənada bu regionda təsərrüfatçılıq şəraitinin sintetik göstəricisi kimi qəbul etmək lazımdır. İkincisi, regiona gələn investorlar üçün bir çox vergi güzəştlərinin edilməsi. Birinci halda, regionların uzun müddətli inkişafı üçün əlverişli şərait yaradılır. Halbuki, vergi güzəştləri tətbiq edilən halda beynəlxalq təcrübə

əsasında tam qeyd etmək olar ki, bu güzəştlərin müddəti bitdikdən və ya onlar ləğv edildikdən sonra investorların həmin regionlardan getməsi ilə də nəticələnə bilər. Ona görə, Azərbaycan reallıqlarında birinci tədbirin tətbiqi bu gün tam təsdiqlənməklə regionlarda uzunmüddətli iqtisadi inkişafa gətirib çıxarır. Bazar münasibətləri şəraitində dövlət iqtisadiyyata təsir göstərmək üçün bir sıra üsullardan istifadə edir ki, onlar da öz növbəsində idarəetmə prosesini daha səmərəli edir. Məhz regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar olaraq Azərbaycanda bu gün bir sıra normativ-hüquqi aktlarla yanaşı belə alətlərin istifadəsi geniş tətbiq edilir. Regionların daxili vəziyyətlərində və inkişaflarında mövcud olan fərqlərin olması onların hər birinin daxili inkişafı üçün xüsusi şəraitin olmasını tələb edir ki, bu da özünü regional planlaşdırmanın, yerli, mərkəzdən asılı olmayan idarəetmənin və onların hər birinin inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsini tələb edir. Respublikamızda regional inkişafla bağlı problemlər daha çox öz əksini dövlət səviyyəsində qəbul edilmiş proqramlarda tapır. Regionların yerli resurslarını və digər amilləri nəzərə almaqla, onların sosial- iqtisadi inkişafı məqsədilə üç Dövlət Proqramı qəbul olunaraq yerinə yetirilmişdir. Bir proqram isə 2019-2023-cü illəri əhatə etməklə icra üçün qəbul edilmişdir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün regionların mövcud potensialından daha səmərəli istifadə imkanlarını, məhsuldar qüvvələrin regionlar arasında qeyri-mütənasib paylanmasını nəzərə alaraq yerli resurslardan istifadənin səmərəsini artırmaq üzrə zəruri tədbirlər işlənib hazırlanmış və hal-hazırda həyata keçirilir. Lakin regionların inkişafına və sosial-iqtisadi vəziyyətinə görə müxtəlif ədəbiyyatlarda onların inkişaf etmiş, zəif inkişaf etmiş və depressiv regionlara bölünməsi və bu bölgünün kifayət qədər nəzəri əsaslarının verilməsi həyata keçirilən regional siyasətdə isə regionların bu bölgü baxımından vəziyyətinin müəyyənləşdirilməməsi praktiki baxımdan tədbirlərin təyini və reallaşmasında müəyyən çətinliklərə səbəb ola bilər. Belə ki, hər tipin özünün dövlət tənzimlənməsinin tədbir və mexanizmləri var və regionların sosial, iqtisadi, ekoloji və etnik tənzimləmə ilə inkişafına nail olunma dövlətin həyata keçirdiyi regional siyasətin səmərəliliyinin artırılmasında əsaslı rol oynayır. Belə ki, iqtisadi və sosial cəhətdən inkişafdan geridə qalmış və zəif inkişaf etmiş regionların tənzimlənməsində dövlət tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

Birincisi, iqtisadi tədbir kimi: mənfəətin investisiya kimi istifadə edilən bir hissəsinin vergidən azad edilməsi, amortizasiya ödəmələrində güzəştlərin tətbiqi, mütəxəssislərin hazırlanmasına subsidiyaların verilməsi, sığorta təminatının verilməsi, rəqabətli sifariş və kontrakt sistemindən istifadə, regional investisiya fondlarının yaradılması və məqsədli regional proqramların tədbiqi, regional və sahə indiqativ planların işlənib hazırlanması və onların tətbiqini stimullaşdıran iqtisadi mexanizmlərdən istifadə iri regional problemlərin həllində yerli və xarici özəl bölmənin iştirakını stimullaşdırmaq üçün zəmanət, vergi, kredit, güzəşt sistemlərinin tətbiqi, xüsusi özəlləşdirmə rejiminin tətbiqi, xarici və dövlət kapitallı müştərək müəssisələrin açılması, siyasi və iqtisadi

risklərdən zəmanət sisteminin tətbiq edilməsi.

İkincisi, sosial tədbir kimi: coğrafi-iqlim və ekoloji şəraiti pis olan rayonlarda işləyənlərin əmək haqlarına yüksəldici rayon əmsallarının tətbiqi, sosial yardımın göstərilməsi, rayonlararası miqrasiyanı tənzimləmək üçün yaşayış-qeydiyyat rejiminin gücləndirilməsi və nəzarətin təşkili, sənətkarlıq və evlərdə kiçik istehsal sexlərinin açılması ilə dövlət sifarişlərinin tətbiqi.

Üçüncüsü, ekoloji tədbir kimi: ətraf mühitin monitorinqini həyata keçirmək, ekoloji vergilərin diferensial şkalasını tətbiq etmək, ekoloji təhlükəli zonaları təyin etməklə onlarda xüsusi yaşayış rejimini müəyyənləşdirmək, norma, standart, lisenziya və sertifikat sistemlərini tətbiq etmək, ekoloji auditin təşkil edilməsi.

Dördüncüsü, milli-etnik münasibətlərin tənzimlənməsi mexanizmlər kimi: azsaylı millətlərin ənənəvi təsərrüfat formalarını inkişaf etdirmək üçün köməklik və himayədarlığı həyata keçirmək, sosial, mədəni inkişaflarına şərait yaratmaq, milli-etnik münaqişələrin həllində daha çox inzibati deyil, iqtisadi mexanizmlərdən istifadə edilməsi məqsədəuyğundur. Dünya təcrübəsinin təhlilindən belə qənaətə gəlmək olur ki, Azərbaycan şəraitində məqsədli proqramlar, strateji və indeqativ planlar, proqnozlar iqtisadi rayon, şəhər, inzibati rayon miqyasında bütöv təsərrüfat sahələri və ya təsərrüfatın vacib hesab olunan, əksər hallarda dövlət nəzarəti altında olan müəyyən bir sahəsi üzrə konkret ərazinin təsərrüfat cəhətdən mənimsənilməsi, inkişafı üçün işlənib hazırlana və istifadə oluna bilər. Fikrimizcə, davamlı regional inkişafa nail olmaq üçün dövlət tərəfindən regional indeqativ planların və hər bir konkret region üçün məqsədli proqramların hazırlanması və yerinə yetirilməsinin stimullaşdırılması ilə bağlı aparılan təhlil belə qənaətə əsas verir ki, "Azərbaycan Respublikasında regionların inkişafı" üzrə dörd dövlət proqramının qəbul edilməsi və icrası ölkəmizin sosial-iqtisadi inkişafı və qüdrətli dövlətə çevrilməsində mühüm bir mərhələ kimi dəyərləndirilməlidir [5, 97].

Bu baxımdan regional siyasətlə bağlı dövlət proqramını uğurla həyata keçirmək üçün, respublikadaxili iqtisadi rayonlarının əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərindən, müxtəlif təbii ehtiyatlardan, iqlim şəraitindən, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialından səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və respublikanın iqtisadi rayonlarında məhsuldar qüvvələrin səmərəli yeniləşdirilməsinə nail olmaq üçün tədbirlər müəyyənləşdirilmişdir.

Eyni zamanda respublikada səmərəli regional siyasəti həyata keçirmək üçün sosial-iqtisadi inkişafın tənzimlənmə sistemi, mexanizmi elə formalaşdırılmalıdır ki, onlar regional inkişafın təmin edilməsinin həlledici vasitəsinə, həm də bu sahədə qarşıda duran məqsədlərin reallaşdırılmasının mühüm şərtinə çevrilməlidir.

Burada hər bir rayonun öz xüsusiyyətləri, təsərrüfatçılıq dövriyyəsinə cəlb edilə bilən təbii coğrafi, əmək ehtiyatları balansını mövcud reallıqlar və elmi-texniki imkanlar daxilində hərəkətə gətirilə bilən resursları nəzərə alaraq

onları intensiv sürətdə təsərrüfat dövriyyəsinə cəlb edilməsi ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Proqramın əməli cəhətdən reallaşdırması üçün investorların respublikanın rayonlarına güclü axınını təmin etmək, regionlarda, xüsusən emal sənayesinin inkişafına investisiya qoyuluşunu stimullaşdırmaq üçün əlavə tədbirlərin reallaşdırılması nəzərdə tutulur. Respublikaya ümumi investisiya qoyuluşunun təxminən 60%-i Bakı şəhərindən kənar rayonlara yönəldiləcəkdir.

Dövlət proqramına uyğun olaraq Azərbaycanda 15 il ərzində 1200 mindən çox yeni iş yeri yaradılmışdır. Artıq açılan yeni iş yerləri bu vəzifənin uğurla həyata keçirildiyini göstərir.

Ölkədə regionların sosial-iqtisadi inkişafını sürətləndirmək, Bakı-Abşeron iqtisadi rayonu ilə yanaşı digər regionların inkişafındakı fərqləri aradan qaldırmağı dövlətin prioritet vəzifəsi kimi yerinə yetirmək üçün hər bir regionun sosial-iqtisadi inkişafının məqsədli proqramlarının hazırlanmasını və onların reallaşdırılmasının maliyyə mənbələrinin formalaşmasının başlıca istiqamətləri müəyyənləşdirilmişdir.

Dövlət proqramına uyğun müəyyənləşdirilən regional siyasət Abşerondan kənar respublikadaxili rayonların potensialında xarici investisiya yönümlü məhsul istehsalını stimullaşdırmaqla regionun xarici bazarla əlaqəsinin intensivləşdirilməsi, yerli sahibkarlığı inkişaf etdirmək və s. amillər hesabına daxili tələbatın ödənilməsi səviyyəsinin yüksəldilməsinin, işsizliyin, yoxsulluğun kəskin azaldılmasına səbəb olmaqla ölkəmizin sabit və davamlı inkişafını təmin etmişdir.

Azərbaycanda regional sistem 10 iqtisadi rayonda qruplaşdırılmışdır ki, bu da regionların qeyri-bərabər inkişafının təhlilini asanlaşdırır. Respublikanın ərazisinin təqribən yarısına qədəri üç iqtisadi rayonun, yəni Aran, Gəncə-Qazax və Şəki-Zakatala rayonlarına düşməsinə baxmayaraq sənaye məhsullarının istehsalına görə Abşeron, Naxçıvan və Aran rayonları üstünlüyə malikdir. Lakin sənayenin ərazi-sahə quruluşunun öyrənilməsi bu iqtisadi rayonlarda ixtisaslaşmaya yeni yanaşmanı tələb edir. Belə ki, sənayenin hər bir iqtisadi region üzrə diversifikasiyasının aparılması gələcəkdə onların təbii və kadr potensialından ölkənin iqtisadi təhlükəsizliyi baxımından ixtisaslaşmasını təmin edərək bu istiqamətdə dövlət tərəfindən konkret işlərin aparılmasına imkan vermiş olar [7, 146].

Regional siyasətin və davamlı sosial-iqtisadi inkişaf konsepsiyasının məqsədi və vəzifələri müəyyən edilərkən respublika iqtisadiyyatının və hər bir regionun ayrı-ayrılıqda mövcud vəziyyəti, sosial şəraiti, iqtisadiyyatın sabitləşməsi şəraitində bazar strukturlu təsərrüfat formalarının inkişafı səviyyəsinə görə regional arasında böyük fərq, xarici kapitalın, elmi-texniki və kadr potensialının, qabaqcıl texnologiyanın axınının sürətlənməsinə baxmayaraq respublikamızın ayrı-ayrı regionlarının tələbatlarının müxtəlifliyi hələ də mövcuddur ki, bu da gələcək məqsədli proqramlarda, investisiya layihələrində nəzərə

alınmışdır.

Belə şəraitdə dövlətin səmərəli regional siyasətinin reallaşmasında iqtisadiyyatın dövlət tənzimlənməsinin effektivliyinin artırılması üçün aşağıdakılar həyata keçirilməlidir:

- Regionların özünü təmin etmə və iqtisadi asılılıq səviyyəsi müəyyənləşdirilməli, büdcə vəziyyətinə görə donor və asılı regionlar üçün ayrı inkişaf konsepsiyası formalaşdırılmalıdır;
- Respublikanın bütün inzibati və iqtisadi rayonlarının öz daxili istehsal, elmi-texniki və kadr potensialından səmərəli istifadəsi imkanları müəyyən edilməli, mövcud problemlər aşkarlanmalı və konkret regionların iqtisadiyyatlarının sabitləşməsi, dirçəliş və inkişaf proqnozları, strateji, indeqativ plan və məqsədli proqramları işlənib hazırlanmalıdır;
- Maddi, maliyyə, kadr və elmi-texniki resursların inkişaf səviyyəsi nisbətən aşağı olan, təbii-iqlim şəraiti pis olan depressiv iqtisadi rayonlar təyin edilməklə onlara dövlət tərəfindən xüsusi sosial-iqtisadi diqqət yetirilməlidir;
- Regional investisiya, maliyyə, kredit, qiymət və vergi siyasətinin prinsipial əsaslarını işləyib hazırlamaqla onlar arasında əlaqəni nəzərə alaraq qarşılıqlı həyata keçirilməlidir;
- Dövlət regional təsərrüfat komplekslərinin inkişafı, regionda dövlət mülkiyyətində olan müəssisələrin öz arasında və bu müəsissələrlə özəl müəssisələr arasında münasibətlər sahəsində dövlət tənzimlənməsindən istifadə olunmasının prinsipial əsaslarını elmi cəhətdən əsaslandırmaqla tənzim və idarə olunması mexanizmini işləmək;
- Vergi, kredit, amortizasiya ayırmaları tənzimləmə mexanizmlərinin tətbiqindən öncə onların hansı nəticələr verəcəyini müəyyən etməli və lazım gəldikdə iqtisadi əlverişli mühiti formalaşdırmaq lazımdır;
- Azərbaycanda azad iqtisadi zonaların yaranmasının mümkünlüyünü təyin etməklə bə sahədə dövlət siyasətini formalaşdırmaq;
- Təbii resurslardan səmərəli istifadə və ekoloji təhlükəsizlik üzrə regional tədbirlər planını həyata keçirmək;
- Regionun konkret tipindən asılı olaraq mövcud təsərrüfat sahələri üçün kadrların hazırlanması və bölüşdürülməsini, regional əmək və məşğulluğun elmi cəhətdən əsaslandırılması siyasətini işləyib hazırlamaq.

Yeni yaradılan iş yerlərinin ərazilər və sahələr üzrə paylanmasına dair tövsiyələr hazırlanarkən regionların, sahələrin və sahibkarların mənafeləri nəzərə alınmalıdır. Operativlik və perspektivlik nəzərə alınmaqla iş yerlərinin yaradılmasının məşğulluq proqramında məşğulluq sarıdan cari vəziyyət əks olunmaqla, ayrı-ayrı regionlarda və sahələrdə iş yerlərinin artıb və ya azalması, yeni iş yerlərinin yaradılması prosesi haqqında proqnoz məlumatları və məşğulluğun respublika üçün optimal göstəriciləri əks etdirməlidir. Regionlarda və ərazilər üzrə yeni iş yerlərinin yaradılması variantları və həmin variantların reallaşdırılması üçün mütləq maliyyə xərcləri minimum olmalıdır [6, 135].

Dövlət səviyyəsində regionlara transferlər isə 2 istiqamətdə ödənilir:

- Maliyyə köməkliyinə ehtiyacı olan adi regionlar üzrə.
- Xüsusi maliyyə ehtiyacı və himayədarlığa ehtiyacı olan xüsusi regionlar üzrə.

Adi region kimi burada o region götürülür ki, onun ərazisində yaşayan hər adama düşən gəlir ölkə üzrə hər adama düşən gəlirdən az olsun. Xüsusi ehtiyacı olan region kimi isə o region qəbul edilir ki, onun büdcə vəsaitlərinin həcmi (dövlət büdcəsindən daxilolmalar nəzərə alınmaqla) proqnozlaşdırılan büdcə xərclərindən (kapital qoyuluşları nəzərə alınmır) az olmuş olsun. Müasir şəraitdə sərhəd boyu, cəbhə xətti və depressiv rayonların inkişafı üçün ayrılmış maliyyə vəsaiti istisna olunmaqla digər regionların öz büdcələrinin formalaşması mənbələrinə diqqət yetirilir və özünü təmin etmə istiqamətində xüsusi tədbirlərə əsaslanan regional proqramlar və maliyyə fondları formalaşdırılır.

Dövlət regional siyasətin bütün bu məsələlərinin həllində hər bir regionun konkret xüsusiyyətini nəzərə almaqla bütün ölkənin sosial-iqtisadi inkişafına nail olur və Azərbaycanın qlobal dünya iqtisadiyyatına qoşulmasında dövlət tənzimlənməsinin prioritetlərinə ümumxalq mənafeyinə uyğun istiqamət vermiş olar. Bütün bunlarla yanaşı təcrübə göstərir ki, səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın dövlət tənzimlənməsi yuxarıda qeyd olunan istiqamətlərlə yanaşı həlledici dərəcədə Azərbaycanın dünya iqtisadiyyatına qovuşmasının prioritetlərinin dövlət tərəfindən düzgün müəyyən edilməsindən çox asılı olur.

## ƏDƏBİYYAT


1. 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üçün "Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramı". Bakı: Qanun, 2019.
2. Корнай Я. «Путь к свободной экономике»: десять лет спустя. Вопросы экономики, 2000, №11, с.153.
3. Куклински Э. Региональное развитие – начало поворотного этапа. Журнал «Региональное развитие и сотрудничество», 2007, №7, с.3-7.
4. Котилько В.В. Региональная политика, М.: Приор-издат., 2007, с.176.
5. Əhmədov M.A., Hüseyn A.C. Dövlətin iqtisadi siyasəti. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2011, s.219.
6. Bayramov V.S. Azərbaycanda iqtisadiyyatın diversifekasiyasının maliyyə təminatının gücləndirilməsi məsələləri. Bakı: Qanun, 2018, s.351.
7. Əzizova G.A. İqtisadiyyatın tənzimlənməsi. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2015, s.203.


## РОЛЬ РЕГУЛИРОВАНИЯ ЭКОНОМИКИ В ФОРМИРОВАНИИ РЕГИОНАЛЬНОЙ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ


**Г.Г.АСЛАНОВ**


### РЕЗЮМЕ


Под влиянием глобализации в современном мире растет потребность в качественно новой форме и координации рыночных отношений, в которых экономические отношения становятся более сложными, либерализованными и более масштабными. Таким

образом, потребность в государственном регулировании усугубляется во время появления развивающегося рынка, и в такой ситуации гармонизация глобальных, национальных и региональных процессов является приоритетом в этом процессе.

Следует отметить, что в условиях либерализации экономических отношений роль играет региональная политика. В связи с этим региональная экономическая политика государства и его механизмы регулирования и управления отдают приоритет перспективам развития регионов, их секторов экономики, а также стимулируют и обеспечивают их реализацию с точки зрения интересов сообщества.

Основной задачей региональной политики на современном этапе развития является достижение стратегических и текущих целей путем развития производственного потенциала, природно-экономического потенциала, местных и иностранных инвестиций, научно-технических и людских ресурсов, а также развития более эффективных форм экономической деятельности в экономических районах республики. заключается в развертывании.

**Ключевые слова:** государство, регуляция, региональная политика, экономическая эффективность, региональное развитие, государственная программа, инвестиционная политика

## ROLE OF REGULATION OF ECONOMY IN FORMING REGIONAL ECONOMIC POLICY

**H.H.ASLANOV**

### SUMMARY

Under the influence of globalization in the modern world, there is a growing need for a qualitatively new form and coordination of market relations in which economic relations become more complicated, liberalized and larger. Thus, the need for state regulation is aggravated during the emergence of the emerging market, and in such a situation, the harmonization of global, national, and regional processes is a priority in this process.

It should be noted that in the conditions of liberalization of economic relations, regional politics play a role. In this regard, the state's regional economic policy and its regulatory and management mechanisms prioritize perspectives in the development of regions, their economic sectors, and stimulate and ensure their fulfillment in terms of community interest.

The main objective of the regional policy in the modern development stage is to achieve the strategic and current goals by developing productive capacities, natural-economic capacities, local and foreign investments, scientific and technical and human resources, and developing more effective forms of economic activity in the republic's economic regions. positioning.

**Key words:** state, regulatory, regional policy, economic efficiency, regional development, state program, investment policy

**UDK 339.187.62**
**JEL E62**

# TƏHSİLİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ YENİ BAXIŞ

**Z.H.ZEYNALOV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***zeynalov.zakir@inbox.ru***

*Bazar münasibətlərinin inkişafı şəraitində insan kapitalı üçün əlverişli investisiya və kredit imkananlarının yaradılması müasir zamanın tələbidir. Ali təhsilin maliyyələş-dirilməsində ən mühüm hadisə təhsil kreditlərin verilməsidir.*

*İndiki şəraitdə təhsil haqlarının ödənilməsi üçün ödənişli əsaslarla təhsil alan tələbələrin bank-kredit imkanlarından istifadəsini optimallaşdırmaqdır. Belə ki, bu günkü banklar ölkəmizdə tələbə kontingentinin potensial imkanlarını nəzərə alaraq, **bank-tələbə əməkdaşlıq formatının** qurulmasını dəstəkləməli, tələbələrə və professor-müəllim heyətinə kreditə çıxış imkanlarını sadələşdirməli və bu imkanın reallaşdırmasına şərait yaratmalıdır.*

**Açar sözlər**: təhsil sistemi, müəllim, tələbə, təhsil krediti, kredit, bank lizinqi

Təhsil sistemi hər bir cəmiyyətin ən mühüm fəaliyyət sahəsidir. Bu sahəyə investisiya qoymaq təhsilin inkişafına nə qədər kömək edəcək və ya insan kapitalının inkişafına bir stimul və təkanverici qüvvə olacaqmı?

Ölkəmizdə təhsil sisteminin təkmilləşdirilməsi üçün yeni maliyyə mexanizmlərindən istifadə etməklə sistemin formalaşması istiqamətində yeni təcrübədən istifadə edilməsinə zərurət yaranmışdır. Belə ki, bu gün maliyyə resurslarına çıxış imkanlarının yaradılması insanların maliyyə ehtiyaclarının ödənilməsinə, ümumi rifah halının yaxşılaşdırılmasına zəmanətdir.

Beynəlxalq təcrübə də göstərir ki, kifayət qədər səmərəli metodlardan biri də kredit imkanıdır. Bu universal investisiya aləti dövlət maliyyə və-saitlərinin məlum məhdudiyyəti fonunda iqtisadiyyatın inkişaf etdirilməsi və yerli sahibkarların, xüsusi ilə də təhsil işçilərinin, eyni zamanda ali və orta ixtisas müəssələrində təhsil alan tələbələrin dəstəklənməsi üçün münbit zəmin yaradacaqdır. Məhz maliyyə resurlarına çıxış, təhsil işçilərinin stimullaşdırıl-ması üçün güclü impulsdur və təhsil müəssisələrinə kəskin maliyyə gərginliyi yaratmadan təhsil işçilərinin qarşıya qoyulan məsələlərə yanaşmada keyfiy-yətin yüksəldilməsinə və şəffaflığın təmin olunması ilə nəticələnəcəkdir.

Mövzunun aktuallığı – insan kapitalının, ağıllı beyinlərin inkişafı ilə əlaqədər olaraq müasir innovativ metodlardan istifadə, təhsil müəssisələrində təhsil haqlarının ödənilməsi və digər məqsədlər üçün yeni **maliyyələşmə (kreditləşmə) mənbələrinin** yaradılması və təhsil işçilərinin zəruri ehtiyaclarının ödənilməsi üçün **istehlak kreditlərinə** çıxış imkanlarının dəstəklənməsidir.

Mövzunun konseptuallığı ondadır ki, maliyyələşmənin (kreditləşmənin) səmərəliliyinin və şəffaflığının təmin olunması üçün "**təhsil bankları"** yaxud "**təhsil fondları"** kimi maliyyələşmə subyektlərinin yaradılmasına ehtiyac var. Qeyd edək ki, belə qurumlar özəl sektorun (hüquqi və fiziki şəxslər) maliyyə imkanları və dəstəyi ilə yaradılmalıdır, çünki **"təhsil bankları"** yaxud **"təhsil fondları"nın** təsisçiləri aparılan əməliyyatların nəticəsi olaraq mənfəət əldə edir, təhsil müəssisələrinin işçiləri isə maliyyə resusrlarına çıxış imkanı əldə edirlər. Bu qurumun yaradılmasında dövlətin dəstəyi ilə yanaşı qanunvericilikdə zəruri dəyişikliklərin aparılması mütləqdir.

Müasir mərhələdə Azərbaycanda təhsilin inkişaf etdirilməsi istiqamətində əsaslı islahatlar aparılmaqdadır. Modern standartların və dünya praktikasının tətbiqi uğurla həyata keçirilir. Azərbaycan prezidenti cənab İlham Əliyevin bütün sahələrlə yanaşı təhsil istiqamətində də apardığı məqsədyönlü siyasəti sabahın avanqardı olan gəncliyin sağlam sütunlar üzərində yetişməsini təmin edir. Müasir tələblərə cavab verən yeni tədris müəssisələrinin yaradılması, ali və orta təhsil ocaqlarının maddi-texniki bazasının yaxşılaşdırılması, 3200-dən çox məktəbin tikilməsi, 100 mindən çox tələbənin taqaüdünün əhəmiyyətli dərəcədə artması və digər bu kimi addımlar qazanılmış uğurun göstəriciləridir.

Bununla yanaşı ölkəmizdə mövcud şəraitdə təhsil sahəsində bəzi əlavə təkliflərin reallaşdırılması da labüddür.

**Qiyabi təhsil sisteminə baxış**

Məlum olduğu kimi, artıq uzun illərdir ki, Azərbaycanda əyani təhsil ilə bərabər, həm də qiyabi təhsil modeli tətbiq olunur. Bu təhsil formasının tarixi ötən əsrin ortalarından başlayır. Mahiyyət etibarilə istehsalatdan ayrılmamaq şərti ilə təhsil almağı şərtləndirən bu metod müasir dövrdə öz spesifik effektini qoruyub saxlaya bilmir. Araşdırmalar da göstərir ki, qiyabi təhsil sistemi dünyada sadəcə iki ölkədə - Azərbaycanda və Rusiyada tətbiq olunmaqdadır. Beynəlxalq təhsil reytinqlərinin ön sıralarında yer alan dövlətlərdə isə bu, daha təkmilləşdirilmiş formada distant təhsil, məsafədən təhsil və ya açıq öyrətim şəklində həyata keçirilir. Bu distant təhsil modeli mahiyyət etibarilə tələbəyə bir növ müstəqil hazırlaşmaq imkanı verir. Belə ki, standart əyani təhsil modelindən fərqli olaraq distant təhsil formasında tələbə mütəmadi olaraq ali məktəbə getmir. Tədris-metodiki materiallarını elektron şəkildə əldə edir və sahəsi üzrə biliklərə müstəqil şəkildə yiyələnir. Sonda isə sadəcə ümumi imtahanlar mərkəzləşdirilmiş şəkildə keçirilir və yalnız o zaman tələbənin real iştirakı tələb olunur.

Hesab edirəm ki, dünya təcrübəsində uğurla həyata keçirilən bu müasir

modellərin Azərbaycan təhsil sistemində də tətbiq olunması ümumi tədrisin qlobal inkişafına yol açmaqla yanaşı, həm də maarifləndirmənin daha geniş trayektoriyasını əhatə etməsinə səbəb olacaqdır.

**İdarəetmə sisteminə yanaşma**

Məlumdur ki, hər bir müəssisənin idarə edilməsi inzibati əsasların tələbləri ilə həyata keçirilir. İnzibati idarəetmə forması, müəssisənin aid olduğu sahədən asılı olmayaraq müasir funksional perimetrlərin və innovativ parametrlərin tətbiqini, qüsursuz fəaliyyət spektrini təmin edir. Azərbaycan təhsil sistemində, xüsusilə də özəl tədris müəssisələrində rəhbər heyətin menecment və müasir idarəetmə mexanizmlərinə bələd olan **peşəkar və müasir kadrlardan təşkil olunması (müsabiqə yolu ilə seçilməsi)** hər bir halda tərəqqini sürətləndirə bilər. Çünki müasir dövrün idarəetmə mexanizmini və menecmenti bilən mütəxəssislər tərəfindən qurulması bu sahədə də yaradıcı elementlərin daha tez və daha geniş arealda parlamasına səbəb ola bilər. Bu da təhsildə idarəetmə institutu ilə yanaşı, həm də elmin proporsional inkişafına təkan verəcəkdir.

Müstəqilliyimizin ilk illərindən təhsil sistemində özünü göstərən yeniliklərdən biri də qeyri-dövlət təhsil müəssisələrinin, xüsusən də özəl tədris ocaqlarının yaranmasıdır. O da məlumdur ki, bu gün özəl lisey-məktəblərin fəaliyyəti xüsusi razılıq (lisenziya) əsasında təşkil olunur. Bu da müxtəlif hallarda özəl sahibkarlıq funksiyalarını məhdudlaşdırır. Hesab edirəm ki, təhsil sahəsində xüsusi lisenziyalaşdırmanın aradan qaldırılması Azərbaycanın tədris sferasının yeni inkişaf mərhələsinə qədəm qoymasına, dövlət və özəl təhsil-tədris sahəsində rəqabət mühitinin sağlamlaşdırılmasına, şəffaflığın təmin olunmasına və tədrisin keyfiyyətinin artırılmasına imkan verəcəkdir.

Orta və tam orta ümumtəhsil müəssisələrində rəhbər işçiləri seçərkən keyfiyyətin yüksəldilməsi və şəffaflığın təmin olunması məqsədilə bunun **müsabiqə yolu ilə həyata keçirilməsi** də məqsədəuyğun hesab oluna bilər. Çünki hər bir müəssisədə keyfiyyətli xidmətin təmin edilməsi, gələcək perspektivlərin daha operativ əldə olunması rəhbər faktoru ilə birbaşa bağlıdır. Xüsusilə də mövzu təhsildirsə, burada hər bir seçim və təyinat gələcək qarşısında önəmli yer tutur.

**Təhsil işçilərinə və tələbələrə kreditə çıxış imkanlarının sadələşdirilməsinə baxış**

Məlumdur ki, müasir dövrün şərtlərinə uyğun olaraq Azərbaycanda da **təhsil işçiləri müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda** azaddırlar. Bu da reallıqdır ki, azad sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və inkişaf etdirilməsi istiqamətində ölkə rəhbəri səviyyəsində mütərəqqi addımlar atılmış, bununla bağlı yardım fondu yaradılmışdır. Hesab edirəm ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan təhsil işçilərinə **kredit xəttinin açılması (güzəştli kreditlərin verilməsi)** dövlət başçısının islahatçı lider kimi təşəbbüsünə dəstək

olacaq, ölkədə sahibkarlıq subyektləri ilə yanaşı, ümumi inkişafın konturlarını daha da genişləndirəcəkdir.

Bu dövrün əsas xüsusiyyətlərindən biri təhsil sisteminin inkişafına ayrılan vəsaitlərin ildən-ilə artırılmasıdır. Bu isə təhsilin dövlət siyasətinin əsas prioritetlərindən biri olması ilə bağlıdır. Bu istiqamətdə irəli sürülən təkliflər isə dövrün təhsil sahəsini daha da stimullaşdıra bilər.

Bu təkliflərdən biri də, təshil müəssisələrindəki **tələbələrə, magistrlara və doktorantlara kredit xəttinin açılmasıdır**. Hesab edirəm ki, bu imkanların reallaşdırılması sayəsində tələbələrin, magistr və doktorantların maddi rifah halı daha da yaxşılaşacaq, mövcud imkanları genişlənəcək və mənimsəməkdə olduqları peşə təhsili istiqamətində daha inamlı addımlar atmalarına təminat verəcəkdir. Bu istiqamətdə müvafiq qurumlar tərəfindən yaxın gələcəkdə məsələnin hərtərəfli şəkildə müzakirə edilib, hüquqi rəsmiləşdirmə formasında icrasının təmin edilməsi elm qarşısında növbəti uğur fəzaları aça bilər.

*Tələbə kreditləri ali təhsilə tələbatı artırır, onu daha əlverişli edir və təhsildə meydana gələ biləcək maliyyə çətinliklərini aradan qaldırmağa kömək edir. Bu tələbələrə daha yaxşı təhsil almaq üçün stimul verir ki, təhsillərini başa çatdırdıqdan sonra borclarını ödəyə bilsinlər* (1,139).

Araşdırmalar göstərir ki, ölkəmizdə **ödənişli əsaslarla təhsil alan tələbələrin** böyük əksəriyyəti təhsil haqlarının vaxtında ödənilməsində çətinlik çəkirlər. Bu səbəbdən həqiqətən də tələbələr təhsili davam etdirmək imkanından məhrum olurlar və ya bu istiqamətdə çox ciddi maneələrlə rastlaşırlar. Çıxış yolu, təhsil haqlarının gecikdirilmədən ödənilməsi üçün ödənişli əsaslarla təhsil alan tələbələrin bank-kredit imkanlarından istifadəsini optimallaşdırmaqdır. Belə ki, bu günkü banklar ölkəmizdə tələbə kontingentinin potensial imkanlarını nəzərə alaraq, **bank-tələbə əməkdaşlıq formatının** qurulmasını dəstəkləməli, tələbələrə kreditə çıxış imkanlarını sadələşdirməli və bu imkanın reallaşdırmasına şərait yaratmalıdır.

*Ali təhsilin maliyyələşdirilməsində ən mühüm hadisə təhsil kreditlərin verilməsidir. Kredit təşkilatları tələbələrə və ya onların valideynlərinə kreditləri adi şərtlərlə və ya dövlət zəmanəti ilə verə bilərlər. Son illərdə kreditləşmənin yeni forması kimi kreditlərin universitetlərin özləri tərəfindən verilməsidir* (2, 43).

Ölkəmizdə 2015-ci ildə qeydiyyata alınmış “Maarifçi" Tələbə Kredit Fondu Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələri tərəfindən təsis edilmişdir. Fondun əsas məqsədi aztəminatlı ailələrdən olan tələbələrə kreditlərin verilməsi ilə əlaqədər onlara təhsil almaqda bərabər imkanların yaradılmasıdır.

“Maarifçı” TKF-a 01.02-15.03 2017-ci il tarixində müraciət edən tələbələrin yerlərinin sayı 82, müraciətlərin sayı 36 nəfər, uyğun görülüb 30 nəfər, boş yerlərin sayı isə 52 nəfər təşkil etmişdir.

“Maarifçı” TKF-a 01.02-15.03 2018-ci il tarixində müraciət edən tələbələrin yerlərinin sayı 40, müraciətlərin sayı 33 nəfər, uyğun görülüb 23

nəfər, boş yerlərin sayı isə 19 nəfər təşkil etmişdir. Araşdırmalar göstərir ki, təhsil kreditlərinin təbliğ edilməsinə və populyarlaşması işinə böyük ehtiyac var, çünki ali təhsil müəssisələrində təhsil alan tələbələrin potensialı buna əsas yaradır. Tələbələr arasında aparılan sorğuda 52 nəfərdən 12 nəfərinin “Maarifçı” TKF haqqında məlumatlı olduqları, 40 nəfərin məlumatlı olmadıqları və 52 nəfərdən (100%) heç kimin fonda müraciət etmədiyi müəyyən olundu.

Qeyd edək ki, təhsil sisteminin inkişafına ayrılan vəsaitlərin ildən ilə artmasına baxmayaraq, tələbələrə verilən kreditin həcmi ən aşağı səviyyədədir. Bu onu göstərir ki, təhsil kreditlərinə çıxış imkanları sadələşdirilməli, tələbə kontingenti maliyyə çətinliyini aradan qaldıraraq, daha yaxşı təhsil ala bilsin.

Maliyyə sektorunun inkişafı iqtisadi şaxələnmə, modernizasiya, əhalinin sosial rifahının yüksəldilməsi, inklüziv cəmiyyətin formalaşdırılması üçün zəruri şərtdir.

Maliyyə vasitəçiliyinin zəif inkişafı, maliyyə dərinliyinin aşağı olması və investisiyalardakı azalma müəssisələrin effektiv fəaliyyəti və bütövlükdə iqtisadi artım perspektivləri üçün başlıca məhdudiyyətdir.

Statistik ümumiləşdirmə ilə desək bu da reallıqdır ki, bankların aktiv kredit əməliyyatları azalmaqdadır. Bank portfelində bu xidmət növünün kifayət qədər məhdud olması qənaətinə gəlmək olar.

**Qrafik 1**

**Bank kreditlərinin həcmi,mln. manat**




**Mənbə**: AR Mərkəzi Bankı.Statistik bülleteni 09/2018

Qrafikdən göründüyü kimi bank kreditlərinin həcmi 2015-2017-ci illər ərzində 9.973 mlrd manat azalmışdır. Kreditlərin azalması fonunda banklar kredit portfelinin diversifikasiyasına baxmalı, təhsil sisteminin potensial imkanlarını nəzərə alaraq bu sahəyə münasibətini dəyişməlidir. Çünki son

statistik göstəricilərə görə, hazırda ölkənin fəaliyyət göstərən 51 (40 dövlət, 11 özəl) ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı 171 min 104 nəfər, bakalavriat səviyyəsində 157 min 662 tələbə, magistratura səviyyəsində isə 13 min 442 tələbə təhsil alır. Bu tədris ocaqlarında dərs deyən professor-müəllim heyətinin sayı isə 14 min 569 nəfərdir (3). Belə bir potensial, yuxarıda qeyd etdiyimiz kimi **"təhsil bankları"**, yaxud **"təhsil fondları"nın** yaradılmasını nəinki zəruri edir, həm də tələb edir.

***"Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun."*** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev bu diskursiv fikirlər ilə ölkədə sağlam, şəffaf, müasir və innovativ təhsil sisteminin qurulmasına və davamlı inkişafına səsləyir. Bütün bu mütərəqqi fikirlərin fonunda qeyd edim ki, modern tədris mütəxəssisi hər cür yeniliyə və fikir plüralizminə açıq olmalıdır. Müasir təfəkkürlü müəllim, özünü davamlı inkişaf etdirməkdə maraqlı olmalı və tələbələrə də vaxt ayırmağı bacarmalıdır. Dərs zamanının məhsuldar istifadə edilməsi tələbələr tərəfindən təhsilə marağın artmasını təmin edəcəkdir.

Ölkə Prezidenti İlham Əliyev 25 aprel 2019-cu ildə Pekində keçirilən 2-ci "**Bir kəmər, bir yol"** Beynəlxalq Əməkdaşlıq Forumunda deyib: "Əsas hədəfimiz *iqtisadiyyatımızı şaxələndirmək*, insan kapitalına investisiya yatırmaq və inkişaf üçün dayanıqlı imkanlar yaratmaqdır".

Qeyd etdiyim məsələlərin məntiqi davamı olaraq ali təhsil ocaqlarında çalışan professor-müəllim heyəti üçün **kredit xəttinin açılması və güzəştli kreditlərin verilməsi** hər bir halda uğurlu addım ola bilər. Belə olan halda onların maddi təminatı sırf məvacib asılılığından azad olub, daha rahat şəkildə ehtiyaclarını ödəmələrinə şərait yaradar. Dövlət və özəl bank sferasında əldə olunmuş yeniliklərdən, ölkənin avanqardı sayılan elm-təhsil işçilərinin imtiyazlı şəkildə istifadə edə bilməsi, bu sahədə çalışan hər kəsin arzusudur.

**Təhsildə qadın faktoru**

Qadın əməyi cəmiyyətin bütün sahələri üçün önəmli və dəyərli faktorlardandır. Bu uğurlu məqam ölkədə hökm sürən mütərəqqi gender bərabərliyi ideyasının nəticəsidir. Eləcə də təhsil sistemində qadınlar boyük hərəkətverici qüvvədir. Tədris formalarının müxtəlif istiqamətlərində və ümumi inkişafda qadınların əməyi danılmaz, inkar olunmazdır. Bütün bu sistemli ardıcıllığa dayanaraq:

- *Qadın müəllimlərə xüsusi güzəştli kreditlərin verilməsi;*
- *Ali məktəblərin müəllim kollektivinin maraq və motivasiyasının artırılması məqsədilə təhsil ocağının nəzdində təsərrüfat hesablı xüsusi fondların yaradılması;*

və digər bu kimi xüsusi maddi əhəmiyyətli məqamların pilləli şəkildə uyğun-

laşması tədris müəssisələrində çalışanların fəaliyyətinin stimullaşdırılmasına adekvatdır. Çünki Ulu Öndər Heydər Əliyev demişdir ki, ***"Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır."***

Təklif ardıcıllığında onu da qeyd etmək lazımdır ki, pedaqoji təhsil verən ali tədris ocaqlarında yeni yetişən kadrların praktiki keyfiyyələtlərinin inkişaf etdirilməsi məqsədilə tədris-təcrübə proqramlarının tətbiq olunması və ya bununla müəllimlərin maarifləndirilməsi və inkişafı ilə bağlı **tədris-metodik qurumlarının yaradılması** (reginonlar da nəzərə alınmaqla) daha önəmli və labüddür.

Təhsil işçilərinin maddi rifahının yüksəldilməsi və əmək fəaliyyətinin stimullaşdırılması üçün dövlət tərəfindən mütəmadi olaraq əhəmiyyətli addımlar atılır. Lakin bu sahədə müəyyən problemlər hələ də mövcuddur. Problemlərin vaxtında həll edilməsi ali təhsil sferasında keyfiyyət göstəricilərinin say və keyfiyyətinin artmasına, elmi sahədə ciddi nailiyyətlərin əldə olunmasına gətirib çıxaracaq, bu isə öz növbəsində ölkədə insan kapitalının formalaşdırılması prosesinin davamlı xarakter alması ilə nəticələnəcək.

**Lizinq xidmətlər bazarında bank lizinqi və təhsil**

Lizinq maliyyə xidmətlərinin xüsusi forması kimi əhəmiyyət kəsb etməkdədir.

Beynəlxalq təcrübə sübut edir ki, lizinq təkcə yeni texnologiyaların tətbiqi, istehsal potensialının keyfiyyətcə təkmilləşdirilməsi və artırılmasının vacib kanalı deyil, *həm də sahibkarlığın maddi cəhətdən dəstəklənməsi və stimullaşdırılması, sosial gərginliyin azaldılması, əlavə iş yerlərinin yaradılması, kapital qoyuluşlarının cəlb edilməsi və s. üçün təsirli vasitədir.*

Bazar münasibətlərinin formalaşması, ölkə iqtisadiyyatında baş verən dəyişikliklər əsas vəsaitlərin yenilənməsində və əvəz edilməsində elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqini, istehsalın texniki bazasının yeni metodlarla təzələnməsini, həmçinin maliyyə resurslarından daha rasional istifadəni, əlverişli investisiya və sahibkarlıq mühitinin yaradılmasını zəruri edir. Beynəlxalq təcrübə göstərir ki, belə qeyri-ənənəvi və kifayət qədər səmərəli metodlardan biri lizinqdir. Beynəlxalq səviyyədə tanınmış bu universal investisiya aləti dövlət maliyyə vəsaitlərinin məlum məhdudiyyəti fonunda iqtisadiyyatın inkişaf etdirilməsi və yerli sahibkarlığın dəstəklənməsi üçün böyük həcmdə xüsusi resursları əlavə olaraq cəlb etməyə imkan verir. Məhz lizinq müəssisəyə kəskin maliyyə gərginliyi olmadan əsas fondlarını sürətlə modernləşdirməyə və yüksək keyfiyyətli, müasir tələblərə uyğun məhsul buraxmağa imkan verir.

"Lizinq" termini ingilis dilində olan "to lease" felindən yaranmış və "icarəyə götürmək", "əmlakı icarəyə götürmək və vermək" deməkdir. Baxmayaraq ki, iqtisadi-hüquq münasibətləri, lizinqlə analoji əməliyyatlar və sövdələşmələr hələ qədim dövrlərdən (təxminən b.e.ə. 1760-cı ildən) məlum olmuşdur, sözün özünün işgüzar üslubda istifadəsinə XIX əsrin sonundan

başlanmışdır (4, 110).

Kredit münasibətləri obyekti olaraq əsas kapitalın elementləri (əmlak), subyekt olaraq isə lizinq verən (kreditor qismində) və lizinq alan (borcalan qismində) çıxış edir.

İqtisadi kateqoriya kimi lizinqin xüsusiyyətləri özünü, ilkin olaraq əmlak münasibətlərində göstərir. O, əmlakdan istifadə hüququnun onlara olan mülkiyyət hüququndan ayrılmasından ibarətdir: əgər ikincisi lizinq verəndə saxlanırsa, birincisi lizinq alana keçir ki, buna görə də o, müəyyənləşdirilmiş muzd (lizinq ödəmələri) ödəyir. Başqa sözlə, mülkiyyət hüququnun parçalanması baş verir.

Qeyd olunanları nəzərə alaraq, *lizinqin tərifini* aşağıdakı kimi vermək olar: lizinq *dedikdə*, əmlakın mülkiyyətə alınması və onun sonradan uzunmüddətli icarəyə verilməsi ilə bağlı bütün kompleks əmlak və maliyyə münasibətləri başa düşülür (5, 45). Ümumiyyətlə, lizinqin belə bir tərifi onun mahiyyətini açmaq üçün fundamental hesab edilə bilər. Bu tərifdə lizinqin dörd xüsusiyyəti özünü göstərir: əmlak-maliyyə münasibətləri; investisiya əməliyyatının kreditləşməsi; lizinq predmetinin alınması; maddi aktivin icarəyə verilməsi.

Lizinq müasir dövrdə bazar infrastrukturunun vacib elementinə çevrilmişdir (6, 337).

Müasir lizinq xidmətləri bazarı lizinqin çoxsaylı növləri ilə xarakterizə olunur. İqtisadiyyat və hüquq ədəbiyyatı səhifələrində lizinqin müxtəlif növlərinin adı çəkilir.

Bir çox ədəbiyyat mənbələrində lizinq müxtəlif cür təsnifləşdirilsə də, ümumilikdə “operativ” və “maliyyə” lizinqi üzrə təsnifat daha geniş yayılmışdır.

Maliyyə lizinqi ölkələr üzrə fərqli mahiyyətə malikdir. Maliyyə lizinqinə aid ümumi ortaq təsnifat kriteriyası lizinq öhdəliklərinin icrası zamanı meydana çıxan mülkiyyət hüququnun ötürülməsi ola bilər.

Öz xərclərinin ödənilməsinə və amortizasiya şərtlərinə görə maliyyə lizinqi lizinqin müstəqil növü kimi lizinq şirkətlərinin praktikasında geniş tətbiq edilir.

**Maliyyə lizinqinə** (*financial or finance lease*) görə – lizinq müqaviləsinin fəaliyyəti dövründə lizinqalan (icarəyə götürən) tərəfindən lizinqverənə (icarəyə verənə) əmlakın tam dəyərinin (tam amortizasiyasının) ödənilməsi həyata keçirilir.

Başqa sözlə, **maliyyə lizinqi** – fəaliyyət göstərdiyi müddət ərzində avadanlığın amortizasiyasının tam dəyərinin və ya əsas hissəsinin ödənilməsini, əlavə xərcləri və lizinq verənin mənfəətini nəzərdə tutan tərəflər arasında uzunmüddətli bir razılaşmadır.

Bu prosesdə əmlakın istifadəsi ilə əlaqədar yarana bilən mənəvi və fiziki köhnəlmə riski lizinq alanda qalır. Buna görə də lizinq alan lizinq müqaviləsinin fəaliyyəti müddətində əmlakı nominal, balans və ya bazar dəyəri ilə almaq hüququna malikdir.

Maliyyə lizinqi böyük kapital qoyuluşları tələb edir və banklarla sıx

əməkdaşlıq şəraitində həyata keçirilir. Bir sıra ölkələrdə banklara yalnız maliyyə lizinqi ilə məşğul olmağa icazə verilir.

**Sxem 1**

**Maliyyə lizinqinin sxemi** (7)




Maliyyə lizinqi bir sıra əlamətlərinə görə fərqlənir.

*Birinci*, maliyyə lizinqində üç subyekt iştirak edir: lizinq əmlakını hazırlayan (satıcı); lizinq verən; lizinq alan.

*İkinci*, maliyyə lizinqi uzun müddətlidir. Belə ki, lizinqin bu növü bir qayda olaraq 5 ildən 10 ilə kimi, bəzi hallarda isə 10 ildən çox olan müddətə həyata keçirilir. Maliyyə lizinqinin müddəti adətən əmlakın normativ xidmət müddətinə yaxın olur və ya həmin müddətlər üst-üstə düşür.

*Üçüncü*, maliyyə lizinqinin obyekti bir qayda olaraq bahalı əmlak olması ilə xarakterizə edilir.

*Dördüncü*, maliyyə lizinqi zamanı lizinq əmlakının yerləşdirilməsi, sazlanması, quraşdırılması, cari təmiri və ona texniki xidmət göstərilməsi kimi məsələləri istehsalçı həll edir.

*Beşinci*, lizinq obyekti olan əmlakı və istehsalçını (satıcını) seçmək hüququ lizinq alana məxsusdur. Başqa sözlə, lizinq alan ona lazım olan əmlakı göstərməklə istehsalçını (satıcını) seçir.

*Altıncı*, mühüm fərqləndirici cəhəti odur ki, əsas lizinq müddəti ərzində maliyyə lizinq müqaviləsini ləğv etmək və ya pozmaq olmaz. Əsas lizinq müddəti dedikdə, lizinq verənin çəkdiyi xərclərin əvəzinin ödənilməsi üçün lazım olan müddət başa düşülür. Lizinq ödənişləri də bu müddət əsasında hesablanır və tərəflər lizinq müqaviləsi müddəti ərzində qarşılıqlı hüquqi statusa malik olur.

Müddət başa çatdıqda lizinqalan lizinq əmlakını lizinq verənə qaytarmalı və ya yeni lizinq müqaviləsi bağlamalı və ya lizinq əmlakını qalıq dəyəri

əsasında satın almalıdır. Qeyd etdiyimiz kimi maliyyə lizinq müqaviləsinin müddəti təxminən lizinq əmlakının normativ xidmət müddətinə bərabərdir. Buna görə maliyyə lizinq müqaviləsinin qüvvədə qalma müddəti başa çatdıqda, lizinq əmlakı lizinq alanın mülkiyyətinə verilə bilər.

Qeyd edək ki, maliyyə lizinqi iqtisadi baxımdan (iqtisadi əlamətlərə görə) uzun müddətli bank kreditləşdirməsinə oxşayır. Buna görə də *maliyyə lizinqi bazarında banklar və maliyyə şirkətləri*, habelə banklarla sıx əlaqəsi olan *ixtisaslaşdırılmış lizinq şirkətləri* vacib rol oynayır.

Maliyyə lizinqi xüsusən də banklarla əməkdaşlıq şəraitində həyata keçirilir. Ona görə ki, lizinqin bu növü böyük məbləğdə kapital qoyuluşunu tələb edir.

Maliyyə lizinqinə həm də eyni zamanda *investisiya lizinqi* də deyilir (8,449). Belə ki, maliyyə lizinqi müvəqqəti olaraq sərbəst qalmış və ya cəlb edilmiş maliyyə vəsaitinin investisiya qoyulması deməkdir (9, 21).

Maliyyə lizinqi barəsində Azərbaycan Respublikasının Mülki Məcəlləsində geniş şərh olunaraq qeyd olunur ki, lizinq obyektinə mülkiyyət hüququ, bütün lizinq ödənişlərinin verilməsi ilə bağlı öhdəliklər yerinə yetirilərsə, lizinq müqaviləsinin müddəti başa çatmazdan əvvəl lizinq alana keçir. Bu, dispozitiv normadır. Belə ki, maliyyə lizinq müqaviləsində ayrı qayda da nəzərdə tutula bilər. Məsələn, müqavilədə nəzərdə tutula bilər ki, lizinq əmlakı sahibinə (lizinq verənə) qaytarılsın.

Maliyyə lizinqinin *predmeti kimi* yüksək likvidli əmlak çıxış edir. Bu da öz növbəsində riskin minimallaşdırılmasına səbəb olur.

Bank xidmətləri bazarının dərinləşməsinə paralel olaraq lizinq xidmətləri də genişlənmişdir. Lizinq dolayı yolla kredit verilməsinin bir növü (əmtəə formasında kredit) olduğu üçün o, həm də *kommersiya bankları* tərəfindən həyata keçirilir. Belə ki, banklar maşın və avadanlıq, nəqliyyat vasitələri və istehsal təyinatlı alətlərin uzunmüddətli icarəsini maliyyələşdirir. Bu zaman lizinqalan ilə bank arasında lizinq müqaviləsi bağlanılır. Lizinq prosesində banklar avadanlıq əldə etmək üçün müəssisəyə birbaşa kredit vermir və özü istehsalçıdan həmin avadanlığı əldə etməklə onu lizinqalana lizinq verir. Bu prosesdə *mülkiyyət hüququ* lizinq müddəti başa çatana qədər bankda qalır. Eyni zamanda bank kredit faizi deyil, lizinqə görə ödəniş formasında gəlir əldə edir. Lizinqalan üçün isə lizinq kapital qoyuluşunun maliyyələşdirilməsinin spesifik forması kimi çıxış edir.

Bu gün **təhsil işçiləri** də kreditləşmənin alternativ forması olan lizinq sövdələşməsindən yararlana bilərlər. Çünki lizinq sövdələşməsində təminat olaraq *lizinqin predmeti* əsas götürülür.

*Bank lizinqi* zamanı əmlak sahibinin (sahibkarın) ondan istifadə hüququ istifadəçiyə (lizinqalana) keçir və *spesifik maliyyələşmə sistemi vasitəsilə maliyyələşir*.

Nəticədə bank lizinqi standart və ya unikal avadanlığın, həmçinin iqtisadiyyatın müxtəlif sahələri üçün texnoloji avadanlıqların əldə edilməsi

zamanı spesifik maliyyələşmə forması kimi çıxış edir.

Ölkə Prezidentinin 6 dekabr 2016-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Strateji Yol Xəritəsinə əsasən ÜDM-da lizinq əməliyyatlarının payı 2020-ci ilə 2%, 2025-ci ilə isə 4% proqnozlaşdırılır.

Təhsil sistemində mövcud problemlərin həlli üçün aşağıdakı təkliflərin nəzərə alınması müsbət nəticələr verə bilər:

- *Təhsil bazasının imkanlarını nəzərə alaraq **“təhsil bankları” və “təhsil fondlarının”** yaradılması;*
- *Təhsil müəssisələri işçilərinin maliyyə vasitəçiliyinə çıxış imkanlarını yaxşılaşdırmaq məqsədilə maarifləndirmə işinin həyata keçirilməsi;*
- *Ali təhsil müəssisələrində “Bank lizinqi” üzrə fənnin tədrisinin təşkili;*
- *Ali təhsil müəssisələri işçilərinin ölkə daxilində və xaricdə müvafiq standartlara uyğun olaraq seminarlarda, simpoziumlarda, konfranslarda iştirakının təmin edilməsi;*
- *Qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq dəyişikliklərin aparılması;*
- *Gənc müəllimlərin maarifləndirilməsi və inkişafı ilə bağlı **tədris-metodik qurumlarının yaradılması** (reginonlar da nəzərə alınmaqla);*
- *Ölkədə bank-maliyyə sektorun imkanlarından istifadə etməklə ölkənin ali və orta ixtisas məktəblərində bank işi və lizinqə aid marifləndirmə xarakterli təlimlərin keçirilməsi və mühazirələrin təşkil edilməsi;*
- *Qiyabi təhsil bölməsində distant təhsil modelinin tətbiq edilməsi;*
- *Sahibkarlıq fəaliyyəti ilə məşğul olan təhsil işçilərinə kredit xəttinin açılması (güzəştli kreditlərin verilməsi);*

Beləliklə, Azərbaycanda təhsil sahəsində mövcud problemlərin həll edilməsi məqsədilə idarəetmə sisteminin daha səmərəli təşkilini, yuxarıda göstərilən və qeyd olunan təkliflərin reallaşdırılmasını zəruri hesab edirəm. Təhsil sistemində özəl ali təhsil müəssisələrinin maliyyələşdirilməsi üçün beynəlxalq təcrübə nəzərə alınmaqla prioritet istiqamətlər və vəsaitlər axtarılmalıdır.

Araşdırmalar göstərir ki, ölkədə bütövlükdə lizinq xidmətləri bazarının, o cümlədən bank lizinq bazarının inkişafı spesifik xarakterə malikdir. Lizinq bazarı banklar üçün geniş imkanlar açır. Bu, həm banklarda innovativ məhsul və xidmətlərin inkişafı, həm də iqtisadiyyatın özünün effektiv əsaslı inkişaf mərhələsinə keçməsi üçün zəruridir. İqtisadiyyatın innovasiya məhsullarına olan tələbi lizinq vasitəsilə ödənilə bilər ki, bu da ilkin mərhələdə banklar vasitəsilə maliyyələşdirilməlidir.

## ƏDƏBİYYAT

1. Образовательный кредит. И.А.Прахов, Е.В.Савицкая. Экономика образования. № 2, М., 2008, с.139
2. Системы финансирования высшего образования в зарубежных странах. Учеб.пособие. М.: РУДН, 2008. Г.А.Лукичев, В.М.Филиппов. с.43
3. Dövlət Statistika komitəsi. Statistika bülleteni 1995/2016, https://www.stat.gov.az/source/education/
4. Хойер В. Как делать бизнес в Европе. М.: Прогресс, 1990, s. 110; Газман В.Д. Лизинг: теория, практика, комментарии. Москва: Фонд правовая культура, 1997, s. 10-21; Кабатова Е.В. Лизинг: правовое регулирование, практика. М.: ИНФРА-М, 1998. s. 12-18
5. Zeynalov Z. Azərbaycanın bank xidmətləri bazarında lizinqin inkişafı məsələləri. Monoqrafiya, Bakı, 2018, s.45
6. Основы банковской деятельности/Под ред. К.Р.Тагирбекова. М., 2003, с.337
7. "Банковское дело": учебник / О.И.Лаврушин, И.Д. Мамонова, Н.И. Валенцева и др. Под ред. засл.деят.науки РФ, д-ра экон.наук, проф. О.И.Лаврушина. 8-е изд.стер. М.: Кнорус, 2009.
8. Тынель А., Функ Я., Хвалей В. Курс международного торгового права. Мн., 2000, с. 449
9. Газман В.Д. Лизинг. М., 1997, с.21
10. Təhsil xərcləri: şəffaflıq və səmərəliliyin gücləndirilməsi istiqamətləri. R. Həsənov, N. İbrahimova. Bakı, 2013. http://cesd.az/new/?p=7712&lang=az
11. Azərbaycan Respublikasının Mülki Məcəlləsi 28 dekabr 1999-cu il tarixli 779 nömrəli Qanunu ilə təsdiq edilmidir.
12. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı üçün Strateji Yol Xəritəsi". Bakı, 2016, s.53-54
13. www.prezident.az
14. AR Mərkəzi Bankı www.cbar.az
15. AR Mərkəzi Bankı.Statistik bülleteni 09/2018
16. http://www.maarifci.az/tehsil_kreditleri/21-aciq-elan-sessiyalari.html

## НОВЫЙ ВЗГЛЯД НА ФИНАНСИРОВАНИЕ ОБРАЗОВАНИЯ

З.Г.ЗЕЙНАЛОВ

### РЕЗЮМЕ

Создание благоприятных инвестиционных и кредитных возможностей для человеческого капитала в условиях рыночных отношений является требованием современности. Финансирование высшего образования является наиболее важным событием в предоставлении образовательных кредитов.

Нынешняя ситуация заключается в оптимизации использования возможностей банковского кредитования для студентов, обучающихся на платной основе для оплаты стоимости обучения. Таким образом, современные банки должны поддержать создание формата сотрудничества между банком и студентами с учетом потенциала студенческого контингента в нашей стране, чтобы облегчить студентам и профессорско-преподавательскому составу доступ к кредитам и созданию условий для реализации этой возможности.

**Ключевые слова:** система образования, учитель, студент, образовательный кредит, банковский лизинг

# NEW VIEW ON FINANCING OF EDUCATION

**Z.H.ZEYNALOV**

**SUMMARY**

Creating favourable investment and loan opportunities for human capital in conditions of development of market relations is a requirement of modern times. The most important event in funding higher education is the provision of educational loans.

In the current situation, it is optimizing the use of bank-loan opportunities for students studying on a paid basis to pay tuition fees. Thus, today's banks should support the establishment of **bank-student cooperation format** facilitate access to loans for students and teaching staff and enable the realization of this opportunity, taking into account the potential opportunities of the student contingent in our country.

**Key words**: educational system, teacher, student, educational loan, loan, lease

**UOT 338.48**

# TURİZM İNFRASTRUKTURUNUN KOMPLEKS İNKİŞAFININ NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

**A.H.AXUNDOVA**
***Bakı Dövlət Universiteti***
***axundova48@hotmail.com***

*Məqalədə turizm infrastrukturunun kompleks inkişafının nəzəri və metodoloji məsələləri müzakirə olunub, bu da turizm resursları ilə əlaqədar olaraq, təminat sisteminin funksiyalarını yerinə yetirir və eyni zamanda, bütün turizm sənayesinin formalaşması üçün müəyyən və əsas şərt olur, regionda turizm sənayesinin sürətləndiricisi rolunu oynayır. Bəziləri turizm infrastrukturunu tez-tez turizm sənayesi, sağlamlıq və istirahət infrastrukturu, maddi-texniki bazası və s. ilə müqayisə edilir. Buna görə, turizm infrastrukturunun anlayışı təhlil edilmiş, əsas xidmət qrupları və obyektləri tədqiq edilmişdir. Və ilk növbədə, nəqliyyat, qonaqpərvərlik, iaşə, əyləncə, səyahət agentlikləri və turoperatorları, kompleks şəkildə inkişaf etdirmək lazımdır, çünki onlar turizm infrastrukturunun əsas elementləri hesab olunur.*

**Açar sözlər:** kompleks inkişaf, turist, turizm sənayesi, infrastruktur, turizm resursları.

Turizm, daha dinamik inkişaf edən və daha yüksək gəlir gətirən sahələrdən olmaqla, əksər ölkələrin iqtisadiyyatında və ümumilikdə dünya iqtisadiyyatında mühüm yer tutur. Gəlirin həcminə görə, artıq on ildən çoxdur ki, turizm, ən yüksək səmərəli sahələrin ilk beşliyinə daxildir. Bu yeganə sahədir ki, XX əsrin fenomeni adlandırılmışdır, çünki, ölkənin iqtisadi, siyasi və mədəni həyatına əhəmiyyətli cərəcədə təsir göstərir. Multiplikativ effektə malik olan bu sahə, sosial-iqtisadi inkişafın katalizatoru rolunu oynayaraq, turizmlə bağlı iqtisadiyyatın müxtəlif sahələrinin inkişafını stimullaşdırır. Eyni zamanda, turizm, millətlərarası əlaqələrin qurulmasına və ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasına təkan verir.

Ümümdünya Turizm Təşkilatının (UNWTO) məlumatlarına əsasən, 2017-ci ildə beynəlxalq turist gəlişlərinin sayı 7% artaraq, ümumilikdə 1 mlrd.-dan çox olmuşdur və dünya üzrə turizmdən əldə edilən gəlirlərin ümumi həcmi 10,4% artaraq, 8,3 trln. ABŞ dollarına çatmışdır.

Müasir dövrdə Azərbaycanda turizm intensif inkişaf edir. Ölkədə turizmin inkişafı üçün təbii, tarixi-mədəni, potensial olmasına baxmayaraq, lakin bu potensiallar tam reallaşmır. Ona görə də, strateji planlaşdırmada, marketinq strategiyasında infrastrukturun təkmilləşdirilməsində ciddi dəyişiklər edilməsi tələb olunur.

Hər bir turizm, eyni zamanda turizm infarastrukturu, milli iqtisadiyyatını harmonik inkişafını təmin edir. M.Porterin rəqabət nəzəriyyəsinə görə, turizm

bazarında rəqabət qabiliyyətinin artmasına təsir edən məhz turist infrastrukturudur.Və eyni zamanda, turizm infrastrukturunun inkişaf səviyyəsi nə qədər yüksək olsa da, daha çox rəqabət üstünlüyü, turist resurslarının unikallığı olur.

Turist infrastrukturu, turizmin ehtiyatları ilə əlaqədar alt sistemin təmin edilməsi funksiyalarını yerinə yetirir, eyni zamanda, bütün turizm sənayesinin formalaşması üçün müəyyən və əsas şərt kimi regionda turizm sənayesinin sürətləndirici rolunu oynayır. Azərbaycanda regional turizm qurulması turizm infrastrukturu ilə sıx əlaqədədir və ya bu sənayenin inkişafına mane olur, ya da ki turizm və istirahət sektorunun inkişafına müsbət təsir göstərir. Eyni zamanda, Azərbaycanın regionlarının əksəriyyəti üçün infrastruktur problemləri turizm xidmətləri bazarında ərazinin rəqabətə davamlılığının azaldılmasının əhəmiyyətli səbəbi olur. Buna görə turizm infrastrukturunun kompleks inkişafının əhəmiyyətini qeyd etmək lazımdır, hansı ki, istənilən regionda əhalinin yaşayış şəraitinin təminatında böyük rol oynayır.

Bəzi turizm infrastrukturu tez-tez turizm sənayesi, sağlamlıq və istirahət infrastrukturu, maddi-texniki bazası və s. ilə müqayisə edilir. Bununla əlaqədar olaraq, iqtisadi ədəbiyyatda "turizm infrastrukturunun" bir çox müxtəlif anlayışları mövcuddur, lakin onların hamısı yalnız əlavə detallarda fərqlənərək bir-birini əsas hissədə praktiki olaraq təkrarlayırlar.

Lakin turizm infrastrukturunun konsepsiyasını müəyyən etmədən əvvəl, Azərbaycan Respublikasının "Turizm haqqında" 27 iyun 1999-cu il tarixli 164 nömrəli Qanununa əsasən qəbul edilmişdir: “turizm - Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri)” [1]. Statistikada, turizm, yaşayış və iş yerlərinin dəyişməsi ilə əlaqəli deyil, əhalinin köçürmə forması kimi qəbul edilir [2, 5].

Beləliklə, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən “turizm infrastrukturu - turizm məhsulu istehsalı təşkilinin kompleksli sistemi və yaxud mehmanxana və digər yerləşdirmə-yerdəyişmə, nəqliyyat vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri və vasitələrinin, tanış olma, idraki, iş-peşə, sağlamlaşdırma, idman və digər təyinatlı obyektlərin, turoperator və turaqent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisə və təşkilatların, həmçinin ekskursiya və bələdçi (bələdçi-tərcüməçi) xidmətləri göstərən təşkilatların məcmusu” deməkdir [1].

Ə.A.Əzizovun sözlərinə görə, turizm infrastrukturunu turizmin təşkili, icarə xidmətləri, istirahət, habelə turizm təşkilatlarının fəaliyyətinə təsir göstərən ictimai, təbii və institusional infrastrukturun birbaşa təmin edilməsi, turizm sənayesinin təşkili kimi başa düşmək lazımdır [3, 124].

İ.V.Zorin və V.A.Kvartalnovın nöqteyi-nəzərindən turizm infrastrukturu, turistlərin həyati fəaliyyətini təmin etmək üçün istifadə olunan sənaye, sosial

və istirahət məqsədləri üçün obyektlər və şəbəkələr kompleksi ilə təmsil olunur [4, 123]. Vinoqradov M.V. və Soldatov P.I. turizm məqsədlərini həyata keçirmək imkanı və bacarığı təmin edən, istehlakçının gəzintisinə nail olmaq üçün müəyyən bir alt sistem kimi turizm kompleksinin infrastrukturunu müəyyənləşdirir [5, 267]. Müəlliflər turizm kompleksinin infrastrukturu turizm fəaliyyətinin inkişafında katalitik rol oynadığını düşünürlər.

A.Ş.Kuşkovun tərifinə əsasən, turizm infrastrukturu - kommunikasiya, mühəndislik və kommunikasiya şəbəkələri, turist resursları, turistik obyektlər, yaşayış və iaşə, ticarət obyektləri, istehlakçı və müalicə profilaktik xidməti, idman qurğuları və digər obyektlərin kompleksidir, turizm sənayesinin inkişafı və turistlərin turist resurslarına normal çıxışı təmin edilməsi və onların turizm məqsədləri üçün lazımlı şəkildə istifadə edilməsi üçün zəruridir [6, 52].

Rusiyalı iqtisadçı Y.Tömnıy turizm bazarı infrastrukturuna, həmçinin kredit kartı sistemi, informasiya texnologiyası, həmkarlar ittifaqı, ictimai və dövlət fondlarını da daxil edir [7, 198].

Mənim fikrimcə, turzm infrastukturu dedkdə, istehsal, sosial və rekreasiya təyinatlı müəssisələrin, idarələrin, obyektlərin və qurğular başa düşülür ki, onların fəaliyyətini səyahət vaxtı insanların tələbatının ödənilməsinə yönəldilmişdir.

Yevreinovun O.B. fikirinə tərəfdaram, hansını ki, turizm infrastrukturunun "üç səviyyəli sistem" olduğu müəyyənləşdirilmişdir (sxem 1).

Alimlərin şərhlərini yekunlaşdıraraq, deyə bilərik ki, turizm infrastrukturu birbaşa əlaqəli maddi obyektlərin, müəssisələrin və sənayenin, səyahət zamanı turistlərin tələbatlarını ödəməyə imkan verən bir sistemdir. Və ilk növbədə, nəqliyyat, qonaqpərvərlik, iaşə, əyləncə, səyahət agentlikləri və turoperatorlar, inteqrasiya olunmuş şəkildə inkişaf etdirilməli, turizm infrastrukturunun əsas elementləri hesab olunur (cədvəl 1).

**Cədvəl 1.1**

**Turizm infrastrukturunun əsas xidmət qrupları və obyektləri**

| **Turist infrastrukturun obyektləri** | **Xidmətlər** |
|---|---|
| 1. Nəqliyyat obyektləri | Yol, dəmir yolu, hava, su, kabel, teleferik, yeraltı |
| 2. Yerləşdirmə obyektləri | Otellər, motellər, sanatoriyalar, mənzillər, istirahət evləri, turizm bazaları |
| 3. Qida obyektləri | Restoranlar, barlar, kafelər, yeməkxanalar, qəlyanaltılar, fast food maddələr |
| 4. Turbiznes obyektləri | Turoperatorları, turfirmalar, ekskursiya büroları, səyahət agentlikləri, tərcüməçilər, ictimai təşkilatlar |
| 5. Əyləncə obyektləri | Kino və konsert zalları, gecə klubları, diskotekalar, teatrlar, muzeylər, istirahət mərkəzləri, istirahət parkları, sərgi salonu, ticarət və əyləncə mərkəzləri, idman obyektləri |

**Qeyd:** cədvəl müəllif tərəfindən turizm infrastrukturunun obyektləri haqqında məlumatlar əsasında tərtib edilmişdir.

Sxem 1

**Turizm infrastrukturunun blok-sxemi**




Turizm infrastrukturu, sosial və iqtisadi inkişafın bir amili olaraq, əslində, dəstək və tənzimləmə işini yerinə yetirir. Onun iştirakı, bir qayda olaraq, milli sənayenin inkişaf səviyyəsini və adambaşına düşən yüksək gəlir səviyyəsini göstərir. İnkişaf edilmiş turizm infrastrukturunun yaradılması kiçik və orta müəssisələrin inkişafı üçün bir şərtdir və onun effektivliyi birbaşa bu infrastrukturun effektivliyindən asılıdır. Turizm sənayesi bir kompleks sektorlararası sistem olaraq, iqtisadiyyatın, təbii mirasın, mədəniyyətin və digər bir çox sahələrin birbaşa və ya dolayısı ilə sistemli və hərtərəfli olduğunu tələb edir.

Turizm infrastrukturunun kompleks inkişafı - turizm fəaliyyətinin genişləndirilməsi məqsədilə dövlətin, yerli və özəl strukturların razılaşdırılmış hərəkətləri əsasında müəyyən bir ərazini kompleks inkişaf etdirmək üçün bir layihədir. Turizm infrastrukturunun hərtərəfli inkişafı proqramı ticarət turistik infrastruktur obyektlərinin (otel, qonaq evləri, istirahət evləri, restoranlar və s.) inkişaf konsepsiyası, şəhər və regional turizm infrastrukturunun inkişafı konsepsiyası (mədəni və tarixi irs obyektləri, mövzu parkları, nəqliyyat və s.

daxil olmaqla əyləncə xidmətləri), çoxsaylı tədbirlərin inkişaf konsepsiyası (yarmarkalar, sərgilər, tamaşalar, festivallar), regional markanın inkişafı konsepsiyasını əhatə edir (turistlərin cəlb edilməsi, turist məhsulunun tanıtımı, reklam şirkəti və s.).

Turizm infrastrukturunun kompleks inkişafı - turist resurslarının istifadəsinin planlaşdırılmasında mühüm mərhələdir. Turist resursu necə cəlbedici olursa olsun, ikinci zəruri komponent inkişaf etmiş bir infrastrukturdur, əsas istehlakçı - turist tərəfindən sərbəst buraxılması üçün lazımi fürsəti yaradır. Turizm infrastrukturu öz resurslarına malikdir: təbii, mədəni, istirahət, sənaye - xidmət müəssisələri, işçilər, eləcə də iqtisadiyyatın digər sahələri ilə əlaqəlidir.

Turizm sənayesi turistlərin tələbatını yalnız kompleksdə qarşılıqlı birbirinə tamamlayıcı sektorlardan ibarətdir. Bu, ən sərfəli, gəlirli və tez ödənilmiş sənayedir. Bu baxımdan turizm infrastrukturunun kompleks inkişafı tələb olunur ki, bu da bütün seqmentlərin harmonik və balanslı inkişafı üçün praktiki tədbirlərin həyata keçirilməsinə, turist resurslarının səmərəli istifadəsinin təmin edilməsinə, eyni zamanda turist xidmətləri istehsalında xüsusi əhəmiyyətə malikdir.

Turizm infrastrukturunun olmaması ölkədə turizm sənayesinin inkişafına böyik maneələr törədir. Bu gün böyük hadisələr üçün ən böyük infrastruktur obyektlərinin qurulması tendensiyası var. Lakin turizm infrastrukturunun inkişafı üçün təkliflər yalnız yeni yaşayış obyektlərinin geniş miqyaslı tikintisi ilə məhdudlaşa bilməz. Buna görə də, müvafiq infrastrukturun – nəqliyyat, rabitə, kommunikasiya, iaşə, otel sektoru, əyləncə, sığorta, təhlükəsizlik, ixtisaslı kadr mövcudluğu və bir çox digərlərin regionda kompleks inkişafının vacibliyini qeyd etmək lazımdır.

Region infrastrukturunun inkişaf etdirilməsinin vacib bir vəzifəsi infrastruktur obyektlərinin keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin qiymətləndirilməsi və onun imkanlarını dünya standartlarına uyğunlaşdırmaqdır. Ekspertlərin fikrincə, turizm sektorunun inkişafı həm iqtisadi, həm də sosial tərəqqiyə əsaslanır. Qısa müddətdə turizm infrastrukturu dünya iqtisadiyyatının ən böyük sektorlarından birinə çevrildi. Onun inkişafına təsir edən amillər arasında aşağıdakıları ayırmaq olar: siyasi, iqtisadi, sosial-demoqrafik, elmi-texniki, mədəni, dünya iqtisadiyyatının bütün sahələrində həyata keçirilən inteqrasiya və qloballaşma prosesləri. Bununla yanaşı, maliyyənin qeyri-sabitliyi, gömrük qanunlarının və iqtisadi tətillərin sərtləşdirilməsi, turizm sənayesinin inkişafına maneələr törədirlər.

İsveçrə, Avstriya, Fransa, Kipr və digər ölkələrdə olduğu kimi, müvafiq infrastruktur ilə Azərbaycanda turizm ölkənin sosial-iqtisadi sistemində milli iqtisadiyyatın tam hüquqlu bir sektoru ola bilər. Azərbaycan üçün turizmin inkişafı, xüsusilə vacibdir, çünki bu sənayenin inkişafı kiçik biznesin fəaliyyət göstərməsi üçün əlverişli bir mühitdir. Bu baxımdan, ölkənin turizm inkişaf strategiyası turizm sənayesi və onun infrastrukturunun müxtəlif komponentləri birləşdirən vahid yanaşma təmin etməlidir.

Turizm infrastrukturu ərazinin sosial və sənaye infrastrukturunun ayrılmaz hissəsidir, belə ki, ictimai infrastruktur turist resurslarının inkişafına, onların artırılmasına və dövlət tərəfindən maliyyələşdirilən infrastrukturun yaradılmasına, turistlərə xidmət göstərən müəssisələrin fəaliyyətini stimullaşdırır [8, 57].

Azərbaycanın ərazilərinin inkişafı üçün sosial-iqtisadi şərait, öz növbəsində, turizm infrastrukturunun inkişafını müəyyənləşdirir. Məntiqi olaraq, turistlərin mənfəətini və ehtiyaclarını təmin etmək üçün, regional və turist infrastrukturunun vahid bir sistemində fəaliyyət göstərməyi lazımdır. Azərbaycanın bir çox bölgələrində yeni əlavə iş yerlərinin yaradılması, regionun səmərəli sosial-iqtisadi inkişafını təmin edən turizm sənayesinin davamlı və mütərəqqi inkişafı olmuşdur.

Turizm infrastrukturunun olmaması ölkədə turizm sənayesinin inkişafına böyik maneələr törədir. Bu gün böyük hadisələr üçün ən böyük infrastruktur obyektlərinin qurulması tendensiyası var. Lakin turizm infrastrukturunun inkişafı üçün təkliflər yalnız yeni yaşayış obyektlərinin genişmiqyaslı tikintisi ilə məhdudlaşa bilməz. Buna görə də, müvafiq infrastrukturun – nəqliyyat, rabitə, kommunikasiya, iaşə, otel sektoru, əyləncə, sığorta, təhlükəsizlik, ixtisaslı kadr mövcudluğu və bir çox digərlərin regionda kompleks inkişafının vacibliyini qeyd etmək lazımdır.

Tədqiqat nəticəsində müəyən olunmuşdur ki, turizmin formalaşması yolunda əksər maneələr turist infrastrukturunun inkişaf səviyyəsi ilə əlaqədardır. Onlar arasında əsas infrastrukturu təşkil edən mehmanxana infraksturudur ki, onun inkişaf və keyfiyyət səviyyəsindən turist axınının həcmi asılıdır.

Son illər Azərbaycanda mehmanxana biznesinin inkişafında Bakıda sürətli bum qeyd olunur ki, mehmanxana tipli xüsusi müəssisəlrin təxminən 33%-i onun payına düşür. Mehmanxanaların və ölkədə mehmanxana tipli müəssisələrin, statistik məlumatına görə, 2012-dən 2017-ci ilə qədər sayı təxminən 9%, yəni 514-dən 563 ədədədək artmışdır [9, 28].

Mehmanxanaların sayının artması, bir fakt deyil ki, paralel olaraq xidmətlərin keyfiyyəti yüksəlir və müvafiq olaraq qonaqpərvərlik infrastrukturu yaxşılaşır. Respublikanın mehmanxana sektorunda xüsusi diqqət cəlb edən çoxlu problem mövcuddur. Təsbit edilən məsələlər infrastruktur, təşkilati, maliyyə və iqtisadi məsələlərdir.

Ölkədə 2-3 ulduzlu qənaətli mehmanxanaların olması ciddi problemlərə aiddir. Kiçik yerləşmə sektoru (kiçik otelllər, mini-mehmanxanalar, qonaq evləri) praktiki olaraq Azərbaycanda inkişaf etməmişdr. Xarici ölkələrin qlobal təcrübəsi göstərir ki, kiçik müəssisələrin inkişafı turist axının artmasına səbəb olur, yəni əlavə fond növləri artır, yeni iş yerlər yaradılır, vergi daxilolmadan artır. Turistlərin yerləşdirilməsində qiymətlərin yüksək olması istər daxili, istərsə də beynəlxalq turizmi zəiflədir. 2017-ci ildə ölkədə 563 mehmanxana və mehmanxana tipli müəssisələr fəaliyyət göstərməmişdir və onlarda cəmi 981.2 min turist yerləşdirilmişdir [9, 28-29]. Baxmayaraq ki, bu dövrdə Azərbaycana

gələn turistlərin sayı 2,3 dəfə yerləşdirilən vətəndaşların sayından çox olsa da, digər turistlər xüsiusi evlərdə, dostların və s. evlərində yerləşmişlər. Dövlət bu vəziyyətdə million manat itirmişdir.

Bununla əlaqədar olaraq, Azərbaycanda, o cümlədən Bakıda əsasən işgüzar və ya MİCE turizm inkişaf etmiş, bir çox beynəlxalq səviyyəli mehmanxana beşulduzlu və buna görə qiymətlər yüksəkdir.

Bundan əlavə, aktiv səyahət edən turistlər arasında daha populyar olan hostel yerləşdirmə sistemləri faktiki olaraq respublikada yayılmamışdır. Hazırda Bakıda kiçik şəxslər tərəfindən yaradılan, onların evlərinə məxsus qiyməti 25 manat və daha yüksək olan 25 hostel fəaliyyət göstərilir. Müqayisə üçün deyək ki, yalnız Tbilisidə artıq qiyməti 5 dollar və daha yüksək olan 40 hostel fəaliyyət göstərir.

Faktiki materialların həlli göstərir ki, son illər uşaq sağlamlıq təşkilatlarının maddi bazaları faktiki olaraq formalaşmamış və təkmilləşdirilməmiş, tikilinin əsas hissəsi istifadə üçün yararsızdır. “Elm”, “Lokomotiv”, “Gənc geoloq”, “Neftçi” və s. kimi digər uşaq düşərgələri yaşayış üçün əlverişli deyil. Ona görə də ölkədə uşaq sağlamlıq idarələrinin bərpası və yenidən qurulması üçün kompleks tədbirlər görülməsini tələb edir.

Nəqliyyat infrastrukturnun müasir vəziyyəti və inkişafı turist daxilolmalarının səviyyəsini müəyyən edir. 2015-ci ildə Azərbaycanın nəqliyyat sektoruna müxtəlif mənbələrədən 2.5 milliard dollar investisiya qoyulmuşdur – bu qeyri-neft sektoruna qoyulan ən böyük investisiyadır. Azərbaycanda statistik göstəricilər əsasında, demək olar ki, hava nəqliyyatı ilə ölkəmizə gələn 42.7% təşkil edir ki, bu ən yüksək göstəricilərdən, turistlərin 40.4%-i avtomobildən, 11.4% dəmiryol nəqliyyatından, 0.7%-i su nəqliyyatından, 4.8%-i isə digər istifadə edilən turist xidmətlərindən istifadə etmişlər [9, 24].

Azərbaycanda aviabiletlər olduqca baha olmasına baxmayaraq, bu ölkəyə gələn turistlərin axınına mane olmur. Tədqiqatların göstərdiyi kimi, turist infrastrukturunun bu seqmenti respublikada müasir yolkənar servislərinin çatışmaması ilə, nəqliyyat xidmətinin aşam səviyyəsi, texniki bazanın tezlik modernləşməsi tələbatına xarakterizə olunur. Kütləvi turist axınları hər bir infrastrukturun obyektlərində, o cümlədən nəqliyyatda yeni maraqlar, tələbatlar yaranmasını şərtləndirir.

Turist infrastrukturunun mühüm amillərindən biri turist bazasını ixtisaslı kadrlarla təmin edən turist profilli tədris müəssisələridir. Ali potensial təhsilli gələcək mütəxəssisləri Azərbaycan Turizm və menecment Universiteti (2006-cı ildən açılan və 995 yüksək ixtisaslı mütəxəssis), BDU, Azərbaycan Dövlət İqtisad Universiteti, Texnologiya Universiteti, Gəncə Dövlət Universiteti hazırlayır. Bununla bərabər ölkənin müxtəlif regionalarında işləyə bilən 2006-cı ildə Turizm Kolleci, Azərbaycanın 5 əsas rayonlarında Gəncədə, Zaqatala, Şəmkir, Göygöl və Masallıda yaradılan professional turizm peşə məktəblərində il ərzində 250 tələbə hazırlayır. Digər tərəfdən Qəbələ regionunda turizm və qonaqpərvərliyi öyrətmək üçün mərkəz fəaliyyət göstərir.

Əksər hallarda ölkədə turizm sferasında müvafiq təhsili olmayanlar işləyirlər. Ona görə də, turizm biznesi üçün kadrların hazırlanması, xüsusən aktualdır. Respublikada turist profilli tədris müəssisələrində, yüksək keyfiyyətli kadrların hazırlanması üçün orada nəzəriyyə və təcrübə birləşməsi, eləcə də Avropa turizm təhsilində çox yaxşı inkişaf edən tədris turlarının təşkili mövcud deyildir. Deməli, təhsil stukturlarının professional biznes strukturları ilə intensiv əlaqəli olmadan turist sferası üçün professioanal kadrların hazırlanması prinsipcə qeyri-realdır.

Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Turizm və menecment Univesitetinin birgə tədqiqatları göstərdiyi kimi 2023-cü ilə qədər turizm sferasında kadralara olan tələbatı tamamilə ödəməyəcəkdir, bu təlabat yalnız 10 və ya 20% ödəniləcəkdir ki, bu da problemi həll etmək üçün məsələnin daha ciddi olduğunu göstərir.

Yalnız mehmanxana sferasında və turist biznes sahəsində professional kadların hazırlanmasına deyil, turistlərə xidmət edən qarışıq sahələr üzə kadrların hazırlanmasına böyük diqqət vermək lazımdır. Turizm sənayesinin məhsullarının keyfiyyətini yüksəltmək üçün diqqəti yeni texnologiya əsasında könüllülərin, təlimatçıların, turizm üzrə menecerlərin və komandanın formalaşmasına diqqəti cəlb etmək lazımdır.

Hazırda qastronomiya turizmi - ən çox yayılan səyahət növüdür. Belə ki, DTT-nin tədqiqatına əsasən, dünyada turistlərin təxminn 30%-i milli mətbəxini səyaət üçün motivasiya hesab edir. Gastronomik xərclər səyyahın ümumi dəyərinin təxminən üçdə birini təşkil edir.

Azərbaycan mətbəxi bütün dünya turistləri və səyahətçiləri tərəfindən populyarlıq qazanmışdır. Zəngin Azərbaycan miulli mətbəxini təbliğ etmək məqsədilə Mədəniyyət və turizm Nazirliyi 2015-ci ildə Avropa oyunlarında Azərbaycan mətbəxinin ənənələrinə müvafiq olaraq “Azerbaijan Breakfast” brendi potentləşdirdi və Azərbaycanın bütün mehmanxanalarında təqdim olundu. Layihə özünü doğrultdu. Belə ki, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən işlənib hazırlanmış Azərbaycanda “Şərab yolu” (Bakı-Gəncə), Kulinar turu (Bakı-Qəbələ-Şəki-Bakı) və “Ekzotik qastronomiya” xarici turistlərin ən sevimli marşrutudur. Bu turlar üç, beş və daha çox günlərə hesablanmışdır.

Lakin respublikada qastronomik turizm – bu yeni istiqamət olmaqla, xüsusi diqqət tələb edir. Ona görə də, bu seqmentin inkişafı üçün, ilk növbədə, ixtisaslı kadrlar hazırlayan ixtisaslaşdırılmış kulinar məktəbi fəaliyyət göstərməlidir.

Hələ 25 il bundan əvvəl Azərbaycan Nazirlər kabineti Azərbaycan aşpazlıq Mərkəzinin yaradılması haqqında fərman qəbul etmişdir, harada tədqiqat və tədis kompleksi olmalı idi, lakin təəssüf ki, hələlik onlar yoxdur. Bundan başqa, 23 aprel 1991-ci il aşpazlıq Mərkəzi tərkibində Azərbaycan aşpazlığının Muzeyinin yaradılması haqqında Azərbaycanın Nazirlər kabinetinin qətnaməsi qəbul edilmişdi, harada ölkə vətəndaşları və xarici qonaqlar bizim mətbəximiz haqqında məlumat öyrənə bilərdilər. Bundan başqa, bu istiqaməti maliyyə-

ləşdirmək tələb olunur. Deməli, Azərbaycan mətbəxini inkişaf etdirmək, təbliğ etmək məqsədilə respublikada gastronomik turizmin daha da formalaşması üçün müvafiq tədbirlər görülməlidir.

Beləliklə, aparılan tədqiqatlar göstərir ki, Azərbaycanda turizmin daha da inkişafı ücün respublikada səmərəli turizm infrastrukturunu yaratmaq və bu problemin həllində dövlətin iştirakı vacibdir.

Son illərdə turizm Azərbaycan dövləti üçün prioritet sferalarından birinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən turizmin inkişafına dair müvafiq fərman və sərəncamlar imzalamışdır. 4 iyun 1999-cu ildə Prezident Heydər Əliyev tərəfindən «Turizm haqqında» Qanun qəbul edilmişdir. Bu qanun turizm sənayesinin inkişafına təkan verərək, Azərbaycanda turizm sahəsində hüquqi sistemin əsası və özəyi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 27 avqust 2002-ci ilə imzalanan «2002-2005-ci illərdə turizmin inkişafı üzrə Dövlət Proqramı» və 6 aprel 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev tərəfindən imzalanan «2010-2014-cü illərdə turizmin inkişafı üzrə Dövlət Proqramı»nın həyata keçirilməsi göstərir ki, iqtisadiyyatın əhəmiyyətli və perspektivli sahəsi kimi, turizm daim dövlətin nəzarəti altındadır.

«Azərbaycan - 2020: Gələcəyə baxış» inkişaf konsepsiyasında da həmçinin, ölkədə turizmin inkişafı üzrə vəzifə və məqsədlər əks etdirilmişdir. Məsələn, doktrinada deyilir: «Konsepsiya çərçivəsində turizmin infrastrukturunun inkişafı, turizm xidmətləri üzrə beynəlxalq standartlara cavab verən sahələrin genişlənməsi, bu sahənin rəqabət qabiliyyətliliyinin artırılması və onun xüsusi çəkisinin ÜDM-da artırılması nəzərdə tutulmuşdur». Sevindirici haldır ki, 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sərəncamı ilə təsdiq edilən və 11 istiqaməti özündə ehtiva edən milli iqtisadiyyat üzrə «Strateji yol xəritəsi»ndə istiqamətlərdən biri - «Azərbaycanda xüsusiləşdirilmiş turizm sənayesinin inkişafı üzrə Strateji yol xəritəsi»dir.

Faktiki materialların təhlili göstərir ki, Azərbaycanda turizmin inkişafında əsas problem turizm infastrukturunun mənəvi və fiziki cəhətdən köhnəlməsi, mühəndis və kommunikasiya şəbəkələrinin, mehmanxana, kino – teatrların, regionlarda internet şəbəkə və klubların dünya standartlarına cavab verilməməsi, yüksək ixtisaslı kadırların çatışmaması sahənin inkişafını ləngidən əsas amillərdəndir. Deməli, respublikada və onun regionlarında turizmin inkişafı infrastruktur sahələrinin kompleks inkişafından asılıdır. Bu cox mühüm və təxirəsalınmaz vəzifə olmaqla, böyük kapital qoyuluşu və təşkilatı – iqtisadi tədbirlər görülməsini tələb edir.

Turizm infrastrukturu ən əhəmiyyətli və çətin vəzifədir, çünki böyük investisiyalar tələb edir və ayrı-ayrı şirkətlər tərəfindən həyata keçirilə bilməz. Bu turizm sənayesinin inkişafında zəruri bir komponentdir. Buna görə turizm infrastrukturunu yeni, daha yüksək inkişaf səviyyəsinə qaldırmaq üçün ortaya çıxan problemlərin bir çoxunu həll etmək lazımdır.

Əminliklə demək lazımdır ki, turizm infrastrukturunu turizmin maddi

bazası olmaqla, tələb və təklifin xarakterini, yeni obyektlər, ekoloj tələblər və iqtisadi cəhətdən məqsədəuyğun olması turizm sferasının təşkili və xidməti üçün mühüm şərait yaradır. Beləliklə, Azərbaycanda turizm infrastrukturunun inkişafının nəzəri və praktiki tədqiqatları funksional əhəmiyyət kəsb edir. Ölkəmizdə turizm infrastrukturunu yeni, daha yüksək inkişaf səviyyəsinə qaldırmaq üçün ortaya çıxan problemlərin bir çoxunu həll etmək lazımdır.

## ƏDƏBİYYAT


1. Aristova O.V. Turizm sektorunun təşkilatlarının qeyri-sabit mühitdə idarə olunması strategiyası: M. [B. və.], 2001, 167 s.
2. "Turizm haqqında" Azərbaycan Respublikasının 27 iyul 1999-cu il tarixli Qanunu.
3. Alexandrova A. Y. Beynəlxalq turizm: Dərslik. M .: Aspect Press, 2004, 470 s.
4. Azizov A.A. Azərbaycanda turizm sahəsində sahibkarlıq. Monoqrafiya. Bakı, 2012, 307 s.
5. Zorin İ.V., Kvartalnov V.A. Turizm ensiklopediyası: Məlumat kitab. M.: Maliyyə və Statistika, 2003, 368 s.
6. Vinogradova M.V., Soldatov P.İ. Turist infrastrukturunun kompleksi // Tomsk Dövlət Universiteti Bülleteni, № 324. Tomsk: TomSU, 2009, s. 264-271.
7. Tömnıy Y.V. Turizm iqtisadiyyatı. M.: Maliyyə və Statistika, 2010, 447 s.
8. Novikov V.S. Turizm fəaliyyətinin təşkili. M.: Knorus, 2013, 333 s.
9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm, 2018.


## ТЕОРЕТИКО – МЕТОДОЛОГИЧЕСКИЕ ВОПРОСЫ КОМПЛЕКСНОГО РАЗВИТИЯ ИНФРАСТРУКТУРЫ ТУРИЗМА


**А.Х.АХУНДОВА**


## РЕЗЮМЕ


В данной статье рассмотрены теоретические и методологические вопросы комплексного развития туристской инфраструктуры, которая выполняя по отношению к туристским ресурсам функции снабжающей подсистемы, одновременно с этим играет роль ускорителя туристской индустрии региона, так как становится определяющим, базовым условием для формирования всей индустрии туризма. Некоторые зачастую туристскую инфраструктуру трактуют как синоним отрасли туризма, лечебно – оздоровительной и рекреационной инфраструктуры, материально – технической базы и др. В связи с чем, проведен анализ определения понятие инфраструктура туризма, изучены его основные группы услуг и объектов. И, в первую очередь, основными элементами туристической инфраструктуры считаются транспорт, сфера гостеприимства, общественное питание, индустрия развлечения, туристские агентства и туроператоры, которые следует развивать комплексно.



**Ключевые слова:** комплексное развитие, турист, индустрия туризма, инфраструктура, туристские ресурсы.

# THEORETICAL - METHODOLOGICAL ISSUES OF COMPLEX DEVELOPMENT OF TOURISM INFRASTRUCTURE

**A.Kh.AKHUNDOVA**

**SUMMARY**

In this article, theoretical and methodological issues of integrated development of tourist infrastructure are considered. Often the tourist infrastructure is interpreted as a synonym for the tourism industry, for medical and recreational infrastructure, for material and technical base, etc. In this regard, the analysis of the definition of the concept of tourism infrastructure was done, its main groups of services and facilities were studied. In addition, the functionality and structure of the tourist infrastructure have been investigated which includes a number of segments designed to serve the needs of tourists and each of which has a definite impact on the tourism industry. And, first of all, the main elements of the tourism infrastructure are transport, hospitality, catering, entertainment industry, tourist agencies and tour operators, which should be developed in a comprehensive manner.

**Keywords:** integrated development, tourist, tourism industry, infrastructure, tourist resources.

## SOSİOLOGİYA VƏ PSİXOLOGİYA

**UDK 32.001.301.162**

# DAĞLIQ QARABAĞI İCMA HÖKUMƏTLƏRİ İDARƏ EDƏ BİLƏRMİ?!

**Ü.A.ŞƏFİYEV**
***Bakı Dövlət Universiteti***
***uzeyirlerik@gmail.com***

*Bu məqalədə Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyəti,onu yaradan səbəblər,problemin tarixi inkişaf dinamikası araşdırılır.Məqalədə münaqişənin real vəziyyəti, problemin eskalasiyasında maraqlı olan dövlətlərin apardığı siyasət təhlil edilir, mümkün tənzimetmə vasitələri və həll variantları nəzərdən keçirilmişdir. Tarixi müqayisəli və anoloji müqayisəli təhlil fonunda müəllif real həll variantı üzərində qənaətini fokslaşdırır.*

**Açar sözlər:** icma hökuməti, Brüssel modeli, xalq diplomatiyası, münaqişə, sülh danışıqları

İllərdir Dağlıq Qarabağ Rusiya girovluğundadır. Rusiya nə qədər çalışırsa da münasib bir formul tapa bilmir ki, Dağlıq Qarabağı girovluqdan “azad” edərək onu həqiqi sahibinə – Azərbaycana “qaytarsın”.

Dağlıq Qarabağın taleyi bir safari filmində gördüyüm ahu balasının taleyi ilə necə oxşar və həmahəngdir. Aslan yenicə doğulmuş ahu balasını yaxalayır. Ancaq bu şikar onun üçün o qədər kiçikdir ki, aslan ona heç ağzını bulamaq istəmir. O, körpə ahu balasından ahunu ələ keçirmək üçün girov kimi istifadə edir. Ahu balası hər dəfə qaçmaq istədikdə aslan iti pəncəsilə ona badalaq vurur, saxlayır. Beləcə aslan ahunun körpə balasının arxasınca qayıtmasını səbrlə gözləyir. Eynilə Rusiyanın Azərbaycanın əlverişli siyasi bazarlaşmaya hazır olacağı günü gözlədiyi kimi. Ona görə də siyasi bazarlaşmada KTMT, Avrasiya İttifaqı və s. formatlarda təklifləri hələ çox eşitməli olacağıq. MDB, KTMT, Avrasiya İttifaqı və s. kimi kəndir təşkilatlar “bəlkə də qaytardılar” sevdası ilə yaşayan Rusiyanın “velikorus” mərəzinin aqoniya sindromlarından başqa bir şey deyildir.

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Nikolay Bordyujanın Azərbaycanla hədə ritorikası ilə danışmasını hamımız yaxşı xatırlayırıq. Belə ki, o, açıq şəkildə bildirirdi ki, “erməni hərbçiləri Azərbaycanla müharibə başlayacağı təqdirdə tab gətirə bilməsələr, onlar Ermənistana

kömək edəcəklər” (Necə ki, məlum aprel döyüşləri zamanı Azərbaycan öz qarşısında Rusiyanı gördü (Ü.Ş.). Açığı Nikolay Bordyujanın bu mövqeyi heç təccüblü deyil. Təccüblü olan bizim bir para “siyasətşünas” və “praktik siyasətçilər”in Rusiyaya bu problemin həllində nicat qapısı kimi baxmasıdır. Onlar unudur ki, hələ sovetlər birliyi dövründə “sövet xalqı, sosializm kimi cazibədar bir ideoloji çətir şəraitində belə azərbaycanlıların assimilyasiyası siyasəti aparılır, Azərbaycan coğrafiyasında ermənilərin xeyrinə demoqrafik xəritə dəyişdirilmişdi. Heç kəsdə şübhə yoxdur ki, Azərbaycana erməni problemini yaradan əsas qüvvə məhz Rusiyadır.

Rusiya politoloqu, Avrasiya Hərəkatının rəhbəri Aleksandr Dugin əgər etiraf edirsə ki, “Rusiya Azərbaycana qarşı daha Ermənistanın aləti olmayacaq” bundan açıq hansı fakt göstərmək lazımdır ki, bu bəlanın ssenari müəllifinin kimliyi bilinsin? Hər şeyi öz adı ilə çağırmayanda problemin həllindən perik düşürük. Gəlin tarixə nəzər salaq, görək bu gün də daxil, Azərbaycana erməni epidemiyasını kim salıb. Azərbaycan coğrafiyasında ermənilər aborigen olmayıblar axı. Bunu Azərbaycan tarixçiləri yazmır ki, deyilsin subyektiv mövqedir. Ermənilərin bu coğrafiyada qeyri-aftoxtonluğunu erməni tarixçilərinin özləri, ermənilərə qəyyumluq edən Rusiya dövlətinin alimləri, diplomatları dəfələrlə bəyan etmiş və isbatlamışlar. Gəlin onların bir neçəsi ilə tanış olaq və görək ki, bu erməni icması nə icmadı?! Necə formalaşdı?! Onu kim formalaşdırdı?! Hansı ki, bu gün onlar Dağlıq Qarabağın “erməni icması” adı ilə çağırılmasından belə imtina edir və belə sayıqlamalar edirlər ki, biz erməni icması deyil, Dağlıq Qarabağ xalqıyıq. Və aşağıda tanış olacağınız gerçəklik fonunda münaqişənin həllinin təklif etdiyimiz tənzimlənmə variantı vasitəsilə nə dərəcədə mümkünlüyünü sizinlə müzakirə etmək istərdik.

Rus müəllifi N.Şavrov yazır: *“Biz Zaqafqaziyada imperiya siyasətinin həyata keçirilməsinə buraya rus əhalisinin deyil, başqa xalqların yerləşdirilməsi ilə başladıq... 1828-1830-cu illərdə biz İrandan 40 min, Türkiyədən isə 84 min erməni köçürdük və onları Yelizavetpol və İrəvan quberniyalarında, erməni əhalisinin azlıqda olduğu yerlərdə, ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Onların məskunlaşmaları üçün 200 min desyatin torpaq ayrıldı, həmçinin müsəlman-torpaq sahiblərindən 2 milyon manatdan artıq məbləğə torpaq əraziləri alındı. Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi nəzərdə tutulur) və Göycə gölünün sahili erməni köçkünləri ilə məskunlaşdırıldı... Köçürülənlərin və qeyri-rəsmi köçürülənlərin sayı 200 min nəfərdən artıq idi. 20-ci əsrin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon ermənidən bir milyondan artığı buraya bizim tərəfimizdən köçürülmüşdür”* [19, 59-61].

“Paskeviç İrana, polkovnik Lazarevin yanına ona görə göndərilmişdi ki, 40 min ermənini Zaqafqaziyaya dəvət etsin. Eçmiədzin patriarxı da bu məsələdə iştirak edirdi. Belə ki, o, İrandakı erməni keşişlərinə köçürülmə haqqında göstəriş vermişdi. Andrianopolsk Sazişinə görə, 100 mindən artıq erməni Türkiyədən köçürülmüşdü. Ərzurumdan olan arxiyepiskop Qarapet təqribən 70

min erməni gətirmişdi. Bundan sonra ermənilərin müsəlman ölkələrindən Rusiyaya köçürülməsi fasiləsiz və kütləvi xarakter daşıdı. Erməni məhəllə məktəblərində şagirdlər «Böyük Ermənistan» xəritəsini öyrənirlər ki, onun da ərazisi, demək olar ki, Voronejə qədər çatır və paytaxtı da Tiflisdir. Əgər erməni tarixinin üzqabığı üçün «Uydurma» sözündən başqa onun məzmununu daha dolğun ifadə edən söz axtarsaydıq, «Xəyanət» sözünün üstündə dayanmalı olardıq» [16, 80].

*"Erməni xalqının əsli nədir, necə, nə vaxt, haradan və hansı yollarla o, buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib, bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur"*[10, 11].

Erməni müəllifi B.İşxanyan 1916-cı ildə Petroqradda çap olunmuş "Qafqaz xalqları" kitabında yazırdı: "Dağlıq Qarabağda yaşayan ermənilərin böyük bir hissəsi Türkiyə və İrandan olan qaçqınlardır. Azərbaycan torpağı onları təqiblərdən və zülmdən qoruyan sığınacağa çevrilib".

*"Müəyyən əraziyə malik olmaq, ərazi təşkilatı olmaqla, dövlət millətlərin formalaşması prosesinə fəal təsir göstərir. Deməli, dövlətin 1-ci növbədə ərazisi olmalıdır. İlk erməni sülaləsinin başçısı tarixdə olmayıb* [9].

Digər rus alimi S.Qlinka ermənilərin köçürülməsi ilə bağlı yazırdı: "9 mart 1828-ci ildə sonuncu rus ordusu Təbrizi tərk etdi… Türkmənçay müqaviləsinə görə, ermənilər müxtəlif kəndlərdən Qarabağa doğru hərəkət etdilər… Knyaz Arqutinski-Dolqorukini Təbrizdə saxlayan Lazarev bir neçə məmurun müşayiəti ilə onu səbirsizliklə Marağada gözləyən ermənilərin yanına yollandı" [17, 81].

Ermənilərin köçürülməsi ideyasının müəllifi A.Qriboyedov yazırdı: "Müsəlmanlar arasında (azərbaycanlılar - Ü.Ş.) yayılmış ermənilərin bir dəfə buraxıldıqları ərazilərin əbədi sahibləri olacaqları qorxusunu dəf etmək və onları düşdükləri ağır vəziyyətin uzunmüddətli olmamasına inandırmaq problemi bizim tərəfimizdən… dəfələrlə ölçülüb biçilmişdi" [15].

"Zati-aliləri, heç bir vəchlə ermənilərə mərkəzi rus torpağında məskunlaşmağa icazə verməyin. Bunlar elə bir xalqdır ki, on illər keçəndən sonra həmin yerləri öz mülkiyyətlərinə çevirəcək və bütün dünyaya car çəkəcəklər ki, bunlar qədim Ermənistan torpaqlarıdır" (Aleksandr Qriboyedovun imperatora məktubundan).

Hələ 1721-ci ildə Qafqaz yürüşü və Azərbaycanın, o cümlədən Bakının Xəzəryanı ərazilərinin fəthi zamanı I Pyotr yerli əhalinin sərt müqaviməti ilə qarşılaşmış və ermənilərdən istifadə etməyi qərara almış, elə bu amacla erməniləri Bakıda və Dərbənddə yerləşdirmək göstərişi vermişdi. Eyni zamanda, birinci dəfə I Pyotr erməniləri Osmanlı İmperiyasına qarşı qaldırmağa nail olmuşdu. Bu siyasətin davamı olaraq 1768-ci ildə II Yekaterina ermənilərin imperiyanın himayəsinə götürülməsi barədə fərman imzalamış, 1803-cü ildə imperator I Aleksandr Qafqaz canişini A.Sisiyanova konkret təlimat vermişdi: "Azərbaycan xanlıqlarını ələ keçirmək üçün nəyin bahasına olursa-olsun

ermənilərdən istifadə etmək lazımdır”.

Qarabağ, 1805-ci ildə Azərbaycan xanlığı kimi, Qarabağ xanı İbrahimlə Rusiya İmperiyası qoşunlarının baş komandanı general Sisiyanov arasında bağlanmış Kürəkçay Sülh Müqaviləsinə görə, Rusiyanın tərkibinə daxil edilib. Kürəkçay Sülh Müqaviləsinin ikinci bəndinə görə, Qarabağ xanının dövlətinin bütövlüyünə və hakimiyyətin irsi varisliyinə imperator zəmanəti verilir. Lakin bir müddət sonra – 1822-ci ildə çar hökuməti müqavilənin bu bəndini pozaraq, Qarabağ xanlığını siyasi vahid kimi ləğv etdi və onu imperiyanın bir əyalətinə çevirdi. Bununla belə, “dövlətin bütövlüyünün qorunmasına imperator zəmanəti” verən çar hökuməti dövlətin idarə olunması baxımından istisnasız olaraq müsəlman əyaləti kimi Qarabağ xanlığını qalan müsəlman əyalətlərindən ayırmadı. Çünki 1805-ci ildə xanlıq Rusiyanın tərkibinə daxil edilərkən, ermənilər xanlıq əhalisinin yalnız 20%-ni təşkil edirdilər.

«Erməni məsələsi» 19-cu əsrin 70-ci illərindən sonra rus-türk müharibəsində (1877–1878) ermənilərin müstəqil dövlət qurmaq istəyini üzə çıxardı. Bunun üçün ilk növbədə ərazidə ermənilərin çəkisini artırmaq lazım idi.

Təkcə 1826-1828-ci illər rus-İran müharibəsi zamanı İrandan Cənubi Qafqaza, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Türkmənçay Müqaviləsinin imzalanmasından dərhal sonra I Nikolay 1828-ci il 21 mart tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazilərində erməni vilayəti yaratdı. 7331 azərbaycanlının və cəmi 2369 erməninin yaşadığı İrəvan şəhəri onun tərkibinə daxil oldu. Eyni zamanda İrandan İrəvana, Qarabağa və Naxçıvana ermənilərin kütləvi köçürülməsi başlandı. İrəvan xanlığının ərazisində yaradılmış “Erməni əyalətində əgər 1828-ci ildə Azərbaycan türklərinin xüsusi çəkisi 73,8% təşkil edirdisə, 1834-1835-ci illərdə bu rəqəm 46,2%-dək düşdü” [20, 314]. 1832-ci ildəki kameral hesablamalara görə, Qarabağ əyalətində 32,4 min azərbaycanlı (64,8%) və 17, 4 min erməni (38,8%) qeydə alınmışdı. Beləliklə, erməni əhalisi 1823-cü ildəki 8,4%-lə müqayisədə kifayət qədər qısa vaxt ərzində dörd dəfədən də artıq çoxalmışdı. Növbəti hesablamalara görə, 80-ci illərin sonlarında Şuşada azərbaycanlıların xüsusi çəkisi 41,5%-dək azaldı, ermənilərin xüsusi çəkisi 58,2%-dək artdı. 1897-ci ildəki Ümumrusiya hesablamasına görə, həmin göstəricilər müvafiq olaraq 53% və 45% təşkil etdi [18, 3]. Qarabağ xanlığı Rusiyanın tərkibinə erməni əyaləti kimi deyil, məhz Azərbaycan dövləti olan xanlıq kimi daxil edilmişdi. 1840-cı il islahatından sonra “Şuşa qəzası” “Qarabağ əyaləti”nin ərazisində yaradılmışdı. Bu inzibati ərazi də Şimali Azərbaycan ərazilərini əhatə edən “Kaspi” vilayətinin tərkibinə daxil edildi. 1868-ci ildən isə Şuşa qəzası Yelizavetpol (Gəncə) quberniyasına verildi. Bu quberniya Bakı quberniyası ilə yanaşı, özündə Şimali Azərbaycan ərazilərini birləşdirirdi. Şuşa qəzası 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının tərkibində Gəncə quberniyasına daxil edildi [4, 276]. 1918-ci ildə Cənubi Qafqazda heç bir zaman olmayan Ermənistan adlı bir dövlət elan edildi. Sonralar Fransanın Elmi-tədqiqat milli mərkəzinin elmi-tədqiqatlar üzrə direktoru Jan-Pol Ru Jorj De Malevil yazacaqdı: «1918-ci ildə

Çar İmperiyasının xarabalıqlarında yaranmış və muxtar qurum kimi çox da uzun müddət yaşamayan Ermənistan respublikası tarixdə qeydə alınmış yeganə müstəqil erməni dövləti idi».

1920-ci ildə Azərbaycan və Ermənistan bolşevik Rusiyası tərəfindən işğal edilib sovetləşdirildikdən sonra da ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi, onların sıxışdırılması, Azərbaycan ərazilərinin Ermənistana verilməsi siyasəti davam etdirildi. Bununla əlaqədar olaraq Azərbaycan SSR xalq ədliyyə komissarı Behbud Şahtaxtinski Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinə (RK (b) P MK) yazırdı ki, Zəngəzurda 123 min 95 nəfər azərbaycanlının, 99 min 257 nəfər ermənininin yaşamasına baxmayaraq, 1920-ci il noyabrın 30-da Zəngəzur qəzasının qərb hissəsi Ermənistana verilmişdir. Bununla da Azərbaycanın Naxçıvan bölgəsi ilə, Türkiyənin türk dünyası ilə quru əlaqəsi kəsildi.

Sovet Ermənistanında yaşayan azərbaycanlılara qarşı yürüdülən siyasət Daşnaksütyunun hakimiyyəti illərindəkindən fərqlənməmişdir. Sayca Azərbaycandakı ermənilərdən çox olmalarına baxmayaraq, Ermənistanda tarixi ərazilərində yaşayan azərbaycanlılara muxtariyyət verilmədi. Azərbaycanda isə ermənilər üçün muxtariyyət yaradıldı. Belə ki, RK (b) P MK Qafqaz bürosu plenumunun 1921-ci iyulun 5-də keçirilən iclasında Dağlıq Qarabağ məsələsi müzakirə edildi. Azərbaycanlılarla ermənilər arasında milli sülhün zəruriliyi, yuxarı və aran Qarabağın Azərbaycan ilə iqtisadi əlaqəsini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı.

1918-1920-ci illərdə Azərbaycanın 113 895, 97 kv.km ərazisindən sovet dövründə yalnız 86,6 min kv.km qaldı. Ermənistan hökuməti əvvəlki illərdə tarixi torpaqlarından qovulan azərbaycanlıların daimi yaşayış yerlərinə qayıtmalarına torpaq çatışmazlığı bəhanəsi ilə qəti şəkildə etiraz edildi. Belə ki, ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Daimi Komissiyasının üzvü İsaakyan Zaqafqaziya Diyar Partiya Komitəsinin Rəyasət Heyətinə geri qayıtmaq istəyən azərbaycanlı qaçqınları yerləşdirmək üçün Ermənistanda bir qarış da torpaq olmadığını yazaraq qeyd edirdi ki, azərbaycanlı qaçqınların Zəngəzur qəzasına qaytarılması böhranlı vəziyyət yaradar, buna görə də məsələni Azərbaycanın sərbəst torpaq fondu hesabına həll etmək olar. Zəngəzurdan qovulmuş azərbaycanlı qaçqınların Azərbaycan SSR-in Qubadlı rayonundan geri qaytarılaraq daimi yaşayış yerlərinə yerləşdirilməsinə yerli hakimiyyət orqanlarının mane olmasına dair məsələ, hətta ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Komissiyasının 1922-ci il iyunun 12-də (protokol № 17) və iyulun 9-da keçirilən iclaslarında (protokol № 18) [14] müzakirə edildi. Qəbul edilən qərarda deyilirdi: "Ermənistan SSR-də sərbəst torpaq fondu olmadığı üçün Ermənistan SSR-dən olan və hazırda Azərbaycan SSR Naxçıvan diyarı ərazisində olan 28 min nəfər müsəlman qaçqını yerləşdirmək Azərbaycan SSR hökumətinə tövsiyə olunsun". Bununla da Zəngəzurdan qovulmuş və tarixi torpaqlarına qayıda bilməyən azərbaycanlıları Azərbaycan hökuməti respublika ərazisində yerləşdirdi.

Ermənilərin mühacirəti üzrə komissiyanın 1923-cü il martın 23-də keçirilən Xalq Torpaq Komissarlığının iclasında 200 min nəfərdən çox olmamaq şərti ilə ermənінin SSRİ ərazisinə köçürülməsi barədə qərar qəbul edildi. Onların 15 min nəfəri Cənubi Qafqazda yerləşdirilməli idi. G.Çiçerinin təklifi əsasında RK(b)P MK Siyasi bürosunun 1923-cü il noyabrın 22-də keçirilən iclasında (protokol № 47) [12 ] "Türkiyədən olan qaçqın ermənilər haqqında" məsələ müzakirə edildi. Qəbul edilən məxfi qərara əsasən 10 min nəfər ermənінin Türkiyədən SSRİ hüdudlarında qəbul edilməsinə etiraz olunmurdu. Türkiyədən gələn ermənilərin bir qismi Cənubi Qafqaza yerləşdirildi.

Elə həmin ildə Naxçıvanın azərbaycanlılar yaşayan 9 kəndi Ermənistana verildi. İki il sonra, 1925-ci il mayın 19-da Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin (MİK) Kiçik Rəyasət Heyətinin iclas qərarına uyğun olaraq (protokol № 12) [1] ermənilər Naxçıvana yerləşdirildi. 1923-cü il iyulun 7-də Qarabağın dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) təşkil edildi. Muxtariyyətin inzibati mərkəzi Xankəndi şəhəri müəyyənləşdirildi. Həmin ilin sentyabr ayında şəhərin adı dəyişdirilərək azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri olan Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırıldı.

Sözügedən coğrafiyada erməni saldosunu artırmaq üçün proses ardıcıl və davamlı olmuşdur. Belə ki, 1936-cı ilin may ayında təkcə Parisdən Ermənistana 2 min nəfər erməni gətirildi. Xarici ölkələrdən gətirilən ermənilərin yaşayışını təmin etmək üçün azərbaycanlılar tarixi torpaqlarından sıxışdırıldılar. Köçürmə yolu ilə Ermənistanda ermənilərin sayının artırılması barədə "Daşnaksütyun Partiyasının əksinqilabi rolu" adlı arayışda yazılırdı: "Əgər 1920-ci ildə Ermənistanda 774 min nəfər əhali var idisə, 1936-cı ildə onların sayı 1 milyon 200 min nəfər oldu və ya 55% artdı".

1946-cı ildə 40 kv. km meşə sahəsi, Tovuz rayonu ərazisindən 7,6 kv.km ərazi, Qazax rayonundan bir hissə Ermənistana verildi. 1947-ci ilin dekabrında Q.Arutunov İ.V.Stalinə məktubla müraciət edir və son illərdə Azərbaycan və Ermənistanın təsərrüfat həyatında baş verən dəyişikliklərlə əlaqədar olaraq yaranmış bəzi məsələlər barəsində Stalin qarşısında məsələ qaldırır. Bildirir ki, Mingəçevir su elektrik stansiyasının tikintisi ilə bağlı olaraq yeni suvarılan torpaqlar və pambıqçılıq rayonlarında fəhlə qüvvəsinə ehtiyac yaranmışdır, həmçinin pambıq istehsalının çoxaldılması Azərbaycanın bu rayonlarında əhalinin artırılması məsələsini irəli sürməyi zəruri edir. Bu məsələnin real həlli Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlı əhalinin həmin rayonlara köçürülməsi ilə mümkündür. Belə ki, azərbaycanlı əhalinin köçürülməsi xarici ölkələrdən Ermənistana gələn ermənilərin qəbulu və yerləşdirilməsi üçün şəraiti yaxşılaşdırar, boşalmış torpaq sahələrindən və mənzillərdən xarici ölkələrdən ermənilər köçürülən zaman istifadə edilə bilər. Beləliklə, 1948 və 1953-cü illər ərzində 100 mindən artıq azərbaycanlı zorla tarixi torpaqlarından Azərbaycan SSR-in Muğan və Mil çöllərinə köçürüldülər. Xaricdən gətirilən ermənilər isə Ermənistandan deportasiya edilən azərbaycanlıların yaşayış üçün

hər cür şəraiti olan evlərinə yerləşdirildilər. Proses ardıcıl olaraq sonrakı illərdə də davam etmişdir. Xarici ölkələrdən Ermənistana 1961-ci ilin ortaları üçün 200 min, 1962-1973-cü illərdə isə 26 min 100 nəfərdən çox erməni gətirilmişdi.

1984-cü ildə Ermənistan rəhbərliyi Azərbaycanın Qazax rayonunun Kəmərli kəndinin 1675 ha torpaq sahəsinə iddia irəli sürdü. Mərkəzi hakimiyyət Ermənistanın əsassız ərazi iddiasını təmin etdi. Ermənistan rəhbərliyi 80-ci illərin ortalarında xarici ölkələrdən ermənilərin Ermənistana köçürülməsi məsələsini yenidən qaldırdı. Sovet hökuməti bu təklifi bəyənərək 1985-ci il iyunun 20-də «1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında» qərar qəbul etdi. Bununla kifayətlənməyən Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan 1986-cı ilin noyabr ayında Sov.İKP MK-ya bir məxfi məktub yazaraq göstərdi ki, Ermənistanda sovet hakimiyyəti qurulduğu ilk illərdən Sov.İKP MK-nın qərarları ilə müxtəlif xarici ölkələrdən ermənilərin repatriasiyası həyata keçirilmiş, sovet hakimiyyəti illərində Ermənistan SSR-ə xaricdən 230 min nəfərdən çox erməni gətirilmişdir.

K.Dəmirçiyan, məlumata görə, Yaxın və Orta Şərq ölkələrində (İran, Suriya, Livan, İraq, İordaniya) yaşayan ermənilər içərisində Ermənistan SSR-yə daimi yaşamaq üçün gəlmək istəyənlərin olduğunu qeyd edirdi. Məktubun sonunda o, "repatriasiyanın mühüm siyasi əhəmiyyətini nəzərə alaraq Ermənistan KP MK və SSRİ Nazirlər Sovetinin 1985-ci il 25 iyun tarixli "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərarının fəaliyyət müddətinin 1990-cı ilin sonunadək uzadılmasını" xahiş etdi.

Erməni məsələsində Rusiyanın qəyyumluğunu isbatlyan başqa bir fakt SSRİ rəhbəri M. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyanın Parisdə "İnterkontinental" oteldə erməni nümayəndələri qarşısında etdiyi və 1987-ci il noyabrın 18-də "Humanite" qəzetində dərc edilmiş çıxışı ilə öz təsdiqini tapır. Belə ki o, bu çıxışı zamanı guya Dağlıq Qarabağın Ermənistanla əlaqəsini nəzərə alaraq onun Ermənistana birləşdirilməsi barədə M.Qorbaçovun razılığını aldığını bildirdi. 1988-ci il fevralın 18-də çıxış edən M.Qorbaçov SSRİ-də milli münasibətlər məsələsinə baxmağın vacibliyini söylədikdən sonra Ermənistan rəhbərləri daha da ruhlandılar. Ermənistanın bilavasitə müdaxiləsi ilə fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin iclası keçirildi. Sovetin tərkibindəki 140 deputatdan 110-u erməni, digərləri isə azərbaycanlılar idi. Azərbaycanlı deputatlar yığıncağa buraxılmadılar. İclasda DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-yə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR ali sovetlərinə müraciət edildi.

DQMV Xalq Deputatları Sovetinin ayrılma haqqında qərarına etiraz edən dinc azərbaycanlılara fevralın 22-də Ağdam-Xankəndi şose yolu ətrafında yerləşən Əsgəran qəsəbəsi yaxınlığında silahlı şəxslərin atəş açması nəticəsində iki gənc öldürüldü. Xatırladaq ki, onlar münaqişənin ilk qurbanları idilər.

İyulun 12-də DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair qərar qəbul etdi. Azərbaycanlılar DQMV-dən də zorla qovulmağa başlanmışdılar. Azərbaycanın hüquqlarını kobudcasına pozan SSRİ Ali Soveti Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də Azərbaycan konstitusiyasına zidd olaraq Arkadi Volskinin sədrliyi altında tərkibində 8 nəfər olan Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsini yaratdı. Sov.İKP MK Siyasi bürosu 13 yanvar tarixli iclasında bu qərarı bəyəndi. Komitənin yaradılması regionun Azərbaycanın nəzarətindən çıxmasında əsas rol oynadı.

1989-cu il sentyabrın 23-də Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR-in suverenliyi haqqında konstitusiya qanununu qəbul etdi. Azərbaycanın etirazları nəticəsində noyabrın 28-də Xüsusi İdarə Komitəsi ləğv edildi. Azərbaycanlılar Ermənistanda tarixi torpaqlarında yaşadıqları 172 kənddən qovuldular.

Ermənistan Azərbaycana qarşı təcavüzkarlığını ört-basdır etmək üçün DQMV-də "erməni xalqı"nın öz müqəddəratını təyin etməsi, ermənilərin hüquqlarının pozulması, sosial-iqtisadi inkişafının geriliyi barədə əsassız mülahizələr irəli sürürdü. Ermənistan SSR Ali Soveti 1990-cı il yanvarın 9-da Dağlıq Qarabağı 1990-cı il iqtisadi planına daxil etdi.

1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən bəyan olunmuş dövlət müstəqilliyinin bərpasını Azərbaycan SSR hüdudlarında elan etdi. Bundan bir neçə gün sonra, sentyabrın 2-də Dağlıq Qarabağ Muxtar Vilayəti və Şaumyan rayon Xalq Deputatları Sovetlərinin birgə iclasında Azərbaycanın DQMV və Şaumyan rayonu sərhədləri çərçivəsində qondarma "Dağlıq Qarabağ Respublikası"nın qurulduğu bəyan edildi. Qondarma "DQR"-in elan edilməsi Azərbaycan və SSRİ qanunlarına zidd olub, Ermənistanın təcavüzkarlığını ört-basdır etmək məqsədi güdürdü. Azərbaycan tərəfi 1991-ci il noyabrın 26-da Dağlıq Qarabağ Muxtar Vilayətini ləğvi etdi.

1991-ci il dekabrın 8-də Minsk yaxınlığında Belovejskoe Puşedə Rusiya, Ukrayna və Belarus prezidentləri görüşərək 1922-ci il İttifaq müqaviləsinin fəaliyyətini dayandırdılar. Dekabrın 10-da isə Dağlıq Qarabağ regionundakı ermənilər Ermənistanın bilavasitə müdaxiləsi altında saxta "referendum" keçirərək "Dağlıq Qarabağın SSRİ tərkibində müstəqil bir respublika olması" üçün səs verdilər. Azərbaycanlılar bu "referendum"da iştirak etmədilər. Bu zaman artıq SSRİ adlı bir dövlət mövcud deyildi. Dekabrın 21-də yaradılması elan edilən MDB Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasını nəinki dayandıra bilmədi, əksinə Ermənistanda yerləşən keçmiş sovet ordusunun komandirləri silah və sursatı erməni dəstələrinə verərək Azərbaycan əleyhinə silahlandırdılar. 1992-ci il fevralın 26-27-də Ermənistan silahlı birləşmələri və Xankəndində yerləşən 366-cı keçmiş sovet alayı 7 min nəfər əhalisi olan Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı kütləvi soyqırım həyata keçirdi. Ermənistanın müdafiə naziri və sonralar prezidenti olan Serj Sarqsyan sonralar

Tomas de Vaala verdiyi müsahibəsində etiraf edəcəkdi: "Xocalıya qədər azərbaycanlılar belə fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qadir deyillər. Biz bunu (stereotipi) qırdıq". Markar Melkonyan isə yazır ki, Xocalı sakinləri altı mil qət edərək, demək olar ki, təhlükəsiz yerə çatmışdılar, lakin əsgərlər onlara çatdılar. Sonra çəkmələrinə bərkidilmiş bıçaqları qablarından çıxarıb adamları doğramağa başladılar.

Azərbaycan Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün beynəlxalq səylər göstərdi. 1992-ci il martın 2-də Azərbaycan Respublikası keçmiş DQMV-nin inzibati ərazisi də daxil olmaqla BMT-yə üzv oldu. Bununla da onun beynəlxalq sərhədləri tanındı, beynəlxalq hüququn mühafizəsindən istifadə imkanı qazandı.

Həmin dövrlərdə eyni zamanda bir sıra Avropa dövlətləri və onların təmsil olunduğu beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı narahatçılıqlarını bildirdilər. Belə ki, Böyük Britaniyanın baş naziri Con Meycor 1992-ci ilin sentyabrında Azərbaycana göndərdiyi məktubda Dağlıq Qarabağ münaqişəsi haqqında öz hökumətinin mövqeyini belə ifadə etmişdir: "Böyük Britaniya hökuməti bildirir ki, Dağlıq Qarabağın rəsmi statusu məsələsi müzakirə mövzusu ola bilməz. Bu, Azərbaycan ərazisidir. Biz həmin bölgədə və onun ətrafında baş verən məhvedici münaqişəni bölgədə sabitlik üçün təhlükə, Azərbaycanın və Ermənistanın sovet kommunist hakimiyyətindən demokratiyaya keçməsi yolunda ciddi maneə kimi qiymətləndiririk".

Dövlət naziri Duqlas Hörd Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində jurnalistlər üçün keçirdiyi brifinqdə qeyd etdi ki, Böyük Britaniya hökuməti Dağlıq Qarabağ münaqişəsinin uzanmasından çox narahatdır. Duqlas Hörd Cənubi Qafqazda olan vəziyyəti "narahat və təhlükəli durum" kimi qiymətləndirmişdir. Dövlət naziri Duqlas Hörd Dağlıq Qarabağın taleyindən söhbət edərkən, xüsusilə, vurğulamışdı ki, Yerevanda olarkən Böyük Britaniya hökumətinin açıq mövqeyini Ermənistan rəhbərliyinə də bildirib. Ermənistan prezidenti Levon Ter-Petrosyana şəxsən deyib: "Biz Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edirik!"Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində 1997-ci il sentyabrın 1-də qeyri-qanuni "seçkilər" keçirildikdən sonra Böyük Britaniya Xarici İşlər Nazirliyi bəyanat verərək bildirdi ki, "Qondarma "Dağlıq Qarabağ Respublikası" beynəlxalq ictimaiyyət tərəfindən tanınmır.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Endryu Taker "Xalq qəzeti"nə (2001 - ci il, 26 yanvar) verdiyi müsahibədə bildirmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz və tərkib hissəsidir, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarını tərk etməlidir. Səfir eyni zamanda demişdi: "Böyük Britaniyanın rəsmi dairələri dəfələrlə bəyan etmişlər ki, Dağlıq Qarabağa veriləcək muxtariyyətin hansı statusa malik olmasını yalnız Azərbaycan Respublikasının rəhbərliyi müəyyən etməlidir. Rəsmi London Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və

bundan sonra da dəstəkləyəcəkdir” [13].

1994-cü ildə oktyabr ayının sonlarında Azərbaycana səfər edən BMT baş katibi Butros Butros Qali münaqişənin tənzimlənməsində Rusiyanın təkbaşına rolunun artırılması cəhdlərinə qarşı çıxaraq çoxtərəfli sülh səylərini müdafiə etdi. Münaqişəyə dair BMT-nin münasibətinin və qəbul etdiyi qətnamələrin aşağıdakı dörd əsas prinsip üzərində qurulduğunu söylədi: Azərbaycan Respublikasının ərazi bütövlüyü; sərhədlərinin toxunulmazlığı; ərazi zəbt etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyi; işğal edilmiş bütün ərazilərdən qoşunların qeyd-şərtsiz və təcili çıxarılması.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2001-ci il aprelin 23-dən 30-dək Strasburqda keçirilən yaz sessiyasında Parlament Assambleyasının bir qrup deputatı ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı tanımaq çağırışı ilə çıxış etmişdir. Bununla əlaqədar sessiyada “Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin tanınması haqqında” xüsusi bəyannamə yayılmışdır. Bu sənədi 20 ölkədən olan 49 deputat dəstəkləmişdir. Bu hadisəni Bakıda növbəti diplomatik qələbə kimi qiymətləndirmişlər. Təsadüfi deyil ki, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov “Nezavisimaya qazeta”nın müxbirinə bildirmişdi ki, bu cür sənədin qəbul edilməsi Azərbaycanın beynəlxalq meydanda ciddi qələbəsidir, çünki bu, azərbaycanlılara qarşı soyqırımı tanıyan, beynəlxalq təşkilatda rəsmiləşdirilmiş ilk sənəddir.

Avropa Şurasının Parlament Assambleyası 2005-ci il yanvarın 25-də “ATƏT-in Minsk qrupunun (Rusiya, ABŞ və Fransa) məşğul olduğu Dağlıq Qarabağ bölgəsində münaqişə” adlı 1416 nömrəli qətnamə qəbul edib. Ermənistan tərəfinin bütün səylərinə baxmayaraq, Azərbaycan diplomatiyası Avropa Şurasının Parlament Assambleyasında bu mühüm sənədin qəbul edilməsinə müvəffəq olub. Sənəddə Ermənistan Avropa Birliyi tərəfindən faktiki olaraq təcavüzkar ölkə kimi tanınıb.

İşğal olunmuş ərazilərində Ermənistanın dağıdıcı fəaliyyətin nəticələrindən ciddi narahat olan Azərbaycan Respublikasının təşəbbüsü ilə 2004-cü il noyabrın 23-də BMT Baş Məclisinin 59-cu sessiyası çərçivəsində “Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət” adlı əlavə 163-cü bənd müzakirə edildi. Qeyri-qanuni məskunlaşdırma və digər fəaliyyətləri araşdırmaq üçün işğal olunmuş ərazilərə Minsk qrupunun faktaraşdırıcı missiyası Azərbaycana səfər etdi. Faktaraşdırıcı missiya 2005-ci il yanvarın 30-dan fevralın 5-dək Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan, Kəlbəcər və Laçın rayonlarında oldu. Missiyanın hazırladığı 36 səhifəlik məruzədə işğal edilən Azərbaycan ərazilərində erməni əhalisinin məskunlaşdırılmasına dair faktlar əksini tapmışdı. Məskunlaşdırılmış əhalinin sayı 15-16 min nəfər göstərilirdi. Laçında təxminən 8-12 min, Kəlbəcərdə 1500-2000, Ağdamda 1000, Zəngilanda 1000, Qubadlıda 1500, Füzulidə 10, Cəbrayılda 100 nəfər erməni məskunlaşdırılmışdı. Missiya hazırladığı məruzəni martın 17-də təşkilatın Vyanadakı Daimi Şuranın iclasına təqdim etdi. Bunun nəticəsi kimi Minsk qrupu həmsədrlərinin

Daimi Şuraya ünvanladığı məktubda regionun demoqrafik vəziyyətinin dəyişdirilməsinin qarşısının alınması üzrə tərəflərə tövsiyələr verilir, işğal altındakı ərazilərdə demoqrafik dəyişikliyin yolverilməzliyi qeyd və məskunlaşdırmanın dayandırılması tələb edilirdi. Missiyanın səfəri faktının özü əhəmiyyətli idi. Hər şeydən əvvəl, Minsk qrupu yaradıldıqdan sonrakı dövr ərzində işğal olunmuş ərazilərdə vəziyyəti araşdırmaq üçün missiya ilk dəfə göndərilirdi. BMT Baş Məclisinin 2005-ci il 20 sentyabr tarixli iclasında 40-cı nömrə altında 60-cı sessiyanın gündəliyinə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" bəndi daxil edildi. Azərbaycanın işğal edilmiş ərazilərinin Ermənistan tərəfindən məskunlaşdırılmasını təsdiqləyən faktlar barədə materiallar [6.A/59/720-S/2005/132], işğal edilmiş ərazilərinə ATƏT-in faktaraşdırıcı missiyasının hesabatı və Azərbaycanın işğal edilmiş ərazilərinə Minsk qrupunun faktaraşdırıcı missiyası ilə bağlı Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasına məktubu BMT-nin rəsmi sənədləri kimi yayıldı [7. A/59/747-S/2005/I87].

Azərbaycan 2006-cı il iyunun 22-də ATƏT Daimi Şurasının plenar iclasında işğal edilmiş ərazilərdə ermənilərin törətdikləri yanğınlar məsələsini də qaldırdı, müvafiq beynəlxalq təşkilatların, həmçinin Ermənistan və Azərbaycan mütəxəssislərinin iştirakı ilə hərtərəfli ekoloji əməliyyatın keçirilməsi üçün ATƏT-ə müraciət etdi. Sentyabrın 7-də BMT Baş Məclisinin plenar iclasında işğal olunmuş ərazilərdə baş vermiş kütləvi yanğın halları müzakirə edildi. "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı [5. A/RES/60/285] qətnamə qəbul edildi.

2008-ci il martın 14- də BMT Baş Məclisinin 62-ci sessiyasında Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair A/RES/62/244 saylı qətnamə qəbul edildi. Baş Məclis Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstəyini bir daha təsdiq edərək, erməni qoşunlarının Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, işğal olunmuş ərazilərdən qovulmuş əhalinin yurd-yuvalarına qayıtma hüququnu bir daha təsdiqlədi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarına Azərbaycan Respublikası tərkibində səmərəli demokratik özünüidarə sistemi yaratmağa imkan verəcək normal, təhlükəsiz və bərabər əsaslarda yaşama şəraitinin təmin edilməsinin zəruriliyini bildirdi.

2009-cu il martın 30-da BMT baş katibinin "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məruzəsi qəbul edildi. Həmin ildə BMT Təhlükəsizlik Şurasında "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün hüquqi nəticələri", "Ermənistanın təftişçi iddiaları kontekstində dövlətlərin ərazi bütövlüyü fundamental norması və öz müqəddəratını təyin etmə hüququ" və "Azərbaycan ərazilərinin hərbi işğalçısı kimi Ermənistanın beynəlxalq hüquqi məsuliyyəti" adlı məruzələr rəsmi sənədlər kimi yayıldı.Təəssüflər olsun ki, Azərbaycanın işğal olunmuş torpaqlarında bu gün də

müxtəlif ölkələrdən o, cümlədən Suriya və Livandan ermənilər kütləvi şəkildə köçürülərək yerləşdirilir.

Bütün bu gerçəkliklərə rəğmən, Azərbaycan yenə də sözügedən konfliktlə bağlı konstruktiv təkliflər verir, Dağlıq Qarabağda erməni icması ilə azərbaycanlıların birgəyaşayış yollarını axtarır və bunun üçün ölkəmizdə tolerant mühitə zəmanət verir. Hərçənd bir sıra hallarda istər Ermənistan tərəfi, istərsə də bəzi qərb dairələrindən "Azərbaycan kompromisə getməlidir" çağırış sədalarını da eşidirik. Qarabağ münaqişəsinin nizamlanmasında bir sıra hallarda önə çıxan xalq diplomatiyasının imkanlarını şərh edən tanınmış ekspert, ABŞ-dakı Karnegi Beynəlxalq Sülh Fondunun əməkdaşı Tomas de Vall "Azadlıq" radiosuna bildirirdi ki, hazırda ən böyük problem Azərbaycan cəmiyyətində də, erməni cəmiyyətində də Qarabağla bağlı debatın olmamasıdır, yəni gələcəklə bağlı debatın: "Bütün debatlar keçmişlə bağlıdır: kim haqlıdır, kim haqsızdır, Xocalıda nə baş verib, Sumqayıtda nə baş verib?… Belə bir debat aparılmır ki, Azərbaycan və Ermənistan bu bölgədə necə dinc şəkildə, mehriban qonşu kimi yanaşı yaşaya bilər? Yəni bu ölkələrin heç birində effektiv intellektual debat yoxdur. Biz ancaq 1988-ci ildən sonrakı hadisələrə əsaslanan qarşılıqlı ittihamları eşitməkdəyik".

Ancaq hesab edirik ki, Tomas de Vall bu məsələdə haqlı deyildir. Çünki Azərbaycanın bu istiqamətdə mövqeyi kifayət qədər konstruktivdir. Belə ki, Azərbaycan prezidenti dəfələrlə söylədiyi kimi, "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova "Sputnik Azerbaydjan" (20.10.2016.) üçün müsahibəsində də jurnalistin "Kompromis mümkündürmü və hansı şərtlərlə mümkündür?" sualına cavabında bildirdi ki, kompromis deyəndə nə nəzərdə tutulduğunu və hansı tərəfin onu necə yozduğunu dəqiq anlamaq lazımdır. "Nə etmək lazım olduğunu demək üçün nə baş verdiyini bilmək lazımdır: əgər tarixi götürsək, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, həmişə belə olub. Biz erməni əhalinin İrandan, Şərqi Anadoludan bu torpaqlara kütləvi şəkildə köçürülməsinin tarixini bilirik. Bütün tarix, bütün toponimlər, o cümlədən Qarabağ sözünün özü də Azərbaycan mənşəlidir. Sovet illərində orada artıq köçürülmüş erməni əhali olması ilə əlaqədar muxtar vilayət yaradılmışdı, bu, heç respublika da deyildi, onun Ermənistanla inzibati sərhədi yox idi və hər şey normal idi, həyat öz axarı ilə gedirdi, ciddi problemlər yox idi. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə Dağlıq Qarabağ Azərbaycanın bir sıra başqa regionlarını qabaqlayırdı, yəni oraya diqqət yetirilməməsi barədə danışmaq ədalətsizlik olardı. Xüsusən ona görə ki, bu cür muxtariyyətlərə mərkəzi hakimiyyət orqanları da xüsusi münasibət bəsləyirdi. Lakin Sovet İttifaqının dağılması ərəfəsində orada separatçı meyillər üstünlük təşkil etdi, bütün bunlar qan tökülməsi ilə nəticələndi. Azərbaycanlıları əvvəlcə Dağlıq Qarabağdan qovdular, orada təxminən 30 faiz azərbaycanlı vardı. Sonra Azərbaycanın Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan yeddi rayonunu işğal etdilər, həmin rayonlarda yalnız azərbaycanlı əhali yaşayırdı, orada hər şey dağıdıldı. ATƏT oraya iki dəfə faktaraşdırıcı

missiya göndərdi, onların hesabatı lap dəhşətlidir: orada bircə bina da salamat qalmayıb, qəbiristanlıqlar, məscidlər hamısı yerlə-yeksan edilib. Dağlıq Qarabağ hüdudlarındakı ərazilərdən 750 min, Dağlıq Qarabağdan 40 mindən çox, Ermənistandan 200 mindən artıq azərbaycanlı qovulub. 1993-cü ildə yoxsul ölkədə 1 milyon qaçqın vardı. Praktiki olaraq bütün beynəlxalq təşkilatlar düzgün qətnamələr qəbul edib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində erməni işğalçı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılması tələb edilir. Lakin 20 ildən çoxdur ki, bu qətnamələr icra edilmir. Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı – hamısının mövqeyi identikdir: beynəlxalq hüquq bizim tərəfimizdədir. Ermənistan da daxil olmaqla, dünyanın heç bir ölkəsi Dağlıq Qarabağı tanımır. Bütün bunlar belədir, lakin məsələ həll edilmir. Bunun nə üçün həll edilməməsinin əsas səbəbi odur ki, Ermənistan həll olunmasını istəmir. Çünki həll etmək nə deməkdir? – Həll etmək Ermənistanın zəbt etdiyi ərazinin işğaldan azad olunması deməkdir. Ermənilər bunu etmək istəmirlər, onlar status-kvonu dəyişməz saxlamaq istəyirlər. Hərçənd nizamlanma ilə məşğul olan Minsk qrupunun həmsədr ölkələri – Rusiya, ABŞ və Fransa – bu ölkələrin prezidentləri şəxsində dəfələrlə deyiblər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Lakin təəssüf ki, məsələ bu cür bəyanatlardan uzağa getmir.

Biz münaqişənin həllini necə görürük: əlbəttə, Azərbaycanın ərazi bütövlüyü diskussiya mövzusu deyil və ola da bilməz. Biz Dağlıq Qarabağa müstəqillik verilməsinə heç vaxt razı olmayacağıq və erməni tərəfi bunu çox gözəl bilir. Lakin ağlabatan kompromis mümkündür: Dağlıq Qarabağın yerli özünüidarəetmə məsələləri üzrə kompromis ola bilər, ancaq gələcəkdə razılığa gəlsək, bu, muxtar respublika ola bilər. Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan tərəfindən investisiya layihələrinin həyata keçirilməsi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənardakı ərazilərin azad edilməsi şərti ilə iki xalq arasında dinc qarşılıqlı fəaliyyət – biz münaqişənin nizamlanmasını belə görürük. Bu, bizim hazırda üzərində işlədiyimiz və vasitəçilərin irəli sürdüyü təkliflərlə həmahəngdir. Lakin münaqişənin nəyə görə nizamlanmamasının əsas səbəbi odur ki, Ermənistan Minsk qrupu yaradıldığı andan danışıqlar prosesinin azacıq da olsa irəliləməsinə müxtəlif yollarla mane olur. Bizim mövqeyimiz belədir ki, insanlar harada yaşayırdısa, orada da yaşamalıdırlar. Çünki onlar həmin yerlərdə çoxdan yaşayırdılar – erməni əhalisi 200 il, azərbaycanlı əhali isə çox-çox əvvəl. Lakin məsələ, hətta bunda da deyil. Məsələn, Şuşada əhalinin 95 faizi azərbaycanlılar idi. Onların hamısı oradan qovulub. Onların evləri ya zəbt edilib, ya da dağıdılıb. İndi onların evlərində başqaları yaşayırlar. Buna son qoymaq lazımdır. Dağlıq Qarabağın erməni əhalisi orada necə yaşayırdısa, qoy yaşasın, biz bunun əleyhinə deyilik. Bəs Ermənistan bu münaqişədən nə qazanıb? Bəli, bir milyon azərbaycanlıya əzab-əziyyət verilib. Lakin məgər onlar özləri buna görə daha da xoşbəxt olublarmı? Məgər orada vəziyyət daha

təhlükəsiz, daha firavan olub? Əlbəttə, yox. Azərbaycanla münasibətlər normallaşdırılmadan bu regionda inkişaf ola bilməz, onlar daim müəyyən təzyiq altında yaşayacaqlar, fikirləşəcəklər ki, birdən nə isə ola bilər. Biz regionda sülh istəyirik və bizim mövqeyimiz kifayət qədər konstruktivdir. Lakin biz öz ərazilərimizi istəyirik. Ermənistan sülh istəyir, amma o, özgə ərazilərini qaytarmaq istəmir. Fərq, bax, bundadır".

Azərbaycan Respublikasının Xarici İşlər naziri E.Məmmədyarov da mətbuata müsahibələrində kompromislə bağlı öz fikirlərini kifayət qədər aydın təqdim etmişdir: "Azərbaycanın kompromisi odur ki, münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır. İkincisi, Dağlıq Qarabağın statusu haqqında müzakirələr aparmağa razıyıq. Ermənistan tərəfinə dəfələrlə bildirmişəm ki, dünyada mövcud olan bütün muxtariyyət modellərinin üzərində işləyək. Münaqişənin həlli üçün ilk növbədə Ermənistan qoşunları Qarabağdan çıxmalı, məcburi köçkünlər yurd-yuvalarına qayıtmalı, stabillik yaranmalı, iqtisadı inkişaf olmalı, kommunikasiya bərpa edilməlidir. Yalnız bundan sonra status məsələsini müzakirə edə bilərik". Dağlıq Qarabağda yaşayan ermənilərin də Azərbaycan vətəndaşları olduqlarını qeyd edən E.Məmmədyarov Azərbaycanda gedən inkişafdan işğal olmuş torpaqlara, o cümlədən Dağlıq Qarabağa da pay düşməsini istədiyini vurğulayıb: "Orada yaşayan ermənilər də Azərbaycan vətəndaşı kimi ölkədə gedən iqtisadi inkişafdan bəhrələnə bilərlər".

İndi gəlin Ermənistan tərəfinin mövqeləri ilə tanış olaq. Ermənistan baş naziri olmuş Paşinyan qondarma "DQR"in danışıqlar prosesində iştirakı məsələsindən danışır və bildirir ki, bunsuz danışıqlar effektiv olmazdı. Paşinyana görə, Dağlıq Qarabağın danışıqlarda iştirakı məsələsi yenilik deyil. Paşinyan bildirirdi ki, "1998-ci ildən sonra Ermənistan nümayəndələri Qarabağın da adından danışıqlar apardı. Robert Köçəryan əvvəl Qarabağın "prezidenti" olmuşdu, Serj Sərkisyan isə Qarabağın özünümüdafiəsinin təşkilatçılarından biri olub. Nəticədə bizim necə yanaşmağımızdan asılı olmayaraq onlar danışıqlar aparmaq mandatını əldə edə, yaxud bunu öz adlarına yaza bilərdilər. Lakin mən qətiyyən özümə belə səlahiyyətlər rəva görə bilmərəm. Bunun üçün nə hüquqi, nə mənəvi əsaslarım yoxdur. Dağlıq Qarabağ əhalisi Ermənistanda hakimiyyətin formalaşdırılmasında iştirak etmir. Onun özünün "hökuməti" və "prezidenti" var".

Ermənistan baş nazirinin fikrincə, danışıqlarda Qarabağın azərbaycanlı icmasının da iştirak etməli olduğu haqda arqumentlər "əsassızdır, ona görə ki, həmin azərbaycanlılar Azərbaycan vətəndaşlarıdır. Deməli, Azərbaycan prezidenti İlham Əliyev onların da adından danışıqlar aparır, çünki onlar seçkilərdə iştirak ediblər. Qarabağın sakinləri isə Ermənistan hakimiyyətini seçməyiblər, deməli, Ermənistan hakimiyyəti onları təmsil edə bilməz. Paşinyan deyir ki, Sərkisyandan, Köçəryandan fərqli olaraq qarabağlı deyil. Deməli, Dağlıq Qarabağın adından danışa bilməz.

Əgər belədirsə, onda Paşinyandan soruşmaq lazımdır ki, Ermənistan ordu birləşmələri Dağlıq Qarabağda niyə mövcuddur?! Əgər "Dağlıq Qarabağ "

tərəf kimi masa haqqı istəyirsə o zaman Ermənistan niyə söhbətə kurs olur?! Azərbaycan Dağlıq Qarabağda yaşayan ermənilərlə öz vətəndaşları kimi məşğul ola , erməni icmasını dinləyə və problemlərini tənzimləyə bilər.

Ermənistan tərəfi, hətta Dağlıq Qarabağın azərbaycanlı icmasının olması faktını inkar edir və hər bir vəchlə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında təmasların yaradılmasına mane olur. Bbcazeri.com saytına tanınmamış "Dağlıq Qarabağ Respublikası" xarici işlər nazirliyi strukturunda fəaliyyət göstərən Beynəlxalq Əməkdaşlıq Mərkəzinin rəhbəri Janna Krikorova Dağlıq Qarabağ və ətraf rayonlardan didərgin salınmış azərbaycanlı əhalini nəzərə almadan bir qədər də irəli gedərək həyasızcasına bildirir ki, "Mən "Qarabağ erməni icması" anlayışını başa düşmürəm. Hazırda Qarabağda rus icması, yunan icması var… Qarabağ erməniləri özlərini, tanınmamış da olsa, Dağlıq Qarabağ Respublikası vətəndaşı hesab edirlər". O, hələ iki il bundan əvvəl "Qarabağ tərəfinin müxtəlif beynəlxalq layihələrdə fəaliyyəti haqqında çox sərt bir bəyannamə" qəbul edildiyini bildirib. Erməni tərəfi mübahisəli məsələlər üzrə Qarabağla Azərbaycan arasında birbaşa və bərabərhüquqlu təmaslardan başqa formatda əlaqələrdən imtina edir. Krikorovanın sözlərinə görə, "məhz bu səbəbdən Qarabağ nümayəndələri Berlində Azərbaycan icması ilə keçirilən görüşdə iştirak etməyib".

Bbcazeri.com saytına danışarkən Qarabağın xarici siyasət və təhlükəsizlik üzrə ictimai şurasının sədri Masis Mailyan belə bir həyasız fikir səsləndirir ki, "Azərbaycan Dağlıq Qarabağ Respublikasının müstəqil statusunun beynəlxalq tanınmasına yol verməmək üçün, Qarabağı dünyaya Ermənistanla Azərbaycan arasında qarşıdurmanın obyekti kimi təqdim etməyə çalışır, təsəvvür yaratmaq istəyir ki, guya Qarabağ xalqı iki icmadan ibarətdir və problemin həlli üçün icmaları barışdırmaq kifayətdir". Qeyri-hökumət təşkilatının nümayəndəsi deyib ki, erməni tərəfi Dağlıq Qarabağı münaqişə obyekti deyil, münaqişə subyekti kimi qəbul olunmasına iddia edir. Qarabağda fəaliyyət göstərən bir sıra ictimai təşkilat nümayəndələri nəzərdə tutulan icmalararası görüşdə iştirak niyyətində olmadıqlarını bildirirlər. 2018-ci ilin 11-12 oktyabrında İrəvanda keçirilən Frankofoniya tədbirində açılış mərasimində Ermənistanın baş naziri Paşinyan Düşənbə sammitində Azərbaycan prezidenti ilə əldə etdiyi razılaşmalara zidd bəyanat verərək "Dağlıq Qarabağ" rejimindəki erməni icmasını, "Dağlıq Qarabağ xalqı" kimi təqdim edib. Halbu ki, belə bir xalq yoxdur. Dağlıq Qarabağın erməni və azərbaycanlı icması vardır. Eyni zamanda, Paşinyan belə bir mövqe ortaya qoyub ki, Dağlıq Qarabağ danışıqlar prosesində həlledici səsə malik olmalıdır.

Göründüyü kimi, Ermənistan hər bir vəchlə Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında təmasların yaradılmasına mane olur. Ermənistan rəhbərliyi tərəfindən münaqişəyə insan hüquqları donu geyindirilməsi cəhdləri və yaxud Azərbaycanın guya Dağlıq Qarabağda əhali olmadan, yalnız əraziləri istəməsi barədə cəfəng fikirlər səsləndirir. Halbuki, Azərbaycan Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında dialoq formatının

qurulmasına dəfələrlə təşəbbüs göstərmişdir. Bunda da məqsəd bölgənin erməni və azərbaycanlı icmalarının təmsilçiləri olan iki xalqın yenidən birgə yaşamasının mümkünlüyünə dair dialoq aparmaq, bununla da münaqişə tərəfləri arasında qarşılıqlı etimad mühiti formalaşadırmaq olmuşdur. Lakin erməni tərəfi həmişə bu təşəbbüsdən qaçır və Ermənistan tərəfi iki xalqın birgəyaşayışının mümkün olmadığına dair mövqe sərgiləyir. Rəsmi Bakı dəfələrlə bildirib ki, Dağlıq Qarabağın yekun statusu ancaq işğalçı qoşunların Dağlıq Qarabağ da daxil olmaqla bütün ərazilərdən çıxmasından sonra, azərbaycanlıların Şuşa da daxil olmaqla, bu bölgənin inzibati hüdudlarında yerləşən yaşayış yerlərindən qayıtmasından sonra müəyyən edilə bilər.

Yeri gəlmişkən milli etnik konfliktlərin həlli modellərindən biri kimi Brüssel nümunəsi müzakirə oluna bilər. Məlumdur ki, Brüsseldə yaşayan həm flamandlılar, həm fransızdillilər şəhəri özlərininki sayırdılar, baxmayaraq ki, şəhərin tarixi əhalisi flamandlılardır. On doqquzuncu əsrdə keçirilən fransızlaşdırma siyasəti tərəflər arası gərginliyin əsas səbəbi kimi göstərilir. Gərginliyi həll etmək üçün Belçika hökuməti ölkə ərazisini üç regiona – Flandriya, Valloniya, Brüsselə böldü. Əsas münaqişə predmeti olan Brüsselə də özünəməxsus səlahiyyət verildi. Belə ki, bu modelə əsasən, Brüsseli üç icma hökuməti idarə edir. Hər hökumət bir icmanın maraqlarını təmsil edir və həmin icma daxilindəki məsələləri tənzimləyir. Brüsseldə söhbət flamanda, alman, fransızdillilər deyilən üç icmadan gedir. İcma hökumətləri yerli idarəetmə, mədəniyyət, təhsil məsələlərinin həlli ilə məşğuldur. Ancaq Belçikanın bir konstitusiyası var və konstitusiyaya görə hamı ölkə vətəndaşı sayılır. Ordu, polis, məhkəmə sisteminin səlahiyyətləri Belçikanın bütün ərazilərini əhatə edir.

Qeyd edək ki, bu model Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və Azərbaycan dövləti tərkibində yalnız Dağlıq Qarabağ ərazisini əhatə edərsə, orada anoloji icma hökumətləri təcrübəsinə nəzər salına bilər və bu model əraziyə Azərbaycanlı icmasının qayıdışından sonra, Dağlıq Qarabağ və ətraf rayonlarda Ermənistan tərəfindən qeyri-qanuni məskunlaşdırma (dünyanın müxtəlif ölkələrindən, o cümlədən Suriya və Livandan köçürülən ermənilər) siyasətinin nəticələrinin ləğvindən sonra bəzi korrektələrlə müzakirəyə çıxarıla bilər.Yəni orada hər iki icmanın maraqlarına xidmət edən koalision icra strukturu formalaşdırmaq olar.

Ermənistan – Azərbaycan münaqişəsinin tənzimlənməsində məsul beynəlxalq qurum və təşkilatlar beynəlxalq hüququn prinsplərindən çıxış edərək, Qərbi Azərbaycan (indiki Ermənistanın ərazisi) torpaqlarından deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdaraq yaşama haqqını təmin etməyə çalışmalıdır. Necə ola bilər ki, Dağlıq Qarabağda erməni icmasının yaşama haqqına həssas yanaşan bu qurumlar azərbaycanlıların Ermənistan ərazisindən qovulması faktına seyriçi yanaşır.

Problemin əsas həll yollarından biri məhz Ermənistanın müstəqil olmasından keçir. Nə qədər ki, Ermənistan iqtisadi – siyasi cəhətdən müstəqil

deyildir, yəni forpostdur, ərazisində Rusiyanın ordu hissələri yerləşir, dövlət olaraq müstəqil qərarqəbuletmə gücündə deyildir, sözügedən münaqişənin həlli mümkünsüzdür. Nə qədər ki, vasitəçilik misiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri tərəf nümayiş etdirir, Bakıda bir, İrəvanda başqa bəyanat verir, onlar validlik böhranı yaşayacaq və deməli, problemin ədalətli tənzimlənməsini onlardan gözləmək əbəsdir. Güman edirik ki, problemin çözümü xalqlararası dialoqdan keçir. Bunun üçün Azərbaycan soyuq hücum diplomatiyasından əl çəkməmək şərtilə xalq diplomatiyasının imkanlarını səfərbər etməli, Ermənistan cəmiyyətinə birgəyaşayış istiqamətində daha çox mesaylar ötürməlidir. Eyni zamanda, Ermənistan Rusiyanın maşası olmasını dərk edib ondan taktiki imtina yolları aramalı, ona labirintdən başqa heç bir qazanc əta etməyən "Böyük Ermənistan" mərəzindən sağalmağa çalışmalı və Qafqaz evində qonşuları ilə dinc, yanaşı yaşama yolunu seçməli, tolerant, multikultral həyat tərzinə sadiq Azərbaycanla mehriban qonşuluq siyasəti aparmalıdır. Əks təqdirdə erməni tərəfinin icmalararsı dialoqdan qaçması sülh üçün sonuncu şansları da aradan qaldıra bilər və bu halda itirən Ermənistan olacaq. Çünki bu münaqişədə Azərbaycanın bir çox üstünlükləri vardır. İlk növbədə güclü iqtisadi, hərbi immunitetə, insan kapitalına malik ölkəmiz haqq işi uğrunda savaşır, ikincisi və ən əsası Azərbaycanın üstünlüyü onun başında İlham Əliyevin timsalında böyük vətənpərvər, rasional-leqal liderinin durması, Mübariz İbrahimov örnəkli əsgərə sahibliyi, liderinə inanan və ona həmişə dəstək verən müdrik xalqın olmasıdır.

**ƏDƏBİYYAT**

1.1925-ci il mayın 19-da Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin (MİK) Kiçik Rəyasət Heyətinin iclas qərarına uyğun olaraq (protokol № 12) http://www.elibrary.az/docs/JURNAL/jrn2011_650.pdf
2.2008-ci il martın 14- də BMT Baş Məclisinin 62-ci sessiyasında Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair A/RES/62/244 saylı qətnamə http://www.elibrary.az/docs/JURNAL/jrn2011_650.pdf
3. "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" (A/59/720-S/2005/132) http://www.elibrary.az/docs/JURNAL/jrn2011_650.pdf
4.Azərbaycan tarixi üzrə mənbələr. Bakı, 1989, s.276
5. A/RES/60/285 qətnamə . http://www.elibrary.az/docs/JURNAL/jrn2011_650.pdf
6.BMT Baş Məclisinin 2005-ci il 20 sentyabr tarixli iclasında 40-cı nömrə altında 60-cı sessiyanın gündəliyi .http://www.elibrary.az/docs/JURNAL/jrn2011_650.pdf
7.BMT- nin rəsmi sənədləri (A/59/747-S/2005/I87). http://www.elibrary.az/docs/JURNAL/jrn 2011_650.pdf
8. İşxanyan B. "Qafqaz xalqları" Petroqrad. 1916-cı il
9.Haykazyan «Erməni tarixi»., Fransa. 1919-cu il
10. Manuk Avakyan, «Erməni ədəbiyyatı tarixi», İrəvan, 1975.
11."Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova "Sputnik Azerbaydjan" (20.10.2016.)
12. RK(b) P MK Siyasi bürosunun 1923-cü il noyabrın 22-də keçirilən iclasında (protokol № 47) http://www.elibrary.az/docs/JURNAL/jrn2011_650.pdf
13. "Xalq qəzeti" (2001 -ci il, 26 yanvar)
14. ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Komissiyasının 1922-ci il iyunun 12-də (protokol

№ 17) və iyulun 9-da keçirilən iclaslarında (protokol № 18) .
http://www.elibrary.az/docs/JURNAL/jrn2011_650.pdf
15. Грибоедов. А. Записка о переселении армян из Персии в наши области, т.2. М., 1971, с.438
16. Величко В.Л. "Кавказ: Русское дело и междуплеменные вопросы, 1954, с.144.
17. Глинка С. Описание переселения армян Азербайджанских в пределы России. Баку: Элм, 1990, с.144.
18.Кавказский календарь Российской империи 1897 г., LXIII – Елизаветская губерния. СПб, 1904, с.483.
19. Шавров. Н. Новая угроза русскому делу в Закавказье. СПб, 1911, с.61.
20 . Грузия МДТА, Ф.2. сп.1, дело 3859, с.314, л.20.

## ВОЗМОЖНО ЛИ, ОРГАНИЗОВАТЬ ОБЩИННОЕ ПРАВЛЕНИЕ В НАГОРНОМ КАРАБАХЕ?

**У.А.ШАФИЕВ**

### РЕЗЮМЕ

В данной статье рассматриваются сущность армяно-азербайджанского конфликта, причины и историческая динамика развития проблемы, анализируются реальная ситуация конфликта, политика государств, заинтересованных в обострении проблемы, возможные нормативные требования и решения. На фоне исторического сравнительного и аналогичного сравнительного анализа автор рассматривает вариант реалистичного решения.

**Ключевые слова**: общинное правительство, Брюссельская модель, народная дипломатия, конфликт, мирные переговоры

## IS IT POSSIBLE TO ORGANIZE COMMUNITY BASED GOVERNMENT IN NAGORNO-KARABAKH?

**U.A.SHAFIYEV**

### SUMMARY

This article examines the essence of the Armenian-Azerbaijani conflict, the reasons of it, and the historical development dynamics of the problem. The article analyzes the real situation of the conflict, the policies taken by the states interested in escalating the problem, the possible regulatory requirements and solutions. In contrast to historical comparative and anatomical comparative analysis, the author sheds light on the realistic solution option-conclusion led by situation.

**Keywords**: community based government, Brussels model, nation diplomacy, conflict, peace negotiations

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2019

UOT 316.42

# G.A.OLİVİERİN SƏYAHƏTNAMƏSİNDƏ İSTANBULUN ETNİK VƏ MƏDƏNİ MÜXTƏLİFLİYİ HAQQINDA

**H.Q.CAVADOVA, G.Q.XANBABAYEVA**
*Bakı Dövlət Universiteti*
*cavadova22@mail.ru*

*Qədim və zəngin mədəniyyətə sahib olan Türkiyə bütün tarixi dövrlərdə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bunun nəticəsidir ki, əsrlərboyu bir çox səyyah, tacir və yazıçı bura səyahət etmişdir. XVIII əsrdə Türkiyəyə gəlmiş fransız səyyahı Giyom Antuan Olivier1801-1807-ci illər arasında altı cilddən ibarət "Osmanlı imperiyası, Misir və İrana səyahət" adlı əsərini nəşr etdirir. Altı cildlik əsərinin dörd cildini Osmanlı imperiyasına həsr edən Olivier səyahətnaməsində gəzdiyi yerlərin coğrafiyası və təbii sərvətləri, burada yaşayan xalqların adət-ənənələri, inancları, məşğuliyyəti, dövlətin tarixi və idarə etmə sistemi, iqtisadi-siyasi vəziyyəti və sosial həyatını təsvir etmişdir.*

*Məqalədə fransız səyyahı Olivierin böyük bir şəhər olan İstanbulu digər Avropa şəhərləri ilə müqayisə etməsindən, bu şəhərin əsas əhalisi olan türklərin və qeyri-millətlərin dini etiqadları, mədəniyyəti, məişəti və məşğuliyyətlərindən geniş bəhs olunur.*

**Açar sözlər:** G.A.Olivier, səyahətnamə, İstanbul, etnik tərkib, mədəniyyət

XVIII əsrdə Osmanlı İmperiyasının paytaxtı olan İstanbul səyyahların diqqətini daha çox cəlb edirdi. İstanbulu hələ də qədim Bizans torpağı hesab edən avropalı səyyahlar bu şəhər haqqında oxuduqları məlumatları öz gözləriylə görmək istəyirdilər. Bu səyyahlar müsəlmanları, xüsusilə də türkləri despot və barbar hesab edir, qədim Bizans torpaqlarının belə bir xalqın hakimiyyəti altında olması onlarda təəssüf hissi doğururdu. Səyyahların qeyri-müsəlman olmaları onların obyektiv müşahidə aparmasına mane olurdu. Səyyahların əksəriyyəti onlardan əvvəl buraya səyahət etmiş səyyahların fikirlərini əsas götürərək öz şəxsi müşahidələrinə çox az yer verir və əsərlərində heç bir yenilik göstərmirdilər. Onların çox az bir qismi şəhər və onun əhalisinin etnik tərkibi haqqında düzgün məlumatlar verirdilər. Səyyahların əsərlərinə öz şəxsi mülahizələrini də əlavə etdiklərini nəzərə alsaq, onların verdikləri məlumatların hamısını düzgün hesab etmək olmaz. Bununla belə, səyahətnamələr həmin dövr haqqında müəyyən qədər məlumat əldə etmək üçün dəyərli mənbə hesab olunur. Belə səyahətnamələrdən biri də XVIII əsrdə Türkiyəyə gəlmiş fransız səyyahı Giyom Antuan Olivier tərəfindən qələmə alınan "Osmanlı imperiyası, Misir və İrana səyahət" adlı əsərdir.

Özündə bir çox sirləri gizlədən və müxtəlif mədəniyyətləri bir araya toplayan İstanbul Olivierə “Min bir gecə” nağılını xatırladırdı. Şəhərin gözəlliyinə valeh olan səyyah, eyni zamanda burada mövhumatçı, elm və incəsənətə düşmən olan insanların yaşamasından da gileylənirdi. Bununla belə, Osmanlı İmperiyasının bu nəhəng paytaxtında yaşayan mübariz və möhkəm dini etiqada sahib olan türk millətinin həyat tərzi, adət-ənənələri onu maraqlandırırdı. O düşünürdü ki, İstanbul kimi bir çox mədəniyyəti özündə əks etdirən bir şəhərin əhalisi haqqında məlumat toplamamış buranı tərk etmək düzgün olmazdı. Öz biliyi və elmi təcrübələrinə əsaslanaraq səyyah ölkə və xüsusilə də İstanbul haqqında ətraflı məlumat vermişdir.

**Giyom Antuan Olivierin səyahətnaməsində İstanbulun etnik tərkibi**

1746-cı ildə Tulon şəhəri yaxınlığındakı Arkda dünyaya gələn fransız naturalisti Giyom Antuan Olivier təhsilini Monpelye universitetinin tibb fakültəsində almışdır. O, doğma şəhərində tibblə məşğul olsa da, sonradan bu sahəyə marağı azalmışdır. Fransız naturalisti Pyer Mari Ogüst Brusone ilə tanışlığı onda təbiət tarixinə maraq oyatmış,Hollandiya və Böyük Britaniya kimi ölkələrə həşərat yığmaq üçün göndərilmişdir.

1792-ci ildə fransız hökumətinin göstərişi ilə Olivier və fransız naturalisti Jan-Giyom Brügier Şərqə diplomatik və elmi məqsədlərlə səfər edirlər. Altı il davam edən bu səfər zamanı onlar Osmanlı imperiyasına, Misirə və İrana səyahət ediblər. Lakin onlar Fransaya qayıdarkən Brügier yolda ağır xəstələnir və 1798-ci ilin oktyabrında vəfat edir. Olivier isə Brügierlə birlikdə topladığı bitki və həşəratlardan ibarət dəyərli kolleksiya ilə Fransaya qayıdır. Hazırda bu kolleksiya Parisdə Milli Təbiət Tarixi muzeyində saxlanılır.Bu kolleksiyanın kiçik bir hissəsi isə Edinburq muzeyindədir. Bu xidmətinə görə 1799-cu ildə Fransız İnstitutunun üzvü seçilən Olivier 1800-cü ildə həmin İnstitutun Anatomiya və Zoologiya bölməsinin üzvü olan Lui Jan-Mari Dobentonu əvəz edir. 1801-1807-ci illər arasında onun altı cilddən ibarət “Osmanlı imperiyası, Misir və İrana səyahət” adlı əsəri işıq üzü görür. Elm aləmində müsbət qarşılanan bu əsər dərhal xaricdə ingilis, alman, holland, ispan və italyan dillərinə tərcümə olunur. Lakin Olivierin bu uğuru keçici xarakter daşıyır və kitab bir daha Parisdə nəşr olunmur. O, Metodik ensiklopediyada həşəratlar və hörümçəklərlə bağlı məqalələr nəşr etdirir. Məqalələrindən əlavə onun 1789-1808-ci illərdə altı cildlik “Həşəratların təbiətinin tarixi” əsəri,1790-1811-ci illərdə isə Metodik ensiklopediyada “Həşəratlar lüğəti”nin ilk 4 cildi çap olunur. Olivier 1814-cü ildə Lyon şəhərində vəfat edir.

Altı cildlik əsərinin dörd cildini Osmanlı imperiyasına həsr edən Olivier həmin dövrdə dövlətin tərkibinə daxil olan İstanbul, Ege adaları, Girit, Misir, Suriya və Mesopatamiyaya səyahət etmişdir. O, səyahətnaməsində gəzdiyi yerlərin coğrafiyası və təbii sərvətləri, burada yaşayan xalqların adət-ənənələri, inancları, məşğuliyyəti, dövlətin tarixi və idarə etmə sistemi, iqtisadi-siyasi vəziyyəti və sosial həyatını təsvir etmişdir. Olivier səyahətnaməyə tarixi əsər kimi yanaşaraq gördüklərini oxucularla bölüşərkən heç bir gülməli əhvalat-

lardan istifadə etməmişdir.

Olivierin qeyd etdiyinə görə həmin dövrdə İstanbulun əhalisi əsasən türk, yunan, erməni, yəhudi və avropalılardan ibarət idi. Bu da öz növbəsində müxtəlif dilləri, dinləri və adətləri bir araya gətirirdi. Əhalinin əsas hissəsini türklər, altıda birini isə yunanlar təşkil edirdilər. Yunanlarla müqayisədə erməni və yəhudilərin sayı daha az idi. Bundan başqa İstanbulda Osmanlı sarayına xidmət göstərən iki mindən çox səfir və dövlət agentləri, həmçinin ticarət məqsədilə bura gələn avropalılar da yaşayırdılar.

Həmin dövrdə dövlət tərəfindən İstanbul və onun ətraf əraziləri un və taxıl ilə təchiz olunurdu. Əhalinin gündəlik nə qədər un sərf etdiyini nəzərə alaraq səyyah Pera, Qalata, Müqəddəs-Dimitri, Skutari, Bosforda və onun ətrafında yerləşən bütün qəsəbələr də daxil olmaqla bu böyük şəhərin əhalisinin sayının 500 mindən çox olduğunu qeyd edirdi.

**İstanbulun müsəlman əhalisinin məşğuliyyəti və mədəniyyəti**

Şəhərin müsəlman əhalisi türk və ərəblərdən ibarət idi. Dəniz donanması istisna olmaqla, dövlətin bütün yüksək rütbələrində onlar çalışır, yeniçərilər və digər hərbi qulluqçular türk və ərəb olan müsəlmanlardan təşkil olunurdu. Şəhərdə türklər üstünlük təşkil edirdilər. Onlar şəhərin bütün yerlərində və şəhərətrafı bütün ərazilərdə məskunlaşmışdılar. Türklərin bəziləri geniş bizneslə, böyük əksəriyyəti isə pərakəndə şəkildə ticarətlə məşğul olurdular. Bundan əlavə yazını, qanunları və dini öyrədən bəzi sənət növlərini də tətbiq etməyi bacarırdılar.

Səyyahın qeyd etdiyinə görə, əksəriyyəti təhsilsiz və xurafatçı olan müsəlmanlar çox təkəbbürlüdürlər. Onların öyrəndikləri elmlər Qurana və müsəlman alimlərinin bu kitabın şərhlərinə əsasən yazdıqları əsərlərə əsaslanırdı. Onlar daha çox poeziya ilə, fars və ərəb dillərinin öyrənilməsi, astrologiya ilə maraqlanır, çox az bir hissəsi riyaziyyat və astronomiyanı tətbiq edə bilirdilər. Bu adamlara tarixin yalnız onlarla əlaqəsi olan hissəsi məlum idi, digər xalqlar, hətta yaşadıqları ərazidə onlardan əvvəl yaşayanlar haqqında tamamilə məlumatsız idilər. Müsəlmanlar coğrafiya, fizika, donanma və hərbi taktikalar haqqında heç bir məlumata malik deyildilər. İncəsənət sahəsində isə boyaqçılıq və müxtəlif parçaların, qılınc və bıçaqların tiyələrinin istehsalı istisna olmaqla, digər sahələr isə ya primitiv şəkildə olmuş, ya da heç inkişaf etməmişdi. Lakin Olivierin müsəlmanlar haqqında verdiyi bu məlumatlar heç də həqiqətə uyğun deyil. Belə ki, altı yüz illik hökmranlığı ərəfəsində Osmanlı İmperiyası elm və texnologiyada, xüsusilə də riyaziyyat, astronomiya və tibb sahələrində böyük irəliləyişlər əldə etmişdilər [3]. Olivier türklərin təbabətə aid biliklərinin atadan oğula keçməsindən bəhs etsə də, Fransız səfiri d''Aramon ilə İstanbula gələn coğrafiyaşünas və səyyah Nikolas de Nikolay isə 1551-ci ildə Türkiyədə və xüsusilə də İstanbulda tibbin öyrədildiyini, bu sahədə təhsil almaq istəyənlərə həm təcrübi, həm də tətbiq etmə sahəsində biliklərin tədris edildiyindən bəhs etmişdir.

Daha sonra səyyah mədrəsələr və burada təhsil alan tələbələrdən bəhs

etmişdir. Olivierin verdiyi məlumata görə mədrəsələrdə verilən təhsil daha çox dini xarakter daşıyırdı və bu mədrəsələrdə 2-3 min tələbə təhsil alırdı.

Səyyah uzun müddətdən bəri avropalıların, xüsusilə də fransızların türklərə bəzi sənət növlərini öyrətmək istəmələrinə baxmayaraq heç bir müvəffəqiyyət qazana bilmədiklərini qeyd edirdi. Buna səbəb kimi isə xalqın xurafatçı, cahil və təkəbbürlü olmasını əsas gətirirdi. Türklərə top və bomba atmağı, gəmi hazırlamağı, tüfəng, süngü və top qundağı düzəltməyi, dəmir və gümüş üzərində işləməyi, sabun hazırlamağı məhz fransızlar tərəfindən öyrədilməsi də qeyd olunurdu.

Türkləri mövhumatçı, cahil və tənbəl hesab edən səyyah onların taleyin hökmünə inanclı kimi göstərirdi. Onların fikrincə əgər əcəl yetişibsə bunu heç cürə dəyişmək olmaz. Türklər dinlərinə zidd olan hər şeyə nifrətlə yanaşırlar. Əgər onların dinini təhqir edəcək nəsə deyilərdisə, hətta qarşılarındakıları öldürə bilərdilər.

Əksər avropalı səyyahlar kimi Olivier də türkləri despot adlandırır və onların öz təəbələrinə qarşı amansız olduqlarını bildirirdi. Bunu türk cəmiyyətinin başlıca problemi hesab edən səyyah məhz bu faktın onların "hörmətli millətlər" sırasına daxil olmasına mane olduğunu düşünürdü.

Türklərin adət-ənənələrinin tamamilə avropalılardan fərqləndiyini qeyd edən müəllif, onların müsəlman qaydalarına əsasən yaşadığını göstərirdi. Belə ki, onun verdiyi məlumata əsasən müsəlman vətəndaşların həyatı ilə bağlı hər şey Quranda yazılan qaydalar çərçivəsində aparılırdı. Türklərin öz adət-ənənələrinə sadiq millət olduğunu, qaydalara sərt şəkildə əməl etdiklərini, hətta adətlərə qarşı çıxanları ölümlə cəzalandırdıqlarını bildirirdi.

Müsəlman qadınları onların bədənlərini örtən çarşabla gəzirdilər, yalnız əri və çox yaxın qohumları qadının üzünü görə bilərdi. Onların toy adətlərinə gəldikdə isə, kişi və qadının toydan əvvəl bir-birlərinin üzlərini görməsi qadağan idi. Müsəlman qanunlarına əsasən hər kişinin dörd qanuni arvad, eyni zamanda imkanı çatdığı qədər kəniz ala bilmək hüququ var idi. Ölkəyə gətirilən qullarla evlənmək icazəsi yalnız müsəlmanlara verilir, onlardan doğulan uşaqlar isə azad hesab olunurdular. Yəhudi və xristianların qullarla evlənmək hüququ yox idi. Müsəlman kişilərə başqa dindən olan qadınlarla evlənmək qadağan edilirdi. Toyların müsəlmanlarda cümə günü, xristianlarda bazar günü, yəhudilərdə isə şənbə günü olması gostərilirdi.

Olivier türkləri bəzən despot adlandırsa da, ümumilikdə onları oxuculara cəsur, öz hüquqlarını tələb edən və sözlərinin üstündə duran bir millət kimi təqdim edir. Onun fikrincə türklərə həmişə etibar etmək olar. Səyyahın verdiyi məlumata görə sultan və onun tərəfdaşları nə qədər çox səlahiyyətə malik olsalar da, hər hansı bir haqsızlıq qarşısında xalq həmişə mübarizə aparmağa hazır olmuşdur. Təbiətcə təmkinli və mübariz olan belə bir xalqın karagöz tamaşasında ürəkdən gülməsini görəndə səyyah öz təəcübünü gizlədə bilmir.

İngilis səyyahı Henry Blount öz əsərində türklər haqqında belə söyləmişdir: "Türkləri tam olaraq tanımaq üçün bir müddət onların özləriylə

birlikdə qalmaq lazımdır"[1].

**Yunanlar haqqında**

Yunanlara gəldikdə isə səyyah onların şən, məzəli və cəld olduqlarını göstərirdi. Onlar limanın sonundakı Fanaraki adlandırılan məhəllələrdə məskunlaşmışdılar. Bundan əlavə, onların böyük bir qismi Pera və Qalatada avropalıların arasında yaşayırdılar. Büyükdere, Müqəddəs-Dimitri və Arşipel adalarında da yunanların yaşadığını görmək mümkün idi. Büyükderedə yaşayan yunanlar burada o qədər də sərbəst deyildilər. Təbiətcə şən olan bu xalq burada cəmiyyətin monoton həyatına dözməli olurdu. Səyyahın fikrincə Arşipel adalarında yaşayan yunanlar onların vətənini işğal edən zalımlardan fərqli olaraq, öz nikbinliklərini, fəallıqlarını və azadlıq sevgilərini qoruyub saxlamışdılar.

Musiqi və rəqsdən zövq alan yunanlar müxtəlif peşələrdə çalışır, ticarət və dənizçiliklə məşğul olurdular. Donanmada matrosların əksəriyyətini yunanlar təşkil edirdilər. Dənizçilər sahildəki müxtəlif şəhərlərə səyahət edir, şəhərin Avropa hissəsi istisna olmaqla quruya az çıxırdılar. İmperiyanın qalan hissəsində isə kənd təsərrüfatı ilə məşğul olurdular. Uzun illərdən bəri şəhər kənarı boş sahələr Epire və Dalmatiya yunanları tərəfindən uğurla becərilir və bol məhsul əldə edilirdi. İstanbulun digər bir adası Müqəddəs-Dimitridə isə çoxlu üzüm bağlarının olduğu yunan kəndinə rast gəlmək mümkün idi.

Varlı yunanlar təhsilli, bacarıqlı və çox fitnəkar idilər. Onlar müxtəlif dilləri öyrənir, İmperiyanın yüksək vəzifələrində çalışan türklərin yanında həkim, tərcüməçi, yaxud iş adamı kimi işləmək üçün heç nəyi əsirgəmirdilər. Burada yaşayan qədim yunan ailələri isə sarayda baş tərcüməçi şərəfinə nail olmağa can atırdılar.

Əsasən limana yaxın yerlərdə məskən salan bu şən xalq eyni zamanda mövhumatçı, utancaq və qatı dindar idilər. Onlar oruc və pəhrizlərinə qəti şəkildə riayət edirdilər. Ruhanilərin sayı çoxluq təşkil edir və onlar öz adətlərini sərt şəkildə nümayiş etdirirdilər. Baş ruhanilər təhsilli və kifayət qədər varlı idilər. Məhəllə keşişləri və rahibləri isə kasıb və cahil idilər.

**Ermənilər haqqında**

Yunanlardan sonra əhalinin müəyyən hissəsini təşkil edən ermənilərin, demək olar ki, hamısı ticarətlə məşğul olurdular. Müəllifin sözlərinə görə, bu sahədə çox fərasətli olan ermənilər Osmanlı imperiyasında böyük ticarətlərə rəhbərlik edir, Asiya və Hindistana kimi səyahət edirdilər. Onlar ticarət zamanı öz mallarının keyfiyyətindən danışarkən bacardıqları qədər yalan danışır və varlanmaq üçün bütün yollara əl atırdılar. Ermənilər paşaların və digər vəzifəli şəxslərin bankirləri, tədarükçüləri və iş adamları kimi fəaliyyət göstərirdilər. Cahil və mövhumatçı olan ermənilər dini öhdəliklərinə sərt şəkildə riayət edir, şəhərin mərkəzində və şəhərətrafı qəsəbələrdə yaşayırdılar. Varlı ermənilər isə artıq bir müddətdir ki, avropalılara qarışmadan avropalılar arasında məskən salmışdılar.

Səyyahın fikrincə, öz adət və dini öhdəliklərinə sadiq olan bu cahil və xurafatçı xalqın bircə təhsili və dövləti çatışmırdı ki, onlar tarixdə əbədi olaraq

bir millət kimi qala bilsinlər.

**Yəhudilər haqqında**

Avropadan fərqli olaraq yəhudilər, İstanbulda daha pis yaşayırdılar. Olivierin verdiyi məlumata əsasən, ticarətin bütün sahələri ilə məşğul olan yerli yəhudilər daha cahil, kasıb və mövhumatçı idilər. Yəhudilər tibb sahəsində daha bilikli idilər, çünki onlar ibrani, ərəb və yunan dilində yazılmış əsərlərdən istifadə edə bilirdilər. Əsasən, şəhərin mərkəzində yaşayan yəhudilərin çox az bir qismi Pera və Qalatada yaşayırdılar. Onlar mənfəət əldə edəcəkləri bütün ticarət növlərini yaxşı hesab edirdilər. Aralarında heç əkinçi olmayan yəhudilərin çox az bir qismi həkim, tərcüməçi və iş adamlarından ibarət idi. Türk gömrükçüləri malları qiymətləndirməkdə və vergiləri yığmaqda onların köməyindən istifadə edirdilər. Varlı yəhudilər sələmçiliklə məşğul olur, vasitəçi, bankir, yaxud tacir kimi fəaliyyət göstərirdilər. İmperatorluğa öz sərvətlərini və elmlərini daxil edən yəhudilər Osmanlı hökmdarları tərəfindən həkim, maliyyəçi, sənətkar, siyasi və ya diplomatik məsləhətçi kimi hörmət edilir və yüksək qiymətləndirilirdi [2].

Öz adətlərinə və dini öhdəliklərinə ciddi şəkildə riayət edən yəhudilər qazanc əldə etməkdə də ermənilərdən geri qalmırdılar. Pul yığmaqda ermənilər kimi tamahkar, onlarla müqayisədə daha nəzakətli idilər. Digər dinlərə mənsub insanlarla ünsiyyətdə o qədər də tələbkar deyildilər. Türklərin arasında yaşayan yəhudilər daha uzaq ərazilərdə yaşayır və onlar müsəlmanları görəndə tir-tir əsirdilər. Səyyah hesab edirdi ki, yəhudilərin bu anti-sosial dinləri onları həmişə digər millətlərdən ayıracaq. Belə cahil şəkildə yaşamağa davam etdikləri və onları idarə edən ruhanilərə inandıqları müddətcə yaşadıqları ərazilərin digər sakinlərindən həmişə fərqlənəcəklər.

**İstanbul və onun ətraf ərazilərində məskunlaşan əhalinin məişəti və yaşam tərzi**

Əcnəbi vasitəçilər istisna olmaqla Pera bütün səfirlərin, əcnəbi saray agentlərinin və demək olar ki, bütün əcnəbilərin məskunlaşdığı yer idi. Ticarət mərkəzlərinə və limana uzaq olmasına baxmayaraq Pera ən çox əhalinin məskunıaşdığı yerlərdən biri idi. Burada evlər çox baha idi, buna səbəb isə türklərin təhqirlərindən az da olsa rahatlamaq üçün və avropalıların sayəsində az da olsa azad olduqlarını hiss etmək üçün varlı ermənilərin bura köçməsi idi.

Limana və öz iş yerlərinə daha yaxın olmaq üçün vasitəçilər Qalatada məskunlaşmışdılar. Lakin onların bu məhəllədə məskunlaşmalarının əsas səbəblərindən biri buradakı evlərin daşdan olması idi.Burada onların ticarət etməsi üçün möhkəm tikilmiş mağazaları var idi. Bu mağazaların bütün pəncərələri misdən hazırlanmış qapaqlarla örtülmüşdü. Bu yolla onlar, bu şəhərdə baş verə biləcək çaxnaşmalar zamanı öz təhlükəsizliklərini təmin etmiş olurdular.

Şəhərin əsas hissəsini türklər təşkil etsə də, səyyah həmişə qeyri-millətləri onlardan üstün tutur, ordu və hökumət işlərindən başqa türklərin heç nə ilə məşğul olmadıqlarını göstərirdi. Onun qeydlərinə əsasən türklər əkib

becərməyi sevmirdilər. Onların üstünlük verdiyi peşələr təhlükəli silahlarla bağlı işlər idi. Dövlət agentləri, yaxud paşaların da bacara bilmədikləri quldur dəstələri tərəfindən incidilmədikləri təqdirdə kənd təsərrüfatı ilə yunan, erməni və ərəblər məşğul olurdular. Olivierə görə türklər dənizi sevmirdilər, onlar bir dənizçinin yaşamağa məcbur olduğu fəal həyata uyğunlaşa bilməzdilər. Buna görə də özlərinin bacarmadığı, lakin yunanların ustalıqla etdiyi bu işdə onların xidmətindən istifadə edirdilər. Yunanlar yaxşı tanıdıqları dənizlərdə kiçik gəmiləri necə hərəkət etdirəcəklərini çox yaxşı bilirdilər. Onların heç birinin dənizçilik haqqında məlumatları yoxdur. Demək olar ki, hamsı gəmi səfərinə kompassız çıxır, yalnız dağ və sahillərə əsasən hərəkət edirdilər. Külək bir az güclənən kimi isə ən yaxın limanda havanın yaxşı olmasını gözləyirdilər. Türklər dənizi sevmədikləri üçün balıq tutmaqla da əsasən yunan, erməni və avropalılar məşğul olurdu.

Matroslar və hərbi donanmanın əsgərləri iki hissəyə bölünürdülər. Birincilər dəniz sahili şəhərlərdən olan türklər, yaxud Arşipeldən olan yunanlardan ibarət idilər. Onlar burada daimi işləyir, maaş alır və həmişə ilk cərgədə yola düşürdülər. İkincilərin isə hamısı müsəlmanlardan təşkil olunmuşdu. Onlar yalnız işçi olanda maaş alırdılar. Tərksilah olandan sonra onlara öz ölkələrinə çıxıb getmək və gündəlik məşğuliyyətləri ilə məşğul olmağa icazə verilirdi. Yunanlar gəmilərdə daha çox fəhlə kimi işləyirdilər. Gəminin müdafiəsi isə müsəlmanların əlində idi. Türklər heç vaxt təbəələrindən olan qeyri-türk millətinə müdafiəni həvalə etməzdilər, bəlkə də bilirdilər ki, yunanlar heç vaxt onların uğrunda vuruşmaz.

Şəhərdə yaşayan millətlərin müxtəlifliyinə baxmayaraq onların birgə yaşadıqları ərazilər də çox idi. Büyükderedə avropalılar, yunanlar və ermənilərin yaşadığı romantik üslubda tikilmiş villalar var idi. Məhz bu evlərdə avropalı səfirlər yaşayırdılar. İstanbulun adası sayılan Skutaridə 60 minə yaxın sakin yaşayırdı. Skutari sakinlərinin böyük əksəriyyəti müsəlmanlardan ibarət idi. Bununla belə, bu ərazidə müəyyən qədər yunan, az da olsa erməni və yəhudiyə də rast gəlinirdi. Ticarət mərkəzi rolunu oynayan Skutaridə müsəlman və xristian qəbiristanlıqları da mövcud idi. Büyükdere daha çox avropalıların, yunanların və ermənilərin yaşadığı yer kimi göstərilirdi.

Səyyahın məlumatına görə şəhərə daxil olduqda hər tərəfdə təəccübləndirici sakitlik hökm sürürdü. O qeyd edirdi ki, küçələrdə gördüyü insanlar öz davranışları ilə bir-birlərindən fərqlənirdilər. Müsəlmanlar məğrur və cəsur, erməni və yəhudilər, hətta həmişə şən olan yunanlar da sakit və utancaq görünürdülər. Onların görünüşlərindəki bu fərqlilik kifayət edirdi ki, bura gələn əcnəbilər onları bir-birindən ayıra bilsinlər. Bundan başqa, onlar bir-birlərindən geyimləri ilə də fərqlənirdilər. Bu millətləri ayıran digər bir cəhət isə yaşadıqları evlərin rəngləri idi. Ortaköy, Kuruçeşme və Arnavudköydə taxtadan hazırlanmış və müxtəlif şəkillərlə bəzədilmiş gözəl evlərə rast gəlmək olurdu. Türklərin evləri ağ və qırmızı, yunan, erməni və yəhudilərin evləri isə tünd qəhvəyi rəngdə idi. Paltarlar kimi evlər də kimin sahib, kimin isə qul olduğunu

göstərməli idi.

Olivierin qeydlərinə əsasən, Pasvanoğlu üsyanı ərəfəsində yəhudi, erməni, yunan, hətta avropalılar çox ehtiyatlı davranırdılar. Onlar, hətta gündüz vaxtı da Pera və Qalatanın bir az geridə qalmış məhəllələrindən keçməyə çəkinir, gecə olmamış evə qayıtmağa tələsirdilər. Buna baxmayaraq, çoxlu sayda insan Qalatada saxlanılır, yaxud oğurlanırdı, bəziləri isə hətta öldürülürdülər. Lakin həmin dövrdə hökümətin sərt qaydalarına baxmayaraq Perada bir çox evlərdə avropalı matroslar, yunanlar, hətta türklər toplaşaraq sərxoş olana kimi içirdilər. Dənizçilər arasında tez-tez mübahisələr baş verirdi ki, bu da bəzi hallarda onlardan birisinin ölümü ilə nəticələnirdi. Səyyah İstanbula təzə gəldiyi vaxtlarda bir yunanın öldürülməsinin şahidi olduğunu və bunun cəzasız qaldığını qeyd etmişdir.

Kasıb yunan, erməni və yəhudilərin evlərində kişi və qadınlar bir otaqda, müsəlmanlarda isə ayrı-ayrı otaqlarda yatırdılar. Müsəlmanlar evlərini manqal adlandırdıqları bişmiş torpaq, yaxud misin közü ilə isidirdilər. Yunanlar, ermənilər və bəzi müsəlmanlar isə təndir adlandırdıqları kvadrat, yaxud dairəvi formalı və çoxlu xalçalarla örtülmüş stolun altına közü qoyaraq evi isidirdilər.

Olivier digər Avropa şəhərlərində olduğu kimi, İstanbulda da əhalinin illik gəlir əldə etdikləri torpaq mülkiyyətlərinə sahib olduqlarını düşünürdü. Lakin sonradan bunun heç də belə olmadığını göstərir. Təəccüblüdür ki, bu böyük şəhərin, demək olar ki, bütün əhalisinin qazancı vəzifəli şəxslər və dövlət adamlarından, yaxud şəxsi sənayelərdən gələn gəlir hesabına əldə olunurdu.

Səyyahın verdiyi məlumata görə, İstanbulda yerli əhalidən əlavə imperiyaya gətirilib satılan çoxlu sayda qullar da var idi. Hərəmxanaya hər il gürcü, çərkəz və həbəşlərdən ibarət həm qız, həm də oğlanlar gətirilirdi.

Perada dövlətin maddi yardımı ilə saxlanılan gənc oğlanların yaşadığı böyük bir saray görmək mümkün idi. Bu gəncləri sarayın iç oğlanları adlandırırdılar. Bu gənclər sultana xidmət etmək və sarayda əsas vəzifələrdə çalışmaq üçün yetişdirilirdi. Tərbiyəçilər hər gün onlara türk, ərəb, fars dillərini tədris edirdilər. Bundan başqa, həmin gənclərə Quran ayələri, həmçinin at çapmaq, məharətlə qılınc oynatmaq öyrədilirdi. Bəziləri isə, sarayın daxilində ağ dərili eşik ağaları tərəfindən böyüdülür, kiçik bir səhvə yol verdikdə sərt cəzalandırılırdılar. Bu gənclər müharibədə əsir götürülən xristian uşaqları, yaxud satın aldıqları gürcü və çərkəzlərdən ibarət idi. Son dövrlərdə müsəlman uşaqlarında da saraya iç oğlanlar götürülürdü. Buna səbəb kimi türklərin əvvəlki kimi müharibədən əsir götürə bilməmələri göstərilirdi.

İstanbula gətirilən gürcü və çərkəz qızları isə hərəmxanalarda öz ağalarına xidmət edir və uşaq dünyaya gətirirdilər. Əksəriyyəti ağ, bəziləri isə sarışın, yaxud qarabuğdayı olan bu qızlar avropa cizgilərinə və gözəl bədən ölçülərinə malik idilər. Bura gətirilən qullar adətən yetkinlik yaşına çatmamış olurdular. Beləliklə, türklər onları müsəlman qaydalarına görə tərbiyə edə bilirdilər. Bu qulları satın alan sahibləri onları böyüdərkən öz uşaqlarından ayırmırdılar. Qulları almağa isə yalnız türklərin icazəsi var idi. Avropalılar sultanın

fərmanı olmadan qul bazarına girə bilməzdilər. Gətirilən qara dərili qullara da ağ dərili qullar kimi davranılsa da, onlar nadir hallarda öz ağalarıyla bir çarpayını paylaşırdılar. Bir neçə il xidmətdən sonra əksəryyətini ağ dərililərə ərə verir, sonra isə onların hər ikisini azad edirdilər. Lakin çox vaxt onları azad etməyərək işlətməyə davam edirdilər.

Digər səyyahlar kimi Olivier üçün də İstanbul antik mədəniyyət ocağı və sirli bir şəhər olmuşdur. Hər bir səyahətnamədə olduğu kimi, Olivierin bizə təqdim etdiyi əsərdə də həm doğru, həm də yanlış məlumatlara rast gəlmək olur. Bununla belə, bu əsər həmin dövrdə Osmanlı imperiyası və burada yaşayan əhalinin etnik tərkibi və milli mədəniyyətləri haqqında geniş məlumat verir. Səyahətnamədə İstanbul əhalisinin etnik tərkibi, dini etiqadları, məişəti, adət-ənənələri, məşğuliyyətindən bəhs olunur. O, İstanbulda yaşayan türklərlə yanaşı, digər xalqların da dərin xarakteristikasını verə bilmiş, türkləri cəsur, mərd, öz milli və mənəvi dəyərlərinə sadiq bir xalq kimi səciyyələndirmişdir. O dövrdə İstanbul əhalisinin dil və mədəniyyətlərinin müxtəlifliyinə baxmayaraq, əsas dövlət dili türk, əsas dini isə islam dini olaraq göstərilirdi.

Fransız naturalisti Olivierin "Osmanlı imperiyası, Misir və İrana səyahəti" adlı səyahətnaməsində ziddiyyətli fikirlərə baxmayaraq, bu əsər ondan sonrakı etnoqrafik, etimoloji və sosioloji tədqiqatlar üçün qiymətli mənbə hesab oluna bilər.

## ƏDƏBİYYAT


1.Henry Blount. A voyage into the Levant, London, 1936, s.3. G.A.Russell. (1990). "Physicians at the Ottoman Court", Medical History, A Quarterly Journal Devoted to the History of Medicine and Related Sciences, vol. 34, no. 3, p.256

2. Olivier G.A. (1801-1807). Voyage dansl'Empire Othoman, l'Egypteet la Perse, fait par ordre du gouvernement pendant les six premieres annees de la Republique. Paris, H.Agasse, I volume, p.58

3.Osman Ergin. Türk Maarif tarixi. İ cild, İstanbul: 1997, 144 s.

4.http://en.wikipedia.org/wiki/Science and technology in the Ottoman Empire

5.http://sepharadesdulevant.fr/la-tolerance-dans-ladministration-delempire-ottoman-2/


## ПУТЕВЫЕ ЗАМЕТКИ Г.А. ОЛИВИЕРА ОБ ЭТНИЧЕСКИХ И КУЛЬТУРНЫХ РАЗЛИЧИЯХ СТАМБУЛА


**Х.Г.ДЖАВАДОВА, Г.Г.ХАНБАБАЕВА**


## РЕЗЮМЕ


Турция, с присущей ей древней и многогранной культурой, привлекала внимание исследователей во все времена. Именно, по этой причине приезжали сюда многие путешественники, торговцы и писатели. В 1801-1807 годах французский путеше-ственник Гийом Антуан Оливер, посетивший Турцию в XVIII веке, опубликовал шеститомное произведение, под названием "Путешествие по Османской империи, Египту и Персии". Посвятив четыре тома шеститомного собрания Османской Империи, Оливер, в своих путевых заметках описал географию, природные ресурсы, традиции, верования, занятия, историю государства и систему управления, а так же экономико-политическое состояние

и социальную жизнь жителей страны.

В статье представлен сравнительный обзор огромного города Стамбула с другими европейскими городами по книге Г.Оливера, а также показаны религиозные верования, культура, быт и занятия турков, которые являются основным населением города.

**Ключевые слова**: Г.А.Оливер, путевые заметки, Стамбул, этнический состав, культура

## ETHNIC COMPOSITION AND CULTURAL DIFFERENTIATION OF THE POPULATIONOF ISTANBUL IN G.OLIVIER'S TRAVELOGUE

**H.Q.JAVADOVA, G.Q.KHANBABAYEVA**

### SUMMARY

Turkey, with its ancient and rich civilization, has been in the center of attention of researchers in all historical periods. For this reason during centuries many travelers, merchants and writers travelled here.

In 1801-1807s the French reviewer Geom Antoine Olivier who visited Turkey in 18$^{th}$ century, published 6-volumed travelogue named by "The travel to Ottoman Empire, Egypt and Iran".

Devoting 4-volumed of his 6-volumed collection, Olivier described geography, natural resources, traditions, beliefs, affairs, history of government, also economy-political situation, also social life of population of the country.

The article deals with the comparative review of the largest city of Istanbul with other European cities, its religious faith, culture, lifestyle and business of Turkish people who were the main population of the city on the comparison with the rest of its people.

**Key words**: G.A.Olivier, travelogue, Istanbul, ethnic, composition, culture

## FƏLSƏFƏ

**UOT 930**

# DÜNYANIN MÜASİR ELMİ MƏNZƏRƏSİ ÜMUMMƏDƏNİYYƏT KONTEKSTİNDƏ

**Z.C.HACIYEV**
***Bakı Dövlət Universiteti***
***Z.Haciyev45@mail.ru***

*Məqalə dünyanın müasir elmi mənzərəsinin mədəniyyət ilə qarşılıqlı münasibətlərinin təhlilinə həsr olunmuşdur. Burada kosmologiyanın, kibernetikanın, ümumi təkamül prinsipinin və sinergetikanın nailiyyətlərinin ümummədəni inkişafda rolu açılır.*

*Belə bir məqam xüsusi vurğulanır ki, postindustrial cəmiyyətdə təbii, texniki və humanitar elmlərin vəhdətinin möhkəmlənməsi, elmi idrak ilə mədəniyyətin qarşılıqlı zənginləşməsini şərtləndirir.*

**Açar sözlər:** dünyanın müasir elmi mənzərəsi, mədəniyyət, dünyagörüşü, dəyərlər sistemi.

Dünyanın elmi mənzərəsini səciyyələndirən əsas parametrlər və ölçülər bütün dövrlərdə bəşəriyyətin ümumi mədəniyyəti ilə sıx qarşılıqlı təsirdə çıxış edir. Onların ayrılmaz əlaqəliliyi aşağıdakı təmələ əsaslanır: hər bir tarixi mərhələdə dünyanın elmi mənzərəsi, yalnız mövcud idraki potensialı əks etdirmir, həm də həmin dövrün sosial şəraiti və mədəniyyəti ilə bağlı surətdə formalaşır. Bu mənada yeni elmi biliklər ümumi mücərrəd və metafizik xarakter daşımır, öz mahiyyəti etibarilə real sosiomədəni məzmuna malik olur (3, 180).

Buradan aydındır ki, dünyanın elmi mənzərəsini ifadə edən bilklər sistemində obyektiv həqiqət meyarı ilə mədəniyyət ölçüləri bir-birilə çulğaşır. Bunu həmin anlayışın tərifi də sübut edir: “Dünyanın elmi mənzərəsi aparıcı elmi sahələrindəki biliklərin, təməl anlayışlarının və prinsiplərin bütöv sistemidir. Buraya müxtəlif elmlərin nailiyyətlərinin sintezi əsasında formlaşan, Kainat, üzvi təbiət, Cəmiyyət və İnsan haqqında ümumiləşmiş elmi təsəvvürlər, sosiohumanitar və təbiət elmlərinin uğurlarını əhatə edən dünyanın sosial və təbii-elmi mənzərəsi daxildir” (8, 622).

Hər bir dövrdə dünyanın elmi mənzərəsi ümummədəniyyət kontekstinə malikdir. Bu onunla izah edilir ki, həmin anlayışın məzmunundakı biliklər ikitərəfli funksiya yerinə yetirir. Bir tərəfdən, elmi idrakın strukturunun zəruri

komponenti kimi, onun inkişafını təmin edir. Digər tərəfdən "dövrün sosio-mədəni amillərinin idraka təsirini, habelə biliklərin, müvafiq dövrün mədəniyyətinə daxil edilməsini vasitələndirən infrastruktur rolunu oynayır" (6, 98).

Buna görə də elmi yeniliklər təkcə idrakı zənginləşdirmir, həm də mədəniyyətin koqnitiv təməlli kimi, onun inkişafında artmaqda olan əhəmiyyət kəsb edir. Bununla yanaşı o, mədəniyyətin güclü təsirinə məruz qalır. Sonuncu istiqamət daha çox dəyərlər vasitəsilə özünü göstərir. Başqa sözlə, hər bir dövrün ümumi mədəniyyətinin əsasında duran dünyagörüşü, dəyərlər sistemi və ideallar elmi axtarışlar sferasına yayılır və burada fəal rol oynayır (xüsusilə emin aksioloji mənalandırılmasında və elmi fəaliyyətin motivasiyası sistemində).

Dünyanın elmi mənzərəsi ilə mədəniyyətin qarşılıqlı münasibətləri hər bir tarixi mərhələdə spesifik xarakter daşıyır. Bu baxımdan müasir dövr daha səciyyəvi olub, aşağıdakı iki əsas keyfiyyəti ilə fərqlənir. Birinci, dünyanın hazırki elmi mənzərəsi, bu anlayışın ənənəvi məzmunu ilə müqayisədə daha zəngin və yüksək səviyyəyə malikdir. İkinci, ölkə daxilində və beynəlxalq miqyasda mədəniyyətin rolu artır və təsir dairəsi genişlənir. Bunu həm də ondan görmək olar ki, hazırda humanist prinsiplər və mədəniyyət oriyentirləri, elmi axtarışlar strategiyasının mərkəzinə keçir.

Hər iki məqam vəhdətdə çıxış edərək müasir sivilizasiyanın elmi nailiyyətlərini sosiomədəni ölçülər və bütövlükdə mədəniyyətin inkişafı mövqeyindən mənalandırmağı zərurətə çevirir. Hazırda nəzəri tədqiqatların cəbbəxanasında qərarlaşmış olan poliepistemoloji metodologiya sözügedən elmi tələbatı reallaşdırmağa geniş imkanlar açır.

Dünyanın elmi mənzərəsinin məzmunu, ictimai həyatın bütün sahələri (istehsal, texnika, siyasət, texnologiya və sair) kimi, insanların dünyagörüşü və mədəniyyətinə də mühüm təsir göstərir. Səciyyəvi cəhət budur ki, sonuncu istqamətdə onun rolu durmadan artmaqdadır.

Müasir elmin ümummədəni mənası hər şeydən əvvəl onun cəmiyyəti və bəşəriyyəti düşündürən həyat strategiyası problemlərinin həllinə yönəlməsində, sivil inkişafın yeni yollarının axtarılmasına istiqamətlənməsində ifadə olunur. Bu həm də belə bir praktiki tələbatdan törəyir ki, hazırda bəşəriyyət böhranlarla, ümumbəşəri qlobal problemlərlə üzləşmişdir. Onların uğurlu həlli, texnogen sivilizasiyanın mədəniyyətinə elmi rasionallıq mövqeyindən yanaşmağı tələb edir. Həmin prinsip mədəniyyətin daxili komponentləri sırasında təbiətin və cəmiyyətin məqsədyönlü yaradıcı dəyişdirilməsini əsas dəyər kimi qiymətləndirilir. Belə yanaşma dünyanın elmi mənzərəsini təşkil edən idarki nailiyyətləri elmi rasionallıq ilə sıx əlaqədə götürür. Həm də belə bir cəhəti xüsusi vurğulayır ki, rasionallıq dəyəri təkcə elmin koqnitiv məhələsində və tərəflərində ifadə olunmur. O idrak prosesinin əvvəlindən başlayaraq, sonuna qədər zəruri tərkib hissə kimi çıxış edir. Başqa sözlə, tədqiqat obyektinin seçilməsində, müvafiq informasiyanın toplanmasında, dərketmənin metodları və vasitələrinin müəyyənləşirdirilməsində, əldə olunmuş nəticələrin formulə

olunmasında və geniş kütləyə çatdırılmasında fəal rol oynayır. Bu məqam elm ilə mədəniyyətin ayrılmazlığının təmin edilməsində xüsusi yer tutur. Dünyanın müasir elmi mənzərəsi postqeyriklassik rasionallıq mərhələsinə əsaslandığı üçün, sonuncunun malik olduğu aşağıdakı səciyyəvi cəhətlər, onun mədəniyyətlə əlaqələrinin möhkəmlənməsinə əlverişli şərait yaradır: elmlərarası tədqiqatların və kompleks araşdırmaların ön plana keçməsi; insanın özünün də daxil olduğu mürəkkəb dinamik sistemlərin elmi tədqiqatlar dövriyyəsinə geniş cəlb olunması; müxtəlif elmlərin qovuşağında yaranan yeni nailiyyətlərin praktikada tətbiqi miqyasının genişlənməsi və sair (6, 274).

Müasir elmi idrakın rasionallıq səviyyəsi yüksəldikcə, o mədəniyyət ilə daha da yaxınlaşır. Bu həm də onunla əlaqədardır ki, sözügedən anlayış indi yeni cəhətlər (açıq xarakterlilik, dünyanın obyektiv həqiqi dərkinin mexanizminə və bu prosesin nəticələrinə daxil olan dəyərləndirici – mənalandırıcı strukturların refleksivliyi və sair) kəsb edir. Bu sırada müasir rasionallığın "açıq xarakteri" xüsusi yer tutur. Sözügedən keyfiyyət rasionallığın qapalı (məhdud) formasından fərqli olaraq, paradiqmadaxili çərçivə ilə məhdudlaşmır. O "müasir elmdən kənarda, digər mədəniyyətlərdə və dünyagörüşləri ənənələrində formalaşan alternativ dünya mənzərələri anlayışlarına diqqətlə və hörmətlə yaraşdırmağı nəzərdə tutur. Açıq rasionallığın növbəti mühüm keyfiyyəti odur ki, elmdə müxtəlif və bərbərhüquqlu mövqelərin dialoqunu və qarşılıqlı surətdə biri digərini zənginləşdirməsini irəli sürür (7, 98).

Qeyd olunan məqamlar mədəniyyətin inkişafı kontekstində mühüm əhəmiyyət kəsb edir. Məsələ burasıdır ki, müasir elmi bilik keçmişdəkindən fərqli olaraq, yalnız bir regionun mədəniyyəti ənənələri çərçivəsində formalaşan mentallıqları, fəlsəfi və dünyagörüşü ustanovkalarını əhatə etmir. Onun səciyyəvi cəhəti geniş məzmun alması, yəni həm də digər regionların, birinci növbədə Şərqin müvafiq göstəriciləri ilə sıx təmasının və qarşılıqlı təsirinin güclənməsidir. Qeyd olunan proses Şərq və Qərb mədəniyyətinin, dünyagörüşü və elmi ənənələrinin dialoquna əlverişli şərait yaradır.

Elmi, mədəniyyəti və sivilizasiyanı bir-birindən ayırmağa və təcrid etməyə yönələn müxtəlif cəhdlərə rəğmən, müasir nəzəri fikirdə onların sıx bağlılığı ideyası əsas yer tutur. Burada belə bir müddəa möhkəm qərarlaşmaqdadır ki, sivilizasiyanın və mədəniyyətin bu günü, xüsusilə də gələcəyi ilə bağlı problemləri yalnız elmi biliklərin inkişafı yolu ilə həll etmk mümkündür. Başqa sözlə, hazırda elmi rasionallıq haqlı olaraq sivilizasiyanın və mədəniyyətin ən yüksək dəyərlərindən biri kimi qiymətləndirilir. Qeyd edək ki, elmin bu rolu və mövqeyi heç də bütün tarixi sivilizasiyalarda düzgün mənalandırılmamışdır. Bu münasibətdə müasir sivilizasiya mühüm yeniliklər gətirmiş, bir tərəfdən yeni dəyərlər yaratmış, digər tərəfdən, aksioloji sistemdə elmin yüksək nüfuzluluğunu təmin etmişdir. Deyilənlərdən əlavə, müasir sivilizasiya elmi rasionallıq prinsipinə arxalanmaqla, tərəqqi ideyası, demokratiya, azadlıq, şəxsi təşəbbüskarlıq və sair ümumbəşəri dəyərlərin inkişafında mühüm irəliləyişlərə nail olmuşdur.

Dünyanın müasir elmi mənzərəsini ifadə edən biliklər sistemində ümumbəşəri mədəniyyət kontekstində aşağıdakı elmlər (kosmologiya, kibernetika, qlobal təkamül və sinergetika) xüsusi yer tutur.

Kosmologiya elmində qazanılan nailiyyətlər, dünya binasının yaranması, burada üzvü təbiətin və insan cəmiyyətinin meydana gəlməsi ilə bağlı sualların cavablarını dəqiqləşdirir, mövcud dünyagörüşünün elmi hüdudlarını daha da genişləndirir, yer kürəsi ilə səma cisimlərinin bir-birinə əks olduğu barədə sxolastik düşüncələrin aradan qalxmasına, onun yerinə varlığın bu iki əsas növünün, bütövlükdə dünyanın maddi vəhdəti haqqında təsəvvürlərin dərinləşməsinə gətirib çıxarır. Bu təməl üzərində cəmiyyətin həyat formalarında, dəyərlər sistemində, mədəniyyətində mütərəqqi meyillər qərarlaşır. İnsanlar "Kainatın təkcə öz evi və yaxın ətrafından ibarət olmadığını, sonsuz saylı ulduzlar aləmi və digər səma cisimlərini əhatə etdiyini anlamağa başlayırlar. Bu yönümdə olan irəliləyişlər, təbii elmi biliklərin humanist istiqamətinin inkişafını şərtləndirir, insanlarda bəşəriyyətin ümumi taleyinə qayğı və məsuliyyət hissini daha da gücləndirir.

Dünyanın müasir elmi mənzərəsinin ayrılmaz tərkib hissəsi olan kibernetika, özündə mədəniyyət aspektinin geniş yer tutması ilə səciyyələnir. Bu elmin müddəaları və prinsipləri, materiyanın müxtəlif formalarında fəaliyyət göstərən ümumi qanunauyğunluqları aşkara çıxartdı. Kibernetika, texniki, bioloji və sosial sistemlərdə idarəçiliyin ümumi əsaslarını işləyib hazırlandı, özünütənzimləyən mürəkkəb obyektlərin öyrənilməsi prosesini daha da genişləndirdi. Beləliklə də cəmiyyətin ümumi mədəniyyətinin inkişafına mühüm təsir göstərən yeni bir elm meydana gəldi.

Müasir elmi biliyin mədəniyyətin inkişafına təsirini araşdırarkən onun mühüm dayaqlarından olan qlobal (universal) təkamül konsepsiyasının mühüm rol oynadığı, xüsusi vurğulanmalıdır. Onun əsas məzmunu bunu ifadə edir ki, kainatın yaranmasının başlanğıcı olan "Böyük partlayış"dan sonra baş verən bütün dəyişikliklər, ümumi təkamül prosesinin ayrı-ayrı tərəfləridir və bir-birilə sıx əlaqədə çıxış edir. Beləliklə də kosmosda, cansız təbiətdə, üzvi aləmdə, insan cəmiyyətində və tarixi prosesdə özünü göstərən bütün təkamüllərin prinsipcə eyni cür baş verdiyi aşkara çıxarıldı. Bu ideya dünyanın bütöv və vahid tam olduğu haqda təsəvvürün formalaşmasında müstəsna rol oyanyır. Sözügedən konsepsiya kainatda baş verən proseslərin ümumi xarakter daşıdığını qeyd etməklə məhdudlaşmır. Onun başlıca mədəniyyət konteksti cansız təbiət, üzvi aləm və cəmiyyət arasında genetik əlaqələri izah etməyə yönəlməsidir. Bu baxımdan aşağıdakı məqam çox vacibdir: ibtidai (ilkin) canlı orqaizmlər ilə ekosistemlərin birgə təkamülü gedişində təkamülün keyfiyyətcə yeni tipi – "sosiomədəni təkamül" yaranır. Sonuncu, insan dünyası ilə kainat arasında əlaqəliliyi açıb göstərir. Bu iki tərəfin əlaqəliliyi, onlarda baş verən dəyişikliklərin yaxınlığı sayəsində ənənəvi qlobal təkamül yeni özünəməxsus keyfiyyət əldə edir – humanist məzmun ilə tamamlanır.

Müasir elmi biliklərin sintezi meylini özündə ifadə edən universal

təkamül prinsipi, məzmunundan və baş vermə sahəsindən asılı olmayaraq, reallıqda gedən bütün proseslərin (o cümlədən də sosial və mədəni həyatda) vahid elmi təsvirini verir.

Bu konsepsiya müasir dövrdə təkamül anlayışının yeni məzmun daşıması, özünün sistemliyi, geniş əhatə dairəsinə malik olması və dərinliyi ilə səciyyələndiyini müəyyən edir. Beləliklə də onun məzmunu bir sıra yeni fəlsəfi-metodoloji müddəalar ilə zənginləşir. Bütün bunlar belə bir müddəanın doğruluğunu sübut edir ki, qlobal təkamül "bizim dövrümüzdə baş verən böyük mədəni transformasiyanın mühüm bir aspektidir" (6, 392).

İnsanların şüurunda ümumi təkamül ideyası dərinləşdikcə, öz məzmununa görə bir-birindən fərqlənən müxtəlif dünyagörüşü konsepsiyalarını əlaqələndirmək və vəhdətdə götürmək mümkün olur.

Dünyanın müasir elmi mənzərəsinin mühüm və ayrılmaz tərkib hissəsi olan bioloji biliklərin ümummədəniyyət səpkisində rolu və əhəmiyyəti artır. Qeyd olunan münasibətdə XX əsrin ortalarına doğru qərarlaşmış olan biosfera təlimi xüsusi yer tutur. Əsası V.İ.Vernadski tərəfindən qoyulan və onun ardıcıllarının inkişaf etdirdiyi bu təlim, biosferanın yüksək təşkiledicilik xassəsinə malik olduğunu sübuta yetirdi. Həm də göstərdi ki, biosferanın dinamik sistem kimi inkişafı təkcə daxili struktur tərəflərin təsiri ilə baş vermir. Bu prosesin mexanizmində antropogen amillər daim artmaqda olan əhəmiyyətə malikdir. Sonuncular, biosferanın keyfiyyətinin yeniləşməsində, burada sabitlik ilə dəyişkənliyin vəhdətinin təmin olunmasında, xüsusilə də stabil inkişaf prosesində daha aydın təzahür edir. Başlıcası isə budur ki, antropogen amillərin təsiri altında biosferanın strukturundakı ciddi dəyişikliklər ilə yanaşı, burada humanist yönüm, insanlığa və mədəniyyətə meyllilik də güclənir. Bəşəriyyət sivilizasiya pillələri ilə yüksəldikcə, biosferanın yeni keyfiyyət halına – noosferaya keçməsində insanların dəyişdirici və yaradıcı fəaliyyətinin rolu artır. Bununla əlaqədar ümumi təkamülün müəyyən mərhələsində dünyanın inkişafının qanunauyğun nəticəsi kimi təşəkkül tapmış insanın və cəmiyyətin bu ümumi proses daxilində gələcəkdə də normal məcrada davam etməsinə qayğısı da güclənməkdədir. Sonuncu isə cəmiyyətin ümummədəni inkişafının əsas göstəricilərindən və meyarlarından birini təşkil edir.

Dünyanın elmi mənzərəsinin mədəniyyətə güclü təsir etdiyini aşağıdakı nümunədən də görmək olar. XIX əsrdə dünyanın elmi mənzərəsində hadisə və proseslərin müvazinətlilik və statiklik keyfiyyətinə malik olduğu müddəası əsas yer tuturdu. Bu insanların dünyagörüşünə və ümumilikdə mədəniyyətində də müvafiq əks olunmuşdu. Nəticədə ictimai inkişafın sinifsiz cəmiyyətin qurulması ilə başa çatacağı haqqında yanlış müddəa qərarlaşmışdı. Bundan tam fərqli olaraq dünyanın müasir elmi mənzərəsi sinergetik paradiqmanı əsas götürür. Sonuncu sübut edir ki, kainatda açıq, qeyri-müvazinətli sistemlər üstünlük təşkil edir. Onlarda geridönməzlik, qeyri-xəttilik və qeyri-müəyyənlik, ehtimalilik prinsipləri fəaliyyət göstərir. Təkcə canlı aləmdə deyil, həm də cansız təbiətdə özünütəşkiletmə, xaosdan nizama keçid baş verir. Sinergetika

varlığın üç müxtəlif əsas növündə (cansız təbiətdə, üzvü aləmdə və insan cəmiyyətində, gedən özünütəşkiletmə proseslərinin vahid, ümumi təsvirini verməklə, insanların şüurunda, dünyagörüşündə və mədəniyyətində inqilabiləşdirici rol oynayır. Bu elm sübut etdi ki, özünütəşkiletmə xassəsi, daim hərəkətdə olan materiyanın bütün formalarında fəaliyyət göstərir və yeni-yeni strukturların yaradılmasına gətirib çıxarır. Onun yaranmasına qədər belə təsəvvür olunurdu ki, sözügedən xassə yalnız üzvi aləmin sistemlərinə məxsusdur, cansız təbiətdə isə təkamül cüzi xarakter daşıyır və xaos (nizamsızlıq) yaradır. Sinergetika dünyanın elmi mənzərəsində böyük rolu həm də aşağıdakında ifadə olunur: bu təlim varlığın cansız və canlı formaları arasındakı qarşılıqlı münasibətləri izah etməklə, mühüm metodoloji yenilik gətirdi. Bu yeni paradiqmaya görə sistemlər müvazinət vəziyyətindən kənara çıxdıqca, onlarda yeni tipli dinamik vəziyyət – dissipativ strukturlar yaranır. Sonuncular, geridönməzlik xassəsinə malik olan bütün açıq sistemlərdə qərarlaşır. Məhz geridönməzlik müasir qeyri-müvazinət vəziyyətlərinin səciyyəvi cəhəti olaraq, təşkil etmənin yüksək səciyyələrini yaratmaqla nizamın mənbəyi rolunu oynayır (4, 54-55). Sözügedən prosesin mexanizmində təsadüflər özünütəşkilin bir səviyyəsindən digərinə keçilməsində böyük əhəmiyyətə malik olur. Dissipativ strukturlarda nizamın yaranması fluktuasiyalar vasitəsilə baş verir ki, sonuncular, sistemin komponentlərinin öz orta qiymətindən (kəmiyyətindən) təsadüfi kənara çıxması deməkdir. Fluktuasiyalar o qədər güclənir ki, sistemin mövcud təşkili tab gətirmir və dağılır. Bifurkasiya (haçalanma) adlanan belə dönüş məqamlarında sistemin gələcək inkişafının hansı yol ilə gedəcəyini, yəni onun xaotik vəziyyət alacağını, yoxsa nizamlılığın daha yüksək mərhələsinə keçəcəyini irəlicədən söyləmək qeyri-mümkün olur. Bu məqamda təsadüflər sanki, köhnə sistemin qalıqlarını yeni inkişaf yoluna doğru itələyir. Yeni yol seçildikdən sonra isə determinizm (səbəbiyyət) prinsipi təkrarən fəaliyyət göstərir (4, 17-18; 28-29).

Sinergetikanın ümummədəniyyət kontekstində dərin mənası həm də bunda ifadə olunur ki, o təkamül və özünütəşkil qanunun bütün sistemlərdə fəaliyyət göstəridiyini əsaslandırdı. Beləliklə də, özünütəşkil edən sistemlərin təkcə cansız təbiətdə və bioloji aləmdə deyil, həm də sosial həyatda fəaliyyət göstərdiyini əsaslandırdı. Nəticədə özünütəşkiletmənin sosial proseslərdə tətbiqi miqyası genişləndi, təkamül paradiqmasının təkcə elmi deyil, həm də mühüm humanist və mədəniyyət səpkisinə malik olduğu aşkara çıxdı. Hazırda təkcə fiziki, kimyəvi və bioloji hadisələr deyil, həm də qlobal miqyaslı proseslər (iqtisadi, sosial, demoqrafik, ekoloji və sair) də özünütəşkiletmə prinsipi üzrə təsvir olunur.

Müasir cəmiyyətin inkişafında və özünütəşkil mexanizmində obyektiv amillər ilə yanaşı subyektiv amillərin (şüurluluğun olması, təhsil səviyyəsinin intellektual təfəkkürün, mənəvi mədəniyyətin) əhəmiyyəti çoxalır. Bu şəraitdə cəmiyyət idarəçiliyində elmi dünyagörüşünün ünsürləri (hadisələrin mənalandırılması və qiymətləndirilməsində yüksək səriştəlilik, ictimai marağı əsas

götürmək, mənəvi dəyərlərin dominantlığı və sair), habelə onun ümumi idarəçilik mədəniyyəti getdikcə artmaqda olan rol oynayır.

Dünyanın müasir elmi mənzərəsi ilə mədəniyyətin qarşılıqlı əlaqələri özünün mürəkkəbliliyi və polifunksionallığı ilə səciyyələnir. Bu münasibətlərin mexanizmində təkcə birbaşa təsir deyil, həm də dolayı formalar mühüm yer tutur. Daha dəqiq desək, elmi biliklərin praktiki tətbiqini əhatə edən texniki tərəqqinin və texnologiyaların insanların əmək fəaliyyətinə və məişətinə geniş miqyaslı nüfuz etməsi, onların sosiomədəni həyatında, sosial əlaqələrində, ünsiyyət formalarında, kommunikasiyada və infrastukturda – bütövlükdə həyat tərzində çox mühüm irəliləyişləri şərtləndirir. Nəticədə, insanların ümumi dünyagörüşündə və mədəniyyətində yeni oriyentasiyalar formalaşır. Həyata inam, optimist əhval-ruhiyyə yaranır, gələcəyin onlara xoşbəxtlik gətirəcəyi haqqında təsəvvürlər çoxalır. Həm də nəzərə alınmalıdır ki, bəşəriyyətin modernləşməsi və inkişafı genişləndikcə, mədəniyyətin ənənəvi anlamı da ciddi transformasiyaya məruz qalır, onun ayrı-ayrı əyalətlər miqyasında mövcudluğu tədricən aradan qalxır, müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri, dialoqu və beynəlmilləşməsi güclənir. Qeyd olunan meyillər müasir insanın dünyagörüşünün əsaslarında, onun dünyada yeri və rolunun, məqsədlərinin və fəaliyyət amalının anlaşılmasında ciddi irəliləyişlər yaradı. Bununla yanaşı, mədəniyyət sferasında yeni ideyalar, dəyərlər, nümunələr və mütərəqqi təsəvvürlər daha da çoxalır.

Söylənilən irəliləyişləri müasir təbiət - cəmiyyət münasibətləri mədəniyyətindəki yeniliklərdə daha aydın görmək olar. Əgər ənənəvi mədəniyyətdə təbiətin cəmiyyətə tabe etdirilməsi, buradakı resurslardan mümkün qədər çox istifadə olunması ideyası hökmran idisə, bunun tam əksinə olaraq, müasir mədəniyyət tipi təbiətlə zəkalı, müvazinətli münasibətlər yaratmaq, onun israfına yol verməmək, təbii ehtiyatlara qayğı göstərmək və qorumaq üstündə məsuliyyətin artması ilə səciyyələnir. Müasir elmi-texniki inkişafın təbiətə pozucu təsirinin qarşısını almaq, cəmiyyət ilə ətraf mühit arasında zəkaya əsaslanan noosfera prinsiplərinə əməl etmək, zamanın mədəniyyət imperativinə çevrilir. Bu münasibətdə biosferanı sağlamlaşdırmaq bəşəriyyətin gələcəyi naminə normal bioloji şərait yaratmaq məqsədi güdən qlobal ekoloji modellərin işlənib hazırlanması diqqəti cəlb edir (2, 768).

Canlı təbiətin mürəkkəb ekosistemlərin qarşılıqlı təsiri olduğunu əsaslandıran ekoloji biliklər, insanların fəaliyyətində təbiətin yeri və rolunun adekvat mənalandırılmasına dair təsəvvürlər, dünyanın elmi mənzərəsinə getdikcə daha çox daxil olmaqdadır. Bu qəbildən olan yeniliklər cəmiyyətin ümum mədəniyyətinin dünyagörüşü əsaslarında mühüm dəyişikliklər yaradır, zəmanəmizin mənəvi və dəyərlər oriyentasiyasına güclü təsir göstərir. Sözügedən prosesdə həm də insanların fərdi şüuru ilə ümummədəni mentalitetinin özünəməxsus qovuşması baş verir. Başlıcası isə budur ki, təbiətə qayğı və onun qorunmasına diqqət çoxalır, bu isə dünyanın elmi mənzərsinin aksioloji mənasının artdığına dəallət edir. Cəmiyyətin mədəniyyətində əsas mövqelərin, dəyərlərin və həyat amallarının anlaşılmasında baş verən köklü irəliləyişlər,

müasir insanın ümumi dəyişdirici – yaradıcı fəaliyyətinin mədəniyyət əsaslarını durmadan genişləndirir. Bu prosesdə həm də şəxsiyyətin mədəni avtonomluq sferası böyüyür, o digər insanlarla ümumi sosial və mədəni əlaqələrini suverən qaydada qura, bəyəndiyi mədəniyyət nümunələrinə qovuşa bilir. Nəticədə insanlarda dünyanın mənzərəsi haqqında elmi biliklər sistemi daha da zənginləşir, cəmiyyət və özü haqqında yeni təsəvvürlər formalaşır. Bütün bunlar şəxsiyyətlərdə dinamik və kreativ xarakterli təfəkkür tipinin bərqərar olmasına mühüm təsir göstərir. Sonuncunun səciyyəvi cəhətini ideal ilə, sivil mədəniyyətlə ayrılmaz əlaqəlilik və vəhdət təşkil edir. İctimai şüurda və mədəniyyətdə baş verən sözügedən transformasiyalar, dünyaya müxtəlif elmlərin sintezini ifadə edən baxış bucağının dərinləşməsi ilə bağlı surətdə baş verir. Nəticədə elmi biliklər, təbii və sosial həyatı tənzim edən, onu insanların məqsədinə müvafiq surətdə dəyişdirməyə qadir olan dəyər, inkişaf və tərəqqinin təminatçısı statusu kəsb edir. Bu proses öz növbəsində mədəniyyətin bütün sahələrinə fəal təsirin artması ilə müşayiət olunur. Bu təsadüfi olmayıb, onunla izah edilir ki, bütün digər sahələrdə olduğu kimi, mədəniyyət sferasında da insanın yaradıcı fəaliyyəti, onun qiymətini və əhəmiyyətini müəyyən edən dəyər anlayışı, habelə fəaliyyət nəticəsində yaradılacaq məhsulun ideal obrazı olan məqsəd ilə ayrılmaz surətdə bağlıdır.

Qeyd olunan məqam da elmi biliklərin mədəniyyət ilə yaxınlığını daha da artırır. Müasir elm yalnız real mövcud olan təbii obyektlərini öyrənməklə məhdudlaşmır, həm də insanların dəyərlərini və bütövlükdə şüur hadisələrini gələcək məqsəd kontekstində araşdırır. Bu halda təbiidir ki, hər bir konkret elm, psixiki proseslərə öz predmeti mövqeyindən yanaşır, onların obyektiv qanunlarını aşkar etməyə cəhd göstərir. Lakin onun bu yönümdə qazandığı uğurlar, həmin elmin hüdudları çərçivəsində qalmır, bütövlükdə cəmiyyətin mədəniyyət sisteminə qovuşaraq, onu daha da zənginləşdirir və inkişaf etdirir. Sonuncu proses, yəni mədəniyyətin tərəqqisi, özünün müvafiq ifadəsini elmi biliyin nəticələrinin izahında və təbliğində, qəbul olunmuş ümumi standartlarda və bütövlükdə təfəkkür tipinin yeniləşməsində tapır. Qeyd olunan vəziyyət təsadüfi olmayıb, onunla izah edilir ki, hər bir elmi yenilik, konkret dövrün sosiomədəni şəraitində, həmin şəraiti təşkil edən müxtəlif mədəniyyət amillərinin güclü təsiri altında yaranır. Bu təsir o qədər böyükdür ki, bəzi sosiomədəni amillər, hətta müxtəlif elmi biliklərin məzmununa daxil ola bilir. Digər tərəfdən, sivilizasiyanın elmi potensialının inkişafı prosesində müxtəlif mədəniyyətlərin elmi əsaslandırılmış sintezi baş verir. Bu məqam da insanların dünyagörüşü ustanovkalarının və dəyərlər sisteminin formalaşmasında dünyanın elmi mənzərəsinin rolunu artırır.

Müasir elm prinsipcə yeni tipli obyektləri öyrəndiyi üçün, onun evrsitik dəyəri də artır. Bununla əlaqədar olaraq elmi təhlilin əsasları və təməl prinsipləri dəyişilir, o yeni universal ideyalar üzərində qurulur. Dünyanın elmi mənzərəsi belə sistemləri araşdırmağın strateji əsası rolunu oynayır. Hazırda elmin əsas obyekti kompleks və unikal inkişaf edən sistemlər təşkil edir. Onları

isə yalnız müxtəlif fənlərarası qarşılıqlı təsir metodlarına arxalanmaqla dərindən öyrənmək mümkündür. Bu işdə "dünyanın ümumelmi mənzərəsi qlobal tədqiqat proqramı kimi çıxış etməklə, bir elm sahəsindən digərinə ötürülə bilən metodları və prinsipləri, müxtəlif elmlərdə əldə olunmuş uğurların qovuşdurulması yolunu, nəhayət, bu bilikləri elmin inkişafının müvafiq mərhələsində mədəniyyətin tərkibinə necə daxil etməyi öyrədir" (6, 403).

Hazırda müxtəlif elmlərdə qazanılmış nailiyyətlərin sintezi nəhəng kompleks proqramlar və fənnlərarası tədqiqatlar zəminində həyata keçirilir. Sonunculara nümunə kimi informatikanı, ekologiyanı, biotexnologiyanı, biotibbi tədqiqatları və sairi göstərmək olar. Dünyanın müasir elmi mənzərəsinin inkişafını müəyyən edən daxili koqnitiv amillər ilə; sosial məqsədlərin və dəyərlərin vəhdəti fənlərarası əlaqələrin və qarşılıqlı təsirin möhkəmlənməsini şərtləndirir. Səciyyəvi cəhət budur ki, sözügedən proses təkcə təbiət elmlərinin çərçivəsi ilə məhdudlaşmır. Onun tərkibinə sosial fənlər də fəal qoşulmaqdadır, çünki müasir elmi araşdırmaların əksəriyyətinin obyektini insan və onun fəaliyyətinin də daxil olduğu mürəkkəb inkişaf edən sistemlər təşkil edir. Qeyd olunan vəziyyət təbiət, texniki və sosial elmlər arasında əlaqələri möhkəmləndirməklə yanaşı, onların hamısının məzmununda mədəniyyət çalarlarını da çoxaldır. Bu meyl son dərəcə əhəmiyyətlidir, çünki təbiət elmləri ilə humanitar elmləri bir-birinə qarşı qoyan və onların hər birinin digəri üçün başa düşülməyən dildə mədəniyyət yaratdığı haqda baxışların əsassızlığını sübut edir (5, 43).

Hazırda qlobal prinsiplər əsasında təbiət və humanitar elmlərin vəhdətinin möhkəmlənməsi, dünyanın ümumelmi mənzərəsinin mədəniyyət səpkisini daha da gücləndirir, çünki hər iki elm qruplarının öyrəndikləri obyektlər sırasında insan, onun dünyada və cəmiyyətdə yeri, fəaliyyətinin mahiyyəti ilə bağlı problemlər getdikcə daha çox yer tutur.

İndi müxtəlif elm sahələrində aparılmış tədqiqatların nəticələrinin ümummədəniyyət mövqeyindən tənzim olunması və qiymətləndirilməsi, son dərəcə zəruridir. Söhbət elmi fəaliyyətin, insani, antropoloji meyarlarının ön plana çəkilməsindən gedir. Əslində, özü-özlüyündə götürülən hər hansı elmi bilik etik ölçüyə malik deyildir. Onun sonuncu səpkisi məhz insana, cəmiyyətə və mədəniyyətə münasibətdə dəyəri və qiyməti ilə müəyyən olunur (1, 7).

Məsələ burasındadır ki, dünyanın müasir elmi mənzərəsi liderləri sferasında möhkəm qərarlaşmış olan təbabət elmlərində və molekulyar biologiyada, gen mühəndisliyində, klonlaşdırma sahələrində baş verən heyrətamiz kəşflər bəşəriyyətin sağlamlığının qorunmasına, səhiyyə mədəniyyətinin və bütövlükdə mədəniyyətin yüksəlişinə güclü müsbət təsir göstərir. Bununla yanaşı, qeyd edilməlidir ki, onlardan sui isifadə olunması, mədəniyyətə pozucu təsir göstərir, mədəniyyətin təbii əsaslarının sarsıdılması ilə nəticələnə bilir. Təsadüfi deyildir ki, hazırda bu problematika təkcə elmi dairələrdə deyil, həm də geniş ictimaiyyət arasında müzakirə olunmaqdadır. Əsas mübahisələr qeyd olunan elmi yeniliklərin tətbiqi prosesində nöqsanlara yol verməmək, onlardan

ümummədəni inkişaf naminə istifadə etmək ətrafında gedir.

Keçmişdə olduğu kimi, indi də dünyanın təbii-elmi mənzərəsi ilə mədəniyyətin əlaqələrində fəlsəfə xüsusi rol daşıyır. Bu həmin elmin predmetində "dünya – insan" münasibətlərinin əsas yer tutmasından, onun digər elmlər sistemində özünəməxsus mövqeyi və dünyagörüşü forması kimi çıxış etməsindən, başlıcası isə ümumi mədəniyyətin əsas tərkib hissəsi olmasından irəli gəlir. Fəlsəfi dünyagörüşü, rasional biliyin yüksək növü olaraq dünya ilə cəmiyyətin münasibətlərini, bu sistemdə insanın fəaliyyətini, onun doğurduğu elmi və mədəni nəticələri adekvat surətdə mənalandırır. Çünki, o obyektiv və subyektiv, maddi və mənəvi tərəflərin rolunu düzgün əlaqələndirən, gündəlik qayğı ilə gələcək perspektivi vəhdətdə götürən intellektual zəkaya arxalanır.

Postindustrial cəmiyyətdə (müstəqil dövlətlər hazırda bu mərhələdədir) biliyin və informasiyanın rolu qeyri-adi dərəcədə artır. Bununla əlaqədar olaraq əhalinin geniş təbəqələrinin elmi nailiyyətlərə yiyələnməsi zərurət kimi çıxış edir. Digər tərəfdən, elmi biliklər hamı üçün əlçatar olur. Qeyd olunan proses, insanların intellektual səviyyəsinin yüksəlməsi ilə müşayiət olunur. Nəticədə onların dünyagörüşündə elmi əsasların genişlənməsi ilə yanaşı, ümumi mədəni inkişafı da baş verir.

Deyilənlərdən aydın olur ki, ümumi mədəniyyətin iki başlıca sahəsində (təbii-elmi və humanitar) tarazlığın yaradılması, nəzəri və praktiki yönümdən müstəsna əhəmiyyətə malikdir. Onlar arasında ayrılıq və uyğunsuzluq, müasir sivilizasiyanın inkişafına ciddi əngəl yaradır, çünki, elm və mədəniyyət dayanıqlı inkişafı təmin edən iki əsas dayaqdır. Formalaşmaqda olan ümumi planetar təfəkkür, bir tərəfdən elmi nailiyyətlər hesabına idrakın hüdudlarının genişlənməsini, digər tərəfdən isə onun mədəniyyətə təsirinin gücləndirilməsini nəzərdə tutur.

Beləliklə, dünyanın müasir elmi mənzərəsi müxtəlif elmlərdə baş verən fundamental nəticələri bir-birilə sintez edərək, cansız təbiətin, üzvi aləmin, insanın və cəmiyyətin inkişafını əhatə edən bütöv nəzəri obraz yaradır. O, müasir mədəniyyətin dünyagörüşü universalilləri ilə fəal qarşılıqlı təsirdə çıxış edir. Bu qarşıqlı təsir bir tərəfdən, elmin inkişafının müəyyən mənada mədəniyyətə adaptasiya etməsini digər tərəfdən isə mədəni mentallığa gətirdiyi mühüm dəyişiklikləri əhatə edir.

**ƏDƏBİYYAT**


1. Агацци Э. Моральное измерение науки и техники. М., 1998, 312 с.
2. Дубнищева Т.В. Концепции современного естествознания. Новосибирск: ЮКЕА, 1997, 832 с.
3. Лебедев С.А. Философия науки. М.: Юрайт 2012, 326 с.
4. Пригожин И., Стенгерс И. Порядок из хаоса. М., 1986, 278 с.
5. Сноу Ч. Две культуры. М.: Прогресс, 1993, 294 с.
6. Степин В.С. Теоретическое знание. М.: Наука, 1999, 742 с.
7. Швырев В.С. Рациональность как ценность культуры// Вопросы философии. 1992, №6, с. 92-105.
8. Энциклопедия эпистемологии и философии науки. М.: Прогресс, 2010, 842 с.

## СОВРЕМЕННАЯ НАУЧНАЯ КАРТИНА МИРА В КОНТЕКСТЕ КУЛЬТУРЫ

**З.Дж.ГАДЖИЕВ**

**РЕЗЮМЕ**

Статья посвящена анализу взаимоотношенний современной научной картины мира и культуры. В ней раскрывается роль космологии, кибернетики, универсальной эволюции и синергетики в развитии общей культуры.

Подчеркивается, что укрепление единства естественных, технических и гуманитарных наук в современном постиндустриальном обществе, обусловливает взаимообогащение научного познания и культуры.

**Ключевые слова:** современная научная картина мира, культура, мировоззрение, система ценностей.

## THE MODERN SCIENTIFIC VISION OF THE WORLD IN THE CONTEXT OF WORLDWIDE CULTURE

**Z.C.HACİYEV**

**SUMMARY**

This article is devoted to the analysis of the interrelationship of the modern scientific vision of the world and culture. We analyses there the general evolutionary principle of cosmology and cybernetics, as well as the role of synergetic in the progress of worldwide culture.

We think that the increase of the unity between natural, technical and humanitarian sciences causes a deepening interrelationship between scientific knowledge and culture.

**Key words:** the modern scientific vision of the world, culture, worldwide, the value system.

# MÜNDƏRİCAT

## HÜQUQ

**Qurbanova F.İ.**
1948-ci il İnsan Hüquqları Ümumi bəyannaməsi və onun şərhi ilə müasir insan hüquqlarının və azadlıqlarının konsepsiyası.....................................5
**Cəfərov Q.V.**
Cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilə bilməsi üçün müdafiə tərəfinin dispozitiv razılığı haqqında .......................................................16
**Əzimov Z.N.**
Hüquqi kolliziyaların anlayışı.........................................................................31
**Həmidova A.F.**
Konstitusiya qanunlarının hüquqi tənzimləmə predmeti məsələsi..........................42

## İQTİSADİYYAT

**Aslanov H.H.**
Səmərəli regional iqtisadi siyasətin formalaşmasında iqtisadiyyatın tənzimlənməsinin rolu..........................................................................52
**Zeynalov Z.H.**
Təhsilin maliyyələşdirilməsinə yeni baxış.............................................61
**Axundova A.H.**
Turizm infrastrukturunun kompleks inkişafının nəzəri-metodoloji məsələləri..........................................................................74

## SOSİOLOGİYA VƏ PSİXOLOGİYA

**Şəfiyev Ü.A.**
Dağlıq Qarabağı icma hökumətləri idarə edə bilərmi?!.........................................85
**Cavadova H.Q., Xanbabayeva G.Q.**
G.A.Olivierin səyahətnaməsində İstanbulun etnik və mədəni müxtəlifliyi haqqında ..........................................................................101

## FƏLSƏFƏ

**Hacıyev Z.C.**
Dünyanın müasir elmi mənzərəsi ümummədəniyyət kontekstində........................113

## СОДЕРЖАНИЕ

### ПРАВО

**Курбанова Ф.И.**
Современная концепция прав и свобод человека
в контексте всеобщей декларации прав человека 1948 г.
*(343.211.3 - защита прав человека)*.................................................................5
**Джафаров Г.В.**
О диспозитивном согласии стороны защиты для прекращения уголовного
преследования по не реабилитирующим основаниям.....................................16
**Азимов З.Н.**
Понятие юридических коллизий .......................................................................31
**Хамидова А.Ф.**
Вопросы предмета регулирования конституционных законов .......................42

### ЭКОНОМИКА

**Асланов Г.Г.**
Роль регулирования экономики в формировании региональной
экономической политики ...................................................................................52
**Зейналов З.Г.**
Новый взгляд на финансирование образования...............................................61
**Ахундова А.Х.**
Теоретико – методологические вопросы
комплексного развития инфраструктуры туризма ..........................................74

### СОЦИОЛОГИЯ И ПСИХОЛОГИЯ

**Шафиев У.А.**
Возможно ли, организовать общинное правление в Нагорном Карабахе? ....85
**Джавадова Х.Г., Ханбабаева Г.Г.**
Путевые заметки Г.А. Оливиера об этнических
и культурных различиях Стамбула ..................................................................103

### ФИЛОСОФИЯ

**Гаджиев З.Дж.**
Современная научная картина мира в контексте культуры............................113

## CONTENTS

### LAW

**Qurbanova F.I.**
The modern concept of human rights and freedoms
in the context of univesal declaration of human rights of 1948. ............................ 5
**Jafarov Q.V.**
On the legal consent of the defence party to discontinue criminal
proceedings on non-rehabilitative grounds ............................................................ 16
**Azimov Z.N.**
Concept of legal collisions ......................................................................................... 31
**Hamidova A.F.**
Issues of the object regulation of constitutional conventions ................................ 42

### ECONOMICS

**Aslanov H.H.**
Role of regulation of economy in forming regional economic policy ................... 52
**Zeynalov Z.H.**
New view on financing of education ...................................................................... 61
**Akhundova A.Kh.**
Theoretical - methodological issues of complex development
of tourism infrastructure.......................................................................................... 74

### PSYCHOLOGY, SOSIOLOGY

**Shafiyev U.A.**
Is it possible to organize community based government
in Nagorno-Karabakh? ............................................................................................ 85
**Javadova H.Q., Khanbabayeva G.Q.**
Ethnic composition and cultural differentiation
of the populationof istanbul in G.Olivier's travelogue .......................................... 103

### PHILOSOPHY

**Haciyev Z.C.**
The modern scientific vision of the world in the context
of worldwide culture ............................................................................................... 113